Xalqın qəzeti!

# Xalq qəzeti

№ 121 (30525) 9 iyun 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Soydaşımız kosmik uçuşu uğurla başa vurub

**Türkiyənin azərbaycanlı astronavtı Tuva Cihangir Atasevər kosmosda missiyasını başa vurub.**

Bakı vaxtı ilə saat 18:30-da (yerli vaxtla saat 08:30) başlayan uçuş bir saat iyirmi dəqiqə davam edib. Uçuşdan, təxminən, 40 dəqiqə sonra astronavtların olduğu kosmik kapsul daşıyıcı raketdən ayrılıb. 15 dəqiqə ərzində elmi təcrübələr həyata keçirilib. Daha sonra əvvəl kosmik kapsul, ardınca daşıyıcı raket Yerə uğurlu eniş edib.

***XQ***

# Azərbaycan–Misir: ikitərəfli əlaqələrin inkişafı ölkələrimizi daha da yaxınlaşdırır

## Azərbaycan Prezidenti İlham Əliyevin Misirə rəsmi səfəri

### Qahirədə rəsmi qarşılanma mərasimi



**İyunun 8-də Misirin paytaxtı Qahirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olub.**



Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısının şərəfinə toplardan yaylım atəşi açıldı.

Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycan Respublikasının və Misir Ərəb Respublikasının dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.

Azərbaycan və Misir prezidentləri fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Misir nümayəndə heyəti Prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə Prezident Əbdülfəttah əs-Sisiyə təqdim olundu.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

## Revanşistlər “həlledici döyüş” ərəfəsində

**Ermənistan və Azərbaycan arasında aprelin 19-da delimitasiya və demarkasiya sahəsində əldə edilən razılaşmaya etiraz əlaməti olaraq kütləvi aksiyalara başlayan Hayastanın radikal müxalifəti aranı qarışdırmaqdan, süni gərginlik yaratmaqdan əl çəkmir. Onlar bu gün saat 18:30-da İrəvanın mərkəzindəki Respublika meydanında növbəti dəfə mitinq keçirməyi nəzərdə tutublar.**



Budəfəki mitinqin proseslərin bundan sonrakı inkişafı üçün xüsusi əhəmiyyətə malik olduğu bildirilir. Bunu Ermənistanda həm hakimiyyət, həm müxalifət, həm də müstəqil ekspertlər başa düşürlər. Görünür, elə buna görədir ki, radikallar mitinqə xüsusilə ciddi şəkildə hazırlaşıblar. Bunu onların hərəkətlərindən də görmək olar. Etirazçıların lideri, erməni apostol kilsəsinin Tavuş yeparxiyasının arxiyepiskopu Baqrat Qalstanyan iyunun 1-də Gümrüdə keçirilən mitinq zamanı bildirmişdi ki, iyunun 9-dan hərəkatın sonuncu mərhələsinə başlanılacaq: “Biz iyunun 9-da böyük mitinq keçirəcəyik və bu, yəqin ki, həqiqətin qələbəsinin (?) son möhürü olacaq”.

**(ardı 6-cı səhifədə)**

## Bakı–İrəvan: sülh sazişinin imza platforması və qlobal rəqabət amili

### *Ermənistan manipulyasiyadan əl çəkəcəkmi?*

**Bir müddət əvvəl Rusiyanın Müdafiə naziri Andrey Belousov bildirmişdi ki, Qərb Azərbaycana və Ermənistana yekun sülh sazişi xüsusunda təzyiq göstərir. Nazir konkret şəkildə vurğulamışdı ki, Bakıya və İrəvana yalnız Qərb platformalarında sülh müqaviləsi imzalamaq, habelə, vasitəçilik xidmətləri təklif və tətbiq edilir.**



Bəli, Belousov məsələni əbəs yerə gündəmə gətirməmişdi. Hər halda, o, kifayət qədər məlumatlıdır və dediklərindən belə qənaətə gəlmək mümkündür ki, delimitasiya və demarkasiya prosesləri əsasında Bakı–İrəvan təmasları ilə yekun sülh müqaviləsi tamam başqa-başqa mövzulardır. Deməli, ikinci məsələ Qərb–Rusiya rəqabəti baxımından aktuallığını qoruyur. Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın da mövzuya yer verməsi onu göstərir ki, Moskva bu rəqabətdə iştirakı barədə ciddi düşünür.

Əlbəttə, Azərbaycan–Ermənistan sülh müqaviləsi ilə bağlı vəziyyətin dramatik şəkil alacağını gözləmək mümkündür. Şübhəsiz, bu məsələdə başlıca söz sahibi Azərbaycandır. Ölkəmizin isə öz şərtləri var. Həmin şərtləri Prezident İlham Əliyev bir neçə gün əvvəl TÜRKPA-nın nümayəndə heyəti ilə görüşündə açıqladı. Birincisi, Ermənistan konstitusiyası dəyişməli, oradan Azərbaycana və Türkiyəyə ərazi iddiası ilə bağlı müddəalar çıxarılmalıdır. İkincisi, Bakı və İrəvan müştərək qaydada müraciət hazırlayaraq, ATƏT-in Minsk qrupunun rəsmən ləğvinə nail olmalıdırlar. Dövlətimizin başçısı bu şərtləri irəli sürməklə, Azərbaycan–Ermənistan sülh prosesinə fundamentallıq gətirir. Yəni, erməni separatizmi baxımından heç bir şübhə yeri, tutacaq nöqtə saxlamır. Axı Ermənistanın gələcəkdə ehtimal edilən manipulyasiyası üçün əsas qalmamalıdır.

**(ardı 5-ci səhifədə)**

## Avroparlamentdə “sağçılıq” mərəzi

### *“Qoca qitə”nin qanunverici orqanında qüvvələr nisbətinin dəyişməsi ciddi fəsadlara səbəb ola bilər*



**“Qoca qitə”nin ali qanunverici orqanı sayılan Avropa Parlamentinə (AP) seçkilər öncəsi ekspertlərin verdikləri proqnozlar heç də nikbin nəticələrə söykənmirdi. Yəni, seçkiqabağı proseslərdə sağ-mərkəzçilərin mövqelərinin gücləndiyini söyləyənlərlə yanaşı, qurumun “xaç atası” Fransa prezidenti Emmanuel Makronun məğlubiyyətinin qaçılmaz olacağına əmin olanlar da az deyildi.**

Bütün hallarda Avropa İttifaqının bu üstqurumunda son altı ayda müşahidə etdiyimiz xoşagəlməz hadisələr – bəzi parlamentarilərin adlarının korrupsiya qalmaqallarında hallanması, siyasi baxışlara görə qruplaşmalar arasında qızışan rəqabət, AP-nin ermənipərəst üzvlərinin təşkil etdiyi anti-Azərbaycan qətnamə və bəyanatları burada heç də işlərin sağlam və şəffaf məcrada getmədiyindən xəbər verirdi.

**(ardı 4-cü səhifədə)**

### Əməkhaqqı fondu şəffaflaşır ...



Səhifə ➩ 7

### ABŞ nüvə arsenalını artıracaqmı?



Səhifə ➩ 11

# Liderlərin təkbətək görüşü



İyunun 8-də Qahirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi ilə təkbətək görüşü olub.

# Prezidentlərin geniş tərkibdə görüşü keçirilib



İyunun 8-də Qahirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi ilə geniş tərkibdə görüşü keçirilib.

Görüşdə Azərbaycan ilə Misir arasında ikitərəfli siyasi əlaqələrin səviyyəsindən məmnunluq ifadə olundu. Ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı yüksək qiymətləndirildi, bu xüsusda Qoşulmama Hərəkatında və İslam Əməkdaşlıq Təşkilatında işbirliyi vurğulandı. Misirin COP27-yə, Azərbaycanın isə COP29-a sədrlik etməsi vurğulanaraq, ölkələrimiz arasında bu sahədə əməkdaşlıq və təcrübə mübadiləsinin aparılması qeyd olundu.

BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) vasitəsilə Dünya Şəhərsalma Forumuna Misirin bu il, Azərbaycanın isə 2026-cı ildə evsahibliyi edəcəyi nəzərə alınaraq, bu sahədə də təcrübə mübadiləsinin və birgə əməkdaşlığın önəmi vurğulandı.

Söhbət zamanı ölkələrimiz arasında enerji, tikinti, sənaye, əczaçılıq, nəqliyyat və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə olundu, hökumətlərarası komissiyanın növbəti iclasının Misirdə keçiriləcəyi bildirildi. Azərbaycanın biznes nümayəndə heyətinin Misirə səfər etdiyi və müxtəlif sahələrdə əməkdaşlıq imkanlarının hazırda nəzərdən keçirildiyi qeyd olundu.

Həmçinin Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin imkanlarının artırılması, Misirin Türkiyənin Mersin limanı vasitəsilə bu xətdən istifadə edərək, Mərkəzi Asiya ölkələri ilə iqtisadi-ticari əlaqələrin genişləndirilməsi məsələləri müzakirə olundu. Şimal–Cənub Nəqliyyat Dəhlizi və bu xüsusda əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

Görüşdə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşma prosesinin Misir tərəfindən dəstəkləndiyi, dörd kəndin danışıqlar yolu ilə Azərbaycana qaytarıldığı, iki ölkə arasında sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində aparılan işlər təqdir olundu.

Misir şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa-quruculuq işlərində iştirak etməkdə maraqlı olduqları vurğulandı.

# Azərbaycan–Misir sənədləri imzalanıb



İyunun 8-də Qahirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin iştirakı ilə Azərbaycan–Misir sənədlərinin imzalanması mərasimi olub.

Misirin Xarici İşlər naziri Sameh Həssən Şukri və Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Misir Ərəb Respublikasının Gənclər və İdman Nazirliyi arasında gənclər və idman sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu və "Azərbaycan Respublikasının Bakı Şəhər İcra Hakimiyyəti ilə Misir Ərəb Respublikasının Qahirə Qubernatorluğu arasında dostluq və əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Misirin xarici işlər naziri Sameh Həssən Şukri və Azərbaycanın energetika naziri Pərviz Şahbazov "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Misir Ərəb Respublikasının Elektrik və Bərpaolunan Enerji Nazirliyi arasında elektrik və bərpaolunan enerji sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Misirin xarici işlər naziri Sameh Həssən Şukri və Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) ilə Misir Ərəb Respublikasının Sərmayə və Azad Zonalar üzrə Baş Qurumu (GAFI) arasında 2024–2025-ci illər üzrə Birgə Fəaliyyət Planı"nı imzaladılar.

Misirin neft və mineral ehtiyatlar naziri Tarek Əhməd Əl Molla və Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Misir Ərəb Respublikasının Neft və Mineral Ehtiyatlar Nazirliyi arasında əməkdaşlıq haqqında Niyyət Protokolu"nu imzaladılar.

Misirin beynəlxalq əməkdaşlıq naziri xanım Raniyə Əl Maşat və Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Misir Ərəb Respublikasının Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında təcrübə mübadiləsi haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Misirin rabitə və informasiya texnologiyaları naziri Amr Talaat və Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Misir Ərəb Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

# Azərbaycan və Misir prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

**İyunun 8-də Qahirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Misir Prezidenti bəyanatla çıxış etdi.**

## Prezident Əbdülfəttah əs-Sisinin bəyanatı





– Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev!

Zati-alilərinizi və Sizi müşayiət edən nümayəndə heyətinizi qəbul etməkdən xoşbəxtəm. Bu səfəriniz ikitərəfli əlaqələrimizin möhkəmləndirilməsinə xidmət edir və yol açacaq. Eyni zamanda, Zati-alinizin Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına evsahibliyi etməyiniz münasibətilə də ürəkdən təbrik edirəm!

Bu gün Azərbaycan Respublikasının Prezidenti ilə keçirdiyim danışıqlar ikitərəfli əlaqələrin müxtəlif sahələrdə möhkəmləndirilməsinə xidmət edir. Eyni zamanda, qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər ətrafında müzakirələr apardıq. O cümlədən inşaat, nəqliyyat, əczaçılıq, neft və infrastruktur sahələrində mümkün əməkdaşlıq imkanlarını müzakirə etdik. Həmçinin iki ölkə arasında birgə komissiyanın fəaliyyətinin və növbəti iclasının təşkilinin önəmini qeyd etdik. Tezliklə komissiyanın növbəti iclasının keçirilməsini qərara aldıq ki, iqtisadi-ticari sahədə əlaqələrimiz daha da inkişaf etsin.



Xanımlar və cənablar, regional məsələlər Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri ilə müzakirələr əsnasında diqqət mərkəzində olub. Cənab Prezidentlə müzakirələrdə, eyni zamanda, Qəzzada fələstinli insanlar üçün humanitar yardımların həcminin artırılması istiqamətində Misirin səylərini müzakirə etdik və 1967-ci il iyunun 4-dən əvvəlki sərhədlər çərçivəsində müstəqil Fələstin Dövlətinin yaradılmasının zəruriliyini vurğuladıq.

Cənab Prezidentə Cənubi Qafqazda sülhün, təhlükəsizliyin təmin edilməsi istiqamətində səylərin vacibliyini və bu səyləri dəstəklədiyimizi bir daha bildirdim. Bu səylər region ölkələrinin və xalqlarının inkişafı üçün böyük töhfə olacaq. Həmçinin cənab Prezidentə bildirdim ki, növbəti mərhələdə ikitərəfli əlaqələrin bütün sahələrdə inkişafının şahidi olacağıq.

Buyurun, cənab Prezident, söz Sizindir.

***

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

## Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli cənab Prezident, Zati-aliləri!

İlk növbədə, dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Qədim tarixə malik ölkənizdə olmağımdan çox məmnunam.

Bu səfər Misir–Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verəcək. Keçən il biz Prezident əs-Sisini Azərbaycanda qəbul etmişdik, bu il mən səfər edirəm. Yəni, bu onu göstərir ki, siyasi dialoq müntəzəm xarakter daşıyır. Biz razılaşdıq ki, bu siyasi dialoq bundan sonra da davam etdirilsin. Mən Prezident əs-Sisini Bakıda keçiriləcək COP29 konfransına dəvət etdim və şadam ki, mənim dəvətim qəbul edilmişdir. Eyni zamanda, bildirdim ki, Misirin COP27 sədrliyi və evsahibliyi böyük uğurlarla nəticələndi. Bu münasibətlə həmkarımı təbrik etdim və eyni zamanda, Misirin bu sahədəki təcrübəsini öyrənmək üçün müraciət etdim və bizim nümayəndələrimiz daim təmasdadırlar.

Beynəlxalq məsələlərin müzakirəsi zamanı aydın oldu ki, fikir ayrılığımız yoxdur. Bütün beynəlxalq məsələlərdə bizim fikrimiz üst-üstə düşür. Əslində, biz beynəlxalq təşkilatlar çərçivəsində fəal çalışırıq, o cümlədən, BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində fəal əməkdaşlıq edirik, İslam həmrəyliyinin gücləndirilməsi istiqamətində birgə səylər göstəririk. Bildiyiniz kimi, Misirin dəstəyi ilə Azərbaycan dörd il ərzində Qoşulmama Hərəkatına sədrlik etmişdir. Bu sədrliyin nəticəsində Hərəkat daha böyük imkanlara malik olmuşdur.

Fələstin–İsrail münasibətlərinin tənzimlənməsi və müstəqil Fələstin Dövlətinin yaradılması bizim Qoşulmama Hərəkatına sədrliyimiz dövründə hər zaman diqqət mərkəzində idi, bir çox tədbirlər keçirilmişdir və Azərbaycanın mövqeyi birmənalıdır – müstəqil Fələstin Dövləti qurulmalıdır, Şərqi Qüds onun paytaxtı olmalıdır. Bu gün Qəzzada yaşanan faciə tezliklə dayandırılmalıdır, müharibə dayandırılmalıdır və bütün məsələlər danışıqlar yolu ilə həll olunmalıdır. Mən Prezident əs-Sisiyə bildirdim ki, biz Misirin bu istiqamətlərdəki səylərini dəstəkləyirik və Misir tərəfindən irəli sürülmüş təşəbbüslər diqqətə alınmalıdır.

Eyni zamanda, biz Cənubi Qafqazdakı prosesləri də müzakirə etdik. Mən bildirdim ki, hazırda Azərbaycan və Ermənistan öz dövlət sərhədlərini müəyyənləşdirmək işində müəyyən uğurlara nail olublar. Demək olar ki, 12,7 kilometr dövlət sərhədi razılaşdırıldı. Azərbaycanın Qazax rayonunun otuz ildən çox müddət ərzində işğal altında olmuş dörd kəndi danışıqlar yolu ilə Azərbaycana geri qaytarılmışdır və biz bunu müsbət hal kimi qiymətləndiririk. Eyni zamanda, hesab edirəm ki, danışıqlar prosesində də irəliləyiş üçün yaxşı imkanlar var. Hər halda Azərbaycan buna hazırdır.

Onu da bildirdim ki, Azərbaycan keçən ilin sentyabr ayında öz dövlət suverenliyini və ərazi bütövlüyünü tam bərpa etmişdir. Əlbəttə ki, bu, Ermənistan ilə normallaşdırma yolumuzda önəmli amil olacaqdır. Həmkarımın diqqətinə o da çatdırıldı ki, iki ilə yaxındır Azərbaycan–Ermənistan şərti sərhədində sakitlikdir, heç bir atəşkəs pozuntusu müşahidə edilmir.

İkitərəfli münasibətlərə gəldikdə, ticarət həcminin artırılması təbii ki, müsbət haldır. Əgər statistik rəqəmlərə baxsaq görərik ki, ticarət dövriyyəsi bir neçə dəfə artıb. Ancaq mütləq rəqəmlər hələ bizi qane etmir və bu gün imzalanmış sənədlər, əldə edilmiş razılaşmalar əminəm ki, bu istiqamətdə də bizə kömək edəcək. Əminəm ki, ilk növbədə, energetika, bərpaolunan enerji növlərinin istehsalı, neft sənayesi, əczaçılıq, alüminium sənayesi sahələrində və digər sahələrdə yaxşı nəticələr əldə etmək mümkün olacaq.

Biz bu gün, eyni zamanda, yeni nəqliyyat dəhlizləri ilə əlaqədar fikir mübadiləsi apardıq. Həm Şərq-Qərb, həm Şimal–Cənub nəqliyyat dəhlizləri Azərbaycan ərazisindən keçir. Azərbaycan ərazisində bütün infrastruktur yaradılıb və beləliklə, nəqliyyat-logistika sahəsində əməkdaşlıq üçün çox gözəl imkanlar açılmaqdadır.

Birgə hökumətlərarası komissiyanın növbəti iclası ilə bağlı nümayəndə heyətlərinin üzvləri bizə məlumat vermişlər. Komissiyanın sonuncu iclası iki il bundan əvvəl Azərbaycanda keçirilmişdir. Yəqin ki, komissiyanın növbəti iclası bu il keçiriləcək və prezidentlər tərəfindən verilmiş bütün göstərişlər, əminəm, ciddi müzakirə ediləcək və beləliklə, biz əməkdaşlıq istiqamətində növbəti önəmli addım atacağıq.

Hörmətli cənab Prezident, Zati-aliləri, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, noyabr ayında Bakıda COP29 çərçivəsində biz Sizinlə yenidən görüşəcəyik.

# Azərbaycan Prezidentinin şərəfinə nahar

**İyunun 8-də Qahirədə Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilib.**

# İlham Əliyevin Əhməd Məhəmməd Əhməd Əl Tayyib ilə görüşü





**İyunun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qahirədə Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib ilə görüşü olub.**

Görüşdə Prezident İlham Əliyev Əl-Əzhərdə ikinci dəfə olduğunu xatırladı, Misirə rəsmi səfəri çərçivəsində yenidən burada olmağından və Əl-Əzhəri Şərifin



şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib ilə görüşündən məmnunluğunu bildirdi.

Dövlətimizin başçısı Azərbaycan–Misir münasibətlərinin çox yaxşı səviyyədə olduğunu, ölkələrimiz arasında tarixi əlaqələrin mövcudluğunu qeyd etdi. Prezident İlham Əliyev bütövlükdə ərəb dövlətləri ilə əlaqələrin inkişaf etdirilməsinin Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri olduğunu vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanda dinlər, mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun inkişafı ilə bağlı mühüm tədbirlərin keçirildiyini, ölkəmizin dinlərarası dialoqa öz töhfəsini verdiyini bildirdi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyibi ölkəmizə səfərə dəvət etdi.

Azərbaycan Prezidenti ölkəmizin bu il COP29-a evsahibliyi edəcəyini diqqətə çatdırdı. Prezident İlham Əliyev Azərbaycanın Əl-Əzhər ilə birlikdə dini liderlərin növbəti görüşünün COP29 çərçivəsində keçirilməsi təşəbbüsü ilə çıxış etdiyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan torpaqlarının otuz ilə yaxın müddətdə işğal altında qaldığını xatırladaraq, işğal dövründə Azərbaycanın İslam dininə aid maddi-mədəniyyət abidələrinin, o cümlədən 67 məsciddən 65-nin tamamilə dağıdıldığını diqqətə çatdırdı. Prezident İlham Əliyev bu münaqişənin həllinin siyasi yolla mümkün olmadığını təəssüf hissi ilə vurğulayaraq, Azərbaycanın özünümüdafiə hüququndan istifadə edib işğala son qoyduğunu, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiyini dedi. Dövlətimizin başçısı azad olunmuş ərazilərdə məscidlərin, İslam irsinin bərpası istiqamətində tədbirlərin həyata keçirilməsinə başlandığını, artıq beş məscidin bərpa olunduğunu bildirdi. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan İslam həmrəyliyinə töhfə verir və bu istiqamətdə qardaş müsəlman ölkələri ilə birlikdə səylərini davam etdirir.

Azərbaycan Prezidenti Şuşa şəhərinin İslam mədəniyyətinin paytaxtı elan olunmasının və bu çərçivədə Şuşada keçirilən tədbirlərin önəmini vurğuladı. Dövlətimizin başçısı, həmçinin vaxtilə Şuşada mövcud olmuş 17 məsciddən 16-nın işğal dövründə tamamilə dağıdıldığını dedi.

Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib bu ziyarətə görə dövlətimizin başçısına təşəkkürünü bildirdi və Misirlə Azərbaycan arasında əlaqələrin çox yaxşı səviyyədə olduğunu qeyd etdi. O, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam təmin etməsindən məmnunluğunu bildirdi. COP29-a dəvətə görə təşəkkürünü bildirən Əhməd Məhəmməd Əhməd Əl Tayyib bu tədbirdə məmnunluqla iştirak edəcəyini dedi.

Əl-Əzhəri Şərifin şeyxi Bakıda dünya dini liderlərinin II Sammitinin keçirildiyini xatırladaraq, Azərbaycanın İslam həmrəyliyinə verdiyi töhfəyə görə Prezident İlham Əliyevə şəxsən təşəkkürünü bildirdi və COP29 çərçivəsində də dini liderlərin toplantısının keçirilməsi üçün birgə işlərin aparıldığını qeyd etdi.

O, Əl-Əzhəri Şərifin Azərbaycanda ərəb dilinin tədrisinə öz dəstəyini verməyə hazır olduğunu vurğuladı, Əl-Əzhərdə azərbaycanlı tələbələrin də təhsil aldıqlarını diqqətə çatdırdı.

Ölkəmizdə ərəb dilinin tədrisinə dəstək niyyətinə görə təşəkkürünü ifadə edən Prezident İlham Əliyev tarixən Azərbaycanda ərəb dilinin və İslam mədəniyyətinin tədqiqinə və tədrisinə böyük diqqət yetirildiyini vurğuladı, Bakı Dövlət Universitetində şərqşünaslıq fakültəsinin, Azərbaycan Milli Elmlər Akademiyasında Şərqşünaslıq İnstitutunun fəaliyyət göstərdiyini qeyd etdi.

***

Sonra xatirə hədiyyələri təqdim olundu.

# Səfər başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasına rəsmi səfəri iyunun 8-də başa çatıb.**

Qahirə Beynəlxalq Hava Limanında dövlətimizin başçısını rəsmi şəxslər yola saldılar.

***AZƏRTAC***

# Azərbaycan sülh və inkişafa töhfəsini artırır

**Azərbaycan Respublikası 148 ölkənin səs çoxluğu ilə BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) 2025–2027-ci illər üzrə üzvlüyünə seçilib.**



Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsindən AZƏRTAC-a bildirilib ki, ECOSOC üzvlüyünə seçkilər BMT Təhlükəsizlik Şurasından sonra ən rəqabətli seçkilər hesab olunur. Azərbaycan Respublikası indiyədək iki dəfə – 2003–2005-ci və 2017-2019-cu illərdə ECOSOC-un üzvü olub. Əlli dörd üzvü olan ECOSOC BMT-nin əsas orqanlarından biri olub, BMT-nin 14 ixtisaslaşmış təşkilatının, onların funksional komissiyalarının və 5 regional komissiyanın iqtisadi, sosial sahələrdə işini əlaqələndirir.

Qeyd olunub ki, BMT-nin İqtisadi və Sosial Şurası kimi mötəbər quruma Azərbaycanın belə yüksək səslə üzv seçilməsi ölkəmizin beynəlxalq nüfuzunun və sosial-iqtisadi sahədə son onillikdə əldə etdiyi nailiyyətlərə beynəlxalq ictimaiyyətin verdiyi yüksək qiymətin göstəricisidir.

Vurğulanıb ki, Azərbaycan Şuraya üzvlüyü dövründə hər zaman olduğu kimi, BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə uyğun olaraq beynəlxalq sülh və inkişafa öz töhfəsini verəcək.

# Heydər Əliyev Mərkəzində çinli rəssamın "Təbəssüm bağı"



**Dünən Heydər Əliyev Mərkəzində tanınmış çinli rəssam Yüe Mincünün "Təbəssüm bağı" adlı fərdi sərgisi açılıb. Ekspozisiyada sənətkarın "Avtoportret" və "Güllər" silsilələrinə aid əsərləri – rəsm və heykəltaraşlıq nümunələri təqdim olunur.**

Müasir Çin incəsənətinin tanınmış nümayəndəsi olan Yüe Mincünün "Avtoportret" silsiləsindən olan əsərləri dünya incəsənətində əks-səda yaradıb. Rəssamın digər məşhur silsiləsi "Güllər"dir. Həmin əsərlərdə COVID-19 pandemiyasının səbəb olduğu məhdudiyyətlərin yaratdığı fəsadlar rəssamın təxəyyülünə uyğun əks olunur..

Açılış mərasimində çıxış edən Heydər Əliyev Mərkəzinin direktorunun birinci müavini Fərqan Novruzov Azərbaycan və Çin münasibətlərinin hər zaman inkişaf etdiyini və indiki zamanda mədəniyyət sahəsində olan əlaqələrin ən səmərəli dövrünü yaşadığını vurğulayıb. Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov Çin rəssamlarının əsərlərinin son 30 ildə dünya sənətinə təsir etdiyini deyib.



Honkonq şəhərindəki Tanq Müasir İncəsənət Məkanının direktoru xanım Van Yi Yip bildirib ki, fərdi sərgidə yer alan əsərlər Yüe Mincünün bütövlükdə incəsənətə yanaşmasını göstərir.

Rəssam Yüe Mincün öz növbəsində göstərdiyi dəstəyə görə Heydər Əliyev Mərkəzinin rəhbərliyinə təşəkkürünü bildirib. O, sərgi üçün mövzu seçərkən bir neçə variantı nəzərdən keçirdiyini və yekun olaraq "Təbəssüm bağı" adlandırmağa qərar verdiyini söyləyib.

Sərgi oktyabrın 27-dək davam edəcək.

***XQ***

# Qayıdışın məşğulluq layihələri



## Yarmarkada 24 işəgötürən 335 vakansiya təqdim edib

**Böyük Qayıdış proqramına uyğun olaraq Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunmuş ərazilərimizə köçürülən sakinlər üçün fəal məşğulluq proqramlarını davam etdirir. Agentlik Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi ilə növbəti əmək yarmarkası təşkil edib.**

Aksiyada dövlət və özəl sektordan 24 işəgötürən iştirak edib və müxtəlif fəaliyyət sahələri üzrə 335 vakansiya təqdim olunub. Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev və Laçında Prezidentin xüsusi nümayəndəsi Məsim Məmmədov yarmarkada iştirak edən işəgötürənlərlə tanış olub, təqdim edilən boş iş yerlərilə maraqlanıblar.

İştirakçılara məşğulluq proqramları barədə məlumatlar verilib, namizədlərin qeydiyyatı aparılıb.

***

**Dövlət Məşğulluq Agentliyi Laçın şəhərinə, Zabux kəndinə və Zəngilan rayonunun Ağalı kəndinə köçürülən sakinlərdən daha bir qrup şəxsə özünüməşğulluq proqramı çərçivəsində avadanlıqlar verib.**

Laçın rayonunda avadanlıqların təqdim edilməsi tədbirində əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev və Prezidentin xüsusi nümayəndəsi Məsim Məmmədov da iştirak ediblər. Onlar proqram iştirakçıları ilə görüşüb, həmin sakinlərin yeni qurduqları təsərrüfatlarla bağlı planları ilə maraqlanıblar.

Verilmiş avadanlıqlar hesabına proqram iştirakçıları un məmulatları istehsalı, avtomobil şinlərinin bərpası və təmiri,



qadın gözəllik salonu, dərzi sexi, qapı və pəncərə istehsalı, fotoatelye xidmətləri üzrə kiçik biznes sahələrini yaradıblar. Doğma yurdlarına köçürülən sakinlərdən özünüməşğulluq proqramı çərçivəsində təsərrüfat yaradanların sayı 103-ə çatıb.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Avroparlamentdə “sağçılıq” mərəzi

(əvvəli 1-ci səhifədə)



Avroparlamentə seçkilər Avropa İttifaqına (Aİ) üzv ölkələrdə iyunun 6-dan 9-dək keçirilir. Amma Aİ-nin əksər ölkələrində səsvermə prosesi bu günə təyin edilib. Bu qurumun ölkəmizə qərəzli münasibəti neçə illərdir davam edir. Bunun bariz nümunəsini seçkilər ərəfəsində Azərbaycana qarşı qərəzli qətnamələrin qəbul edilməsində gördük. AP-dakı erməniпərəst düşərgənin erməni lobbisindən maliyyə yardımı ilə yanaşı, həm də seçici dəstəyi almağa çalışdıqları heç kəsdə şübhə doğurmur. Rəsmi Bakının Aİ, o cümlədən AP qarşısında heç bir öhdəliyi yoxdur və onlar Azərbaycanı milli mənafeyinə və siyasi iradəsinə zidd heç nəyə məcbur edə bilməzlər. Tribunadan səsləndirdikləri Azərbaycana qarşı sanksiyaların tətbiqi ilə bağlı çağırışları da özləri deyib, özləri eşidirlər.

Bəs, AP-yə budəfəki seçkilərdə hansı siyasi düşüncənin, təmayülün sahibləri mandat qazanacaqlar? Bu seçkilərin Avroparlamentdə qüvvələr nisbətini hansı tərəfə dəyişə biləcəyi ətrafında xeyli vaxtdır müzakirələr gedir. Əksər ekspertlərin gəldiyi qənaət bundan ibarət idi ki, bu qurumda qüvvələr nisbətinin dəyişməsi təkcə Avropanın deyil, eləcə də bütün dünyanın siyasi səhnəsində fəsadlar yarada bilər. Müstəqil sosioloji tədqiqat mərkəzlərinin apardıqları sorğuların nəticələri heç də ürəkaçan proqnozlardan xəbər vermir. Respondentlərin böyük əksəriyyətinin rəyinə görə, bu seçkilər sağ təmayüllü, radikal qüvvələrin üstünlüyü ilə keçəcək.

Yeri gəlmişkən, oxucuların diqqətinə çatdıraq ki, Aİ-yə üzv dövlətlərdə vahid səsvermə proseduru deyilən bir şey yoxdur. Seçki həm açıq, həm də qapalı siyahılar üzrə həyata keçirilə bilər. Bu zaman, sadəcə, üzv dövlətlər müstəqil olaraq AP-yə keçmək üçün minimum həddi özləri müəyyən edirlər. Bir qayda olaraq, hər bir ölkədə seçicilər yerli partiyaların namizədlərinə səs verirlər və səs çoxluğu qazanmış namizədlər, siyasi baxışlarından asılı olaraq, AP-dəki fraksiyalar arasında bölüşdürülür. Misal üçün, dünən Çex Respublikasında keçirilən seçkilərdə elektorat, koalisiyalar da daxil olmaqla, 30 partiya arasında seçim edib. Uğur qazanmaq şansına parlamentin Deputatlar Palatasında təmsil olunan fraksiyalar malikdir. Seçicilər yalnız Çex Respublikasında fəaliyyət göstərən partiyanın namizədinə səs veriblər. Seçilmiş namizədlər AP-da digər ölkələrdən olan həmkarları ilə birlikdə eyni fraksiyada işləyəcəklər.

**ARAYIŞ:** Hazırda AP-da 7 fraksiya fəaliyyət göstərir. Ən böyük fraksiya 178 yerə malik Avropa Xalq Partiyasıdır. Sosialistlərin və Demokratların Mütərəqqi Alyansı 141 yerlə ikinci, “Yenilənmiş Avropa” 101 yerlə üçüncü, “Yaşıllar” (Avropa Azadlıq Alyansı) 71 üzvlə dördüncü, “Avropa Mühafizəkarları və İslahatçıları” 67 yerlə beşinci, sağ və ifrat sağçı siyasətçilər qrupu sayılan “İdentiklik və Demokratiya” 58 yerlə altıncı və sol təmayüllü siyasətçiləri birləşdirən “Avropa Solçuları” 38 mandatla yeddinci yerdə qərar tutublar. Yerdə qalan 51 yer isə müstəqil deputatlara məxsusdur.

***

Bəs, budəfəki seçkilər əvvəlkilərdən nə ilə fərqlənir? Aparılan rəy sorğularına əsasən, bu dəfə millətçi sağçılar Aİ-nin doqquz üzv-dövlətində, o cümlədən, qurucu ölkələr sayılan Fransa, İtaliya, Belçika, Hollandiya və Almaniya daxil olmaqla, səsvermə siyahılarına başçılıq edəcəklər.

Yuxarıda qeyd etdik ki, AP Aİ təsisatları arasında daha çox korrupsiyalaşmış qurumdur. Müstəqil araşdırma mərkəzlərinin keçənilki hesabatlarına görə, AP deputatlarının üçdən ikisi qanunsuz olaraq müxtəlif şirkətlərin idarə heyətlərində təmsil olunur, onların lobbiçiliyini həyata keçirir və bunun müqabilində hər il 3–8,5 milyon avro arasında “zəhmətsiz gəlir” əldə edirlər. Bu ilin təkcə may ayında AP-nin Almaniya və Niderlanddan olan parlamentariləri ilə bağlı 3 korrupsiya faktı qeydə alınıb.

Şübhəsiz, Avropa Xalq Partiyası budəfəki seçkilərin aparıcı qüvvələrindən biri hesab edilir və onun ifrat sağçı elementləri arasında daxili münaqişələr də mövcuddur. Bütün hallarda yeni AP-də ökəmizə qarşı mənfi ritorikanın kəskinləşəcəyi birmənalıdır.

***

Hazırda müşahidə edilən ümumi mənzərə, keçirilən rəy sorğularının nəticələri, o cümlədən, Aİ-də islamofob, ksenofob, türkofob təmayüllərin güclənməsi onu deməyə əsas verir ki, AP-də sağçı qüvvələrin tutduğu kresloların sayı xeyli artacaq. Aparılan daha bir araşdırmanın nəticələrinə görə, Aİ-yə üzv doqquz ölkədə – Avstriya, Belçika, Çexiya, Fransa, Macarıstan, İtaliya, Hollandiya, Polşa və Slovakiyada sağ-radikal, avroskeptik partiyalar birinci, Bolqarıstan, Estoniya, Finlandiya, Almaniya, Latviya, Portuqaliya, Rumıniya, İspaniya və İsveçdə isə ikinci və ya üçüncü sırada yer alacaqlar. Yəni, bu qüvvələrin AP-də səs çoxluğunu qazanacaqlarını indidən söyləmək mümkündür.

Beləliklə, proqnozlar onu deməyə əsas verir ki, Avropada populist, sağ-millətçi təmayüllü partiyalar güclənməkdədir və onlar bu gün yekunlaşacaq seçkilərdə həmişəkindən daha çox səs toplaya bilərlər. Bu isə yenilənəcək AP ilə Azərbaycan arasında “sıfırlanmış” münasibətlərin bundan sonra daha da gərginləşməsi perspektivindən xəbər verir.

***İ.HƏSƏNQALA***
***XQ***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 291** **Bakı şəhəri, 30 may 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq edilmiş “Doktoranturalar (adyunkturalar) yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların Siyahısı”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1117 (Cild I); 2024, № 2, maddə 229; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 15 aprel tarixli 208 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Doktoranturalar (adyunkturalar) yaradılan Azərbaycan Respublika-sının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların Siyahısı” aşağıdakı redaksiyada verilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 295** **Bakı şəhəri, 6 iyun 2024-cü il**

**“Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

“Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 13 yanvar tarixli 4264 nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 299 (Cild I); 2024, № 1, maddə 78, № 3, maddə 354) aşağıdakı məzmunda 4.35-1-ci bənd əlavə edilsin:

“4.35-1. COP29 Azərbaycan Əməliyyat Şirkətinin təsdiqedici sənədinə əsasən COP29 beynəlxalq tədbiri çərçivəsində ölkəyə gətirilən mallar.”.

**2.** Bu Qərar 2024-cü il martın 1-dən tətbiq olunur və 2024-cü il dekabrın 1-dək qüvvədədir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 296** **Bakı şəhəri, 7 iyun 2024-cü il**

**“Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkının ərazisinin xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunan fəaliyyət zonaları üzrə bölgüsü”nün təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 3 avqust tarixli 106 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkı haqqında Əsasnamə”nin 3.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdimatını nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkının ərazisinin xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunan fəaliyyət zonaları üzrə bölgüsü” əlavə olunmuş xəritədə və aşağıda göstərilən hüdudlarda təsdiq edilsin:

**1.** Xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilən zona (qoruq rejimi) – 15652,53 hektar.

**2.** Təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilən zona – 26997,87 hektar.

**3.** Turizm və rekreasiya zonası – 124,82 hektar.

**4.** Turistlərə və başqalarına xidmət göstərilən zona – 4,40 hektar.

**5.** Milli Parkın fəaliyyətini təmin etmək üçün təsərrüfat-istehsalat zonası – 0,23 hektar.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Mərakeşdə “Şuşa günləri”

**Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin (ŞŞDQİ) təşkilatçılığı, Azərbaycan Respublikasının Mərakeş Krallığındakı səfirliyi, ICESCO və Dövlət Turizm Agentliyinin dəstəyi ilə iyunun 7-də ICESCO-nun Rabat şəhərindəki baş qərargahında “Şuşa günləri” tədbiri maraqlı və yaddaqalan gecə ilə yekunlaşıb.**



Tədbirdə Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov, ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik, Azərbaycanın Mərakeşdəki səfiri Nazim Səmədov, Dövlət Turizm Agentliyinin Qoruqların İdarəetmə Mərkəzinin sədri Murad Ağabəyli, ŞŞDQİ-nin icraçı direktoru Tural Novruzov, xüsusi nümayəndəliyin, qoruğun əməkdaşları, həmçinin müxtəlif ölkələrin Mərakeşdə akkreditə olunmuş səfirləri, ICESCO rəsmiləri, dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

Əvvəlcə, Azərbaycan Dövlət İnformasiya Agentliyinin – AZƏRTAC-ın təqdim etdiyi fotolardan ibarət sərgiyə baxış olub. Burada Şuşanın tarixi keçmişini, müharibədən əvvəlki və sonrakı vəziyyətini bərpa-quruculuq, yenidənqurma işlərini, əsrarəngiz təbiətini özündə əks etdirən müxtəlif fotolar sərgilənib, hər biri haqqında məlumatlar verilib.

Sonra qonaqlara XVIII-XIX əsrlərə aid Qarabağ milli geyimləri nümayiş olunub, onların tarixi haqqında məlumat təqdim edilib.

Tədbirin kulinariya bölümündə qeyd olunub ki, Azərbaycanın milli mətbəxində unikal iqlim şərtləri və formalaşma tarixi ilə təkrarsız məhsulların coğrafiyası olan Qarabağ regionu, xüsusilə mədəniyyət beşiyimiz Şuşanın mətbəxi dünya qastronomiyasında özünəməxsus yer tutur. Şuşa mətbəxinin Mərakeş mətbəxi ilə ortaq tərəflərini tərənnüm edən menyu pip dolması, kabab büryan, firni, boyanalı aş, Qarabağ kətəsi, reyhan şərbətindən ibarət olmaqla hazırlanıb. Eləcə də təndir kimi milli bişirmə alətlərində təqdim olunan menyu Şuşanın qeyri-maddi mədəni irsindən ibarət mədəni proqramın bir hissəsi kimi nümayiş etdirilib. Şuşa mətbəx nümunələrini dadmaq şansı əldə edən qonaqlara, həmçinin ölkəmizin turistik qastronomiya marşrutları haqqında da məlumat verilib.

Qarabağımıza, Şuşamıza həsr edilən səyahət konsert proqramı ilə davam edib. Konsertdən əvvəl ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik, Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov, Azərbaycanın Mərakeşdəki səfiri Nazim Səmədov çıxış edib, “Şuşa günləri”nin önəmindən, 30 il işğal altında qalmış tarixi şəhərin bu gün yenidən dirçəlməsindən, Şuşada keçirilən beynəlxalq səviyyəli tədbirlərin hər birinin əhəmiyyətindən söz açıblar.




Daha sonra söz Azərbaycanın tanınmış incəsənət xadimlərinə verilib. Şuşamıza həsr olunan videoçarxın nümayişindən sonra təqdim olunan konsert proqramında Qarabağı, Şuşanı vəsf edən mahnılar səsləndirilib, Azərbaycan Dövlət Rəqs Ansamblının üzvlərinin ifasında milli rəqslərimiz ifa edilib.

***XQ***

# Sosial müdafiə büdcəsi böyüyür

**Azərbaycan iqtisadiyyatının dinamik inkişafını özündə ehtiva edən və gəlirlərin artması məqsədilə bu ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan digər iki qanunda dəyişiklik zərurəti ortaya çıxdı. Prezident İlham Əliyev müvafiq qanun layihələrini qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim edib. Büdcə zərfinə daxil olan sənədlərdən biri də “Dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə” qanun layihəsidir.**

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev qəzetimizə açıqlamasında qanuna təklif olunan əlavə və dəyişikliyin, əsasən, əhalinin sosial müdafiəsinin daha da gücləndiriləcəyinə yönəldiləcəyini bildirdi:**



– “Dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsi haqqında” Qanuna əlavə və dəyişikliklərin edilməsi zərurətini yaradıb. “Dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsi haqqında” Qanuna dəyişiklikərin edilməsinə ehtiyacın yaranması, əsasən, dövlət sosial müdafiə fondunun gəlir mənbələri üzrə məcburi dövlət sosial sığorta haqlarında daxilolmaların faktiki icrasının yüksək artımla yerinə yetirilməsi ilə əlaqədardır. Qeyri-büdcə sektorunda əməkhaqqı artımları, bu sahə üzrə məcburi dövlət sosial sığorta haqlarının artımını şərtləndirir.

Bunu nəzərə alaraq, Dövlət sosial müdafiə fondunun 2024-cü il üçün büdcəsində qeyri-büdcə sektoru üzrə məcburi dövlət sosial sığorta haqları üzrə daxilolma məbləği dürüstləşdirilərək mövcud 3.387,1 milyon manatdan 190 milyon manat artırılaraq 3.577,1 milyon manata çatdırılması məqsədəmüvafiq hesab olunur. Eyni zamanda, əmək pensiyalarının ödənilməsi xərclərinin məbləği 25 milyon manat artılaraq 6500 milyon manatdan 6525 milyon manata çatdırılması təklif olunur.

**– Bu artımlar əhalinin hansı kateqoriyasını əhatə edəcək?**

– Fondun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitin (transfert) məbləği 160 milyon manat azaldılaraq 1232 milyon manat təşkil edəcəkdir. Beləliklə, fondun xərcləri 30 milyon manat və ya 0,4 faiz artırılaraq 6949,9 milyon manata çatdırılmışdır. DSMF büdcəsinin 2024 cü il üçün dürüstləşmiş gəlirləri və xərcləri 30 milyon manat artaraq 6.949.860 min manat təşkil edəcəkdir. Bu da əsasən, əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsinə, pensiyaların artımına yönəldiləcək.

**– Musa müəllim, “Əmək pensiyaları haqqında” Qanuna əsas dəyişiklik nədən ibarətdir?**

– “Əmək pensiyaları haqqında” Qanun ilə hərbi xidmətə yenidən qəbul edildiyi tarixdən ən azı 72 ay xidmət etmiş şəxslərin, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə hərbi xidmətə bərpa edilmiş, hərbi xidmət vəzifələrini yerinə yetirərkən həlak olmuş və ali zabit heyətinə aid şəxslərin əmək pensiyasının yenidən hərbi xidmətə qəbul edilməsi ilə əmək pensiyasının sonuncu təminat xərcliyinə görə yenidən hesablanması mümkün olacaq.

Bu redaksiyanın qanunda mətn üzrə aidiyyəti maddələrdə göstərilməməsi bu şəxslərin əmək pensiyasının yenidən hesablanmasında çətinlik yaradırdı. Odur ki, bu şəxslərin əmək pensiyasının yenidən hesablanmasnın dəqiqləşdirilməsi üçün dəyişiklik təklif olunur. Dəyişikliyə əsasən hərbi qulluqçulara əmək pensiyası hərbi xidmət dövründə deyil, hərbi xidmətdən buraxıldığı gündən təyin olunacaq.

***Söhbəti yazdı:***
***Əliqismət BƏDƏLOV***
***XQ***

# Zəka və zəhmətin vəhdətində Əziz Səncər örnəyi

**II MƏQALƏ**

**Qorxusu ağlını üstələyən insanın zəkası susar.**

**İbn Sina**

## Alim çalışqanlığı

Əziz Səncərin zəhməti zəkadan üstün tutmasının özəl mənası vardır. Alim bu fikri, bütövlükdə, hər bir millətin elmi fəaliyyət üçün zəkasının olmasına aid edir. Çinlilərlə apardığı müqayisədən görünür ki, Ə.Səncər türklərin də elmi fəaliyyət üçün yüksək zəkaya sahib olmasına rəğmən çinlilər kimi elmi nəticələr ala bilmədiklərini demək istəyir. Və bunun səbəbləri üzərində düşünməyə dəvət edir.

Bu o demək deyildir ki, türk insanı başqa qövmlərdən zəkaca geridə qalır. Ə.Səncər bunun əksini söyləyir və sualı belə qoyur ki, “nə üçün türk xalqlarının nümayəndələri dünyanın yüksək reytinqlərində az yer alırlar?” Cavabında isə alimin çalışqanlığı, zəhməti məsələsini ön sıraya çıxarır.

Əlbəttə, elm çalışqanlığı sevir. Alim daim öz üzərində işləməli elmi araşdırmaları dayandırmamalıdır. Bununla yanaşı, məsələnin başqa tərəflərini də unutmaq olmaz. Çünki elm adamı tək, yalnız və toplumdan kənar həyat sürmür. O, dövlətin vətəndaşı və cəmiyyətin üzvüdür. Alim cəmiyyətin həyat tərzindən xilas ola bilməz. Bu, mümkün deyildir. Deməli, alimin özündən asılı olmayan faktorlar vardır ki, onların təsirlərində olur. Elmi fəaliyyət kontekstində bu məqamı müqayisələr əsasında izah edə bilərik.

## Niyə Amerika və ya Çin?

İndi elmə aiddiyyəti olan hər kəs bilir ki, Nobel mükafatçıları əsasən, ABŞ və Avropa dövlətlərində çalışanlar olurlar. Amerika, hətta, dünyanın müxtəlif regionlarından perspektivli elm adamlarını ölkəyə dəvət edir, layihələrə qoşur və onlardan maksimum yararlanır. Nümunə kimi, Sant-Fe və ya süni intellekti araşdıran elmi institutu göstərə bilərik. ABŞ-də idarəetməni idarəedən robotlar hazılayan xüsusi araşdırma institutu fəaliyyət göstərir. Onun çox az tələbəsi və ya doktorantı olur. Tədris edənlərin daimi siyahısı yoxdur. Ştat çox azdır. Lakin əvəzində konkret araşdırma layihəsi üzrə dünyanın ən perspektivli alimlərini dəvət edir, müvəqqəti müqavilə əsasında onlara yüksək əməkhaqqı verir, lazımi şəraiti yaradır və “nobelçilər” yetişdirir.

Statistikaya baxsaq, görərik ki, yüksək elmi reytinqli çinli, yapon, koreya, türk, Latın amerikalılar və digərləri əsasən Qərbin elmi mühitində ya yetişən, ya da orada çalışanlardır. Əziz Səncər harada çalışaraq Nobel mükafatını almışdır? Amerikada! Bəs niyə Türkiyədə deyil, Amerikada buna nail olmuşdur? Və yaxud hansı səbəblərdən Ə.Səncər və yüzlərlə istedadlı türk insanı Avropa və ABŞ-ın elmi mərkəzlərinə can atır? Elə Türkiyənin özündə də uşaqları ingilis, amerikan, fransız, alman liseylərində oxudanlara daha perspektivli baxırlar. Niyə?

Elə çinlilərin özləri də Qərbdə yüksək nəticələr əldə edirlər. Avropa və ABŞ dəfələrlə rəsmi Pekini ideya oğurlamaqda təqsirləndirmişdir. Deməli, elmi ideyaların yaranması məkanı hələ də əsasən Qərbdir!

Əgər dünyanın yüksək reytinqli nəşrlərində müəlliflərə baxsaq, onların sırasında çinli, yapon, hindli və başqalarının adlarına tez-tez rast gələ bilərik. Ancaq onların böyük əksəriyyəti Qərb ölkələrinin elmi dairlərində çalışır. Burada kimin hansı millətə məxsus olmasının rolu nədən ibarətdir? Deyək ki, indi hindlilər və ya pakistanlılar Avropada və Amerikada böyük elmi uğurlar əldə edirlər. Onlar öz vətənlərində deyil, məhz Qərbdə! Özü də əsasən Qərbdə uğur əldə edən alimlər reklam olunur və onları tanıdırlar.

Misallar çoxdur. Ə.Lütfüzadəni Amerikada uzun müddət qəbul etmədilər. Cənubi Koreyadan olan filosof Y.Hueyə London elmi mühitində çalışandan sonra diqqət yetirildi. L.Flek (əslən Polşa yəhudisi olmasına baxmayaraq) keçən əsrin ortalarında Qərbin elmi dairələrində qəbul edilmədi. Fraktal həndəsənin banisi B.Mandelbrot ABŞ-də düz 10 il yeni ideyalı məqaləsini çap elətdirə bilməmişdir! Nümunələr çoxdur.

Belə çıxır ki, alimlikdə və ümumiyyətlə, yaradıcılıqda zəka və zəhmətdən alimin elmi taleyinə ciddi təsir edən başqa faktolar da vardır. Onların sırasında alimin yaşadığı ölkədə elmi mühitin xüsusiyyətləri, elm siyasəti, elmi fəaliyyətin təşkili üsulları, cəmiyyətin həyatında elmin rolunun müəyyən edilməsi, bir sıra psixoloji faktorlar, şəxsi münasibətlər və digər parametrlər vardır.

Bunlar onu göstərir ki, əgər söhbət türk dövlətlərində elmdən gedirsə, yalnız alimin zəkavi, emosional, çalışqanlıq, məsuliyyət kimi keyfiyyətləri ilə məhdudlaşmaq reallığı tam ifadə etmir. Burada dövlət-cəmiyyət-alim-elm-sosial-mədəni şərait kimi mürəkkəb mənzərə vardır. Onların qarşılıqlı təsiri yekunda alimin fəaliyyətinin effektini və ideya yeniliyini şərtləndirir.

Amerikada elmi fəaliyyət elə təşkil olunmuşdur ki, yaradıcılıq, kəşflər, yeni ideyalar meydana gəlir. Laboratoriyalar, iş mühiti, texniki təchizat, müəyyən edilən məqsədlər və s. alimin səmərəli fəaliyyəti üçün imkanları genişləndirir. Məsələn, ABŞ-də türk və ya çinli oradakı şəraitdə istedadını üzə çıxarır. Bu meydan onlara verilmişdir.

Bunlardan başqa, elmi ənənəni də unutmaq olmaz. Dünyanın elə bir ölkəsi yoxdur ki, qəfil nəyəsə nail olsun. Bu proses həmişə ziddiyyətli, çəkişməli, müzakirəli, səhvlər və onların öyrənilməsi kimi müxtəlif məqamları özündə ehtiva edir. Deməli, fərdin elmi nailiyyəti də, əslində, kollektiv fəaliyyətin nəticəsidir. Alim çox çalışqan olar, amma bunu real elmi nəticəyə çevirməyə də bilər.

Məsələn, çilili U.Maturana və F.Varela Amerikada təhsil almışdılar. ABŞ universitetləri onları əldən vermək istəmirdilər. Lakin hər ikisi öz vətəninə dönmüş və Çili universitetlərindən birinin lap alt qatlarında laboratoriyada çalışmışdır. Şüuru təbiət elmləri prizmasında öyrənərək, onlar “avtopoyezis” (özünüyaradan sistem nəzəriyyəsi) adlanan elmi istiqamətin əsasını qoymuşlar. Lakin sonra-



dan yenidən Avropaya (Fransaya) gəlmişlər. Bu nümunə göstərir ki, avtopoyezisin müəllifləri milliyyətçə çilili olsalar da, təhsildə və alim kimi fəaliyyətdə yenə də Qərbə bağlanmışlar.

## İbrət dərsləri

Bunlar onu göstərir ki, türk xalqları zəkidir, istedadlı insanları kifayət qədərdir. Ancaq elmi fəaliyyət başqa kriteriyaları da tələb edir. Onların sayı çoxdur. Türk dövlətləri elm siyasətində hansısa məqamlara yenidən baxmalıdırlar. Türkiyədə indi çox məşhur olan Səlcuk Bayrakdar Amerika təhsillidir. Elə etmək olmazmı ki, türk insanı öz vətənində yüksək təhsil alsın, buradakı laboratoriyada çalışa bilsin və yüksək nəticələr qazansın? Həmin nəticələr ona Nobel mükafatı almağa yetsin?

Məncə, məsələni türk xalqları və dövlətləri səviyyəsində bu cür qoymalıyıq və ona nail olmaq üçün ciddi çalışmaq lazımdır. Bu bağlılıqda türk dövlətlərinin elmi təşkilatları arasında əlaqələri yeni səviyyəyə yüksəltmək də, bizcə, mühüm şərtdir. Bu cür əlaqələr həm təcrübə mübadiləsinə, həm elmi imkanların genişlənməsinə və həm də daha yüksək nəticəverici elmi fəaliyyətin təşkilinə təkan verə bilər.

Elmi fəaliyyətin təşkilinin müasir tələblərə uyğun institutlaşması prosesi aktual məsələlərdəndir. İndi dünyanın bir sıra ölkələrində tələbələrə və hətta ibtidai sinif şagirdlərinə fənlərarası tədris proqramları əsasında kollektiv yaradıcılıq öyrədilir. Kiçik yaşlarından onlar təhsil sistemi daxilində kollektiv olaraq necə elmi yaradıcılıqla məşğul olmağı, vahid komandada necə səmərəli çalışmağı öyrənirlər. Bu, faktiki olaraq təhsildə yeni təşkilati və tədrisdə yeni keyfiyyət səviyyəsinin yaranmaqda olması deməkdir. Belə bir proses türk dövlətlərində gedirmi? Bizim əlimizdə faktımız yoxdur. Əgər bu prosesdən geridə qalsaq, hansı gələcək mənzərə ilə üzləşmiş olarıq?

Cəmi bir neçə ildən sonra o dövlətlər elmdə irəli çıxacaqlar ki, onlar təhsil və tədqiqatda kollektiv səmərəli fəaliyyəti təşkil edə biləcəklər və vahid komanda halında elmi ideyalar irəli sürüb, kəşflər edəcəklər. Bütövlükdə, bəşəriyyətdə təkamül prosesi inteqrasiyaya doğru gedir. Burada isə kollektiv fəaliyyətin səmərəsi ön plana çıxır. Türk dövlətləri üçün bunun ayrıca əhəmiyyəti vardır.

Türk xalqları iki səviyyədə kollektiv elmi fəaliyyətin təşkilinə, tədrisinə və yeniliklərin alınmasına nail olmalıdırlar. Birinci səviyyə hər bir türk dövlətində elmi fəaliyyətin institutlaşması və təhsilin innovativliyinin təmin edilməsinin mükəmməl səviyyəyə yüksəldilməsi ilə bağlıdır. Hər bir türk dövləti ayrılıqda buna nail olmasa, Türk Dövlətləri Təşkilatı (TDT) daxilində gözlənilən nəticə alınmayacaq. Bu o deməkdir ki, türk dövlətləri özlərinin təhsil və elmi araşdırma sistemlərini yeni tələblərə uyğun qurmalıdırlar. Azərbaycanın bu istiqamətdə maraqlı təcrübəsi formalaşır və müsbət nəticələri mütləq olacaqdır.

İkinci səviyyə TDT tərkibində türk dövlətlərinin elmi fəaliyyətlərinin koordinasiya edilməsi ilə əlaqəlidir. Bu istiqamətdə aparılan işlər səmərə versə, yüksək elmi potensial meydana gələcəkdir. Türk dövlətlərinin alimləri birgə fəaliyyətlə çox uğurlar əldə edə bilərlər. Dünyanın ən uzaq ölkələrinin alimləri birgə çalışa bilirlərsə və nəticələr alınırsa, TDT-də bunu daha səmərəli etmək mümkündür.

Deməli, türk dövlətlərinin elmdə dünyanın öncülləri səviyyəsinə qalxması kompleks xarakterli və müxtəlif təbiətli işlərin görülməsini tələb edir. Özü də söhbət ondan getmir ki, türk ölkələri insanlarını Qərbə və ya Çinə göndərib, orada təhsil alandan sonra geri qaytarmaqla bunlara nail olsun. Bu, türk dövlətinin özündə elmi məktəblərin yaradıcı olmasına qalıcı təsir göstərməyə bilər.

Əsas məsələ alimin burada yetişdirilməsindən, burada ona şəraitin yaradılmasından və məhz burada alimin dünya miqyaslı elmi nəticələr almasına nail olmaqdan ibarətdir. Təhsil və elmin vətəndə birləşdirilməsi və nəticənin də burada alınması mühüm şərtdir! Bu da elm siyasətinin hazırda hər bir türk dövləti üçün nə dərəcədə əhəmiyyətli olduğunu təsdiq edir.

Nəhayət, bütün vurğulanan proseslərin uğurlu olması üçün vacib bir şərt ödənməlidir: elm və təhsilin maliyyələşməsi! Elmə və təhsilə qoyulan sərmayə heç zaman itmir! Onun konkret nəticəsini bir neçə il gözləmək də ola bilər. Lakin stratejidə dövlət, xalq, cəmiyyət və fərdlərin də qazanacağına şübhə yoxdur! Qərb bu üsulla irəli çıxa bilmişdir, indi Çin eyni üsulla elmin zirvələrini fəth edir!

Əziz Səncərin AMEA Rəyasət Heyətindəki məruzəsi bizi bir daha bu kimi məsələlər üzərində düşünməyə sövq edir. Əlbəttə, elm kollektiv işin məhsuludur. Dövlət və millət olaraq “elmdə səfərbərliyə” ehtiyac yaranmışdır! Burada dövlətlə cəmiyyətin, müəllimlə alimin əl-ələ verməsi vacib şərtdir!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Bakı–İrəvan: sülh sazişinin imza platforması və qlobal rəqabət amili

(əvvəli 1-ci səhifədə)

Ermənistan dövləti və cəmiyyəti özünü səmimiyyət baxımından o qədər ciddi təsdiqləməlidir ki, şübhə ehtimalları tam şəkildə aradan qalxsın. Elə cənab İlham Əliyev də məhz bunu bildirir: "Onlardan (şərtlərdən – red.) biri Ermənistanın Konstitusiyasıdır ki, orada Azərbaycana qarşı ərazi iddiaları var. İkincisi, Ermənistanın Azərbaycana və Türkiyəyə qarşı əsassız ərazi iddialarına son qoyulmalıdır. Təbii ki, biz artıq bunu Ermənistan tərəfinə təklif etmişik ki, Azərbaycan və Ermənistan ATƏT-ə birgə müraciət etsin ki, Minsk qrupu ləğv olunsun. Minsk qrupuna heç bir ehtiyac yoxdur, o, indi fəaliyyət göstərmir. Biz onun fəaliyyət göstərməsinə de-fakto imkan verməyəcəyik. Qaldı ki, de-yure – hüquqi cəhətdən, ləğv edilsin və bu, Ermənistanın nə qədər səmimi olmasından xəbər verəcək. Əgər Ermənistan Minsk qrupunun saxlanmasına üstünlük versə, deməli, onların bizə qarşı ərazi iddiaları davam edir".

Bəs hazırda sırf səmimiyyət nöqteyi-nəzərdən hansısa irəliləyiş varmı? Əlbəttə, sülh prosesində müəyyən dinamika gözə dəysə də, demək olmaz ki, bu deyim vurğuladığımız kriteriya prizmasından keçərlidir. Çünki İrəvanda spekulyativ ab-hava hökm sürür. Hiss olunur ki, Azərbaycan diplomatiyası azacıq yumşaq davransa, Ermənistan rəhbərliyi sülh gündəliyinə əlavənələrisə də daxil etmək əzmini ortaya qoyacaq.

Məsələn, Azərbaycan Prezidentinin haqqında söz açdığımız fikirləri səsləndirməsindən dərhal sonra Ermənistan Xarici İşlər Nazirliyi məlumat yayaraq bildirdi ki, ölkələr arasında sülh sazişi imzalamaq məqamı yetişib: “Ermənistan tərəfi saziş üzərində işin yaxın bir ay ərzində başa çatdırılması və imzalanması istiqamətində konstruktiv və intensiv şəkildə çalışmağa hazır olduğunu bildirir”.

Yəni, bu məlumat dövlətimizin başçısının səsləndirdiyi fikirlərin konseptuallığına kölgə salmaq, həmin fikirləri arxa plana atmaq, rəsmi İrəvanın özünü mütərəqqi göstərmək cəhdidir. Təxminən belə: biz tez bir zamanda sülh istəyirik, Azərbaycan razı deyil. Bəs Ermənistan, həqiqətən, barış arzusundadırmı? Ən başlıcası isə ölkə sülh müqaviləsini qlobal rəqabət platformasına çıxarmaq istəməyəcək ki?

Sülhün başlıca komponenti sayılan delimitasiya və demarkasiya işlərinə start verilsə də, bu kimi suallara cavab yoxdur. Digər tərəfdən, nəzərə alaq ki, hazırda delimitasiya və demarkasiya şərti sərhədin bir o qədər mübahisə doğurmayan hissəsində aparılır. Ancaq görürük ki, Ermənistan cəmiyyətində revanşist və şovinistlər ayağa qalxıblar. O zaman sual olunur: Proses digər istiqamətlər üzrə reallaşacaqmı? Axı bu iş həyata keçirilmədən sülhdən danışmaq qeyri-mümkündür. Görəsən, Ermənistan XİN yaxın bir ay ərzində nəyə ümid bəsləyir? Elə buradan da görünür ki, qurumun yaydığı məlumat sabun köpüyündən başqa bir şey deyil. Deməli, rəsmi İrəvanın yalnız özünü pozitiv tərəf kimi göstərmək istəyi var ki, bu isə aşkar imitasiyadır.

Azərbaycan–Ermənistan sülh müqaviləsi üzrə qlobal rəqabət faktorlarından, xüsusən də yekun sazişin hansı platformada imzalanmasından söz düşmüşkən, qeyd edək ki, rəsmi İrəvanın danışıqlar prosesini məhz



həmin rəqabətə qurban verdiyinə dair faktlar yetərincədir. Bu baxımdan iki məqamın üzərində dayanmaq mümkündür.

Birincisi, 2022-ci ilin dekabrında Azərbaycan və Ermənistan liderləri Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə görüşməli idilər. Həmin vaxt Rusiya–Fransa ziddiyyətlərinin kəskinləşməsi fonunda baş nazir Nikol Paşinyan bildirmişdi ki, dekabr görüşünə orada yalnız Fransa Prezidenti Emmanuel Makron iştirak edəcəyi təqdirdə qatılacaq.

İkincisi, rəsmi İrəvan bəlli bir müddətdə təkbətək danışıqlardan imtina ilə yadda qalmışdı. Onun gətirdiyi imtina arqumenti bu idi ki, guya, Azərbaycan əldə ediləcək istənilən razılığı poza bilər, buna görə mütləq beynəlxalq təminat lazımdır. Görəsən, Ermənistan rəhbərliyi yenə eyni cür davranmayacaq ki?

Azərbaycan dəfələrlə bəyan edib ki, Ermənistanla sülh müqaviləsinin hansı platformada imzalanacağı heç bir önəm daşımır. Əsas odur ki, ölkəmizin müəyyənləşdirdiyi şərtlər yerinə yetirilsin. Əslində, erməni tərəfi də sülhün Qərbdə, yaxud Rusiyada imzalanmasının heç bir önəminin olmadığını açıqlayıb. Ancaq, bu, çoxdan olub. Hazırda İrəvan–Moskva münasibətlərindəki gərginlik son otuz ildə özünün ən yüksək fazasına qədəm qoyub. Bakı isə həm Qərblə, həm də Rusiya ilə balanslı siyasətinə sadiqdir və hər zaman sadiq qalıb. Yəni, ölkəmizin mövcud xüsusda sərbəst davranması mümkündür. Ermənistanın isə yox. Yəni, Qərbin rəsmi İrəvana sülh sazişinin imza platforması baxımından təzyiq göstərmək ehtimalı son dərəcə böyükdür. Hadisələrin hansı səmtə doğru inkişaf edəcəyini isə zaman göstərəcək.

*Ə.RÜSTƏMOV*
*XQ*

# Bakı–Qahirə: Qafqazdan Afrikanın şimalına dostluq körpüsü

## Ortaq dəyərlər və ümumi hədəflər Azərbaycan–Misir tərəfdaşlığını möhkəmləndirir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasına rəsmi səfəri siyasi əhəmiyyəti və tarixi məqam nöqteyi-nəzərdən böyük əhəmiyyətə malikdir. Bu səfərin iki ölkə arasında münasibətlərin daha da inkişafına, uğurlu perspektivinə ciddi töhfə verəcəyinə şübhə yoxdur. Qahirədə dövlət başçılarının görüşlərinin nəticəsi olaraq imzalanan sənədlər Azərbaycan və Misir arasında çoxspektrli əməkdaşlığın dərinləşdirilməsi üçün zəruri hüquqi bazanı daha da təkmilləşdirəcək, beynəlxalq platformalarda bundan sonra da onların vahid mövqedən çıxış etmələrinə möhkəm zəmin yaradacaq.**

Yayılan rəsmi məlumata əsasən, iyunun 8-də Qahirədə Azərbaycan–Misir dövlət sənədlərinin imzalanması mərasimi olub. Bu sənədlər – "Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Misir Ərəb Respublikasının Gənclər və İdman Nazirliyi arasında gənclər və idman sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Bakı Şəhər İcra Hakimiyyəti ilə Misir Ərəb Respublikasının Qahirə Qubernatorluğu arasında dostluq və əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Misir Ərəb Respublikasının Elektrik və Bərpaolunan Enerji Nazirliyi arasında elektrik və bərpaolunan enerji sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) ilə Misir Ərəb Respublikasının Sərmayə və Azad Zonalar üzrə Baş Qurumu (GAFI) arasında 2024–2025-ci illər üzrə Birgə Fəaliyyət Planı", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Misir Ərəb Respublikasının Neft və Mineral Ehtiyatlar Nazirliyi arasında əməkdaşlıq haqqında Niyyət Protokolu", "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Misir Ərəb Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi arasında informasiya və kommunikasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"dur. İmzalanma mərasimində Azərbaycan Prezidenti İlham Əliyev və Misir Prezidenti Əbdülfəttah əs-Sisi iştirak ediblər.

* * *

Sənədlərin imzalanması mərasimindən sonra Misir Prezidenti Əbdülfəttah əs-Sisi mediaya açıqlamasında Azərbaycan Prezidenti İlham Əliyevin səfərinin ikitərəfli əlaqələri gücləndirəcəyini qeyd edib. "Misir Cənubi Qafqazda sabitlik və sülhün bərqərar olmasına sadiqdir", – deyən Əbdülfəttah əs-Sisi Azərbaycanı COP29-a evsahibliyi münasibətilə təbrik edərək, Azərbaycan Prezidenti İlham Əliyevlə aparılan danışıqların iki ölkə arasında bütün sahələrdə əməkdaşlığın dərinləşməsinə xidmət edəcəyini vurğulayıb. Öz növbəsində Azərbaycan Prezidenti İlham Əliyev Misirin dövlət başçısı Əbdülfəttah əl-Sisini COP29-a dəvət edib.

Aydın məsələdir ki, Azərbaycanın nəinki bölgənin, eləcə də Avropanın enerji təhlükəsizliyi sahəsində oynadığı önəmli rolu, transmilli nəqliyyat qovşağının üzərində yerləşməsi rəsmi Qahirənin diqqətindən yayınmır, onu xarici siyasət prioritetlərinə müəyyən korrektələrə sövq edir. Dünyanın "yaşıl enerjiyə" keçidlə bağlı çağırışlarına Bakının fəal şəkildə qoşulduğu indiki məqamda Misirin Azərbaycanla ikitərəfli münasibətləri nəzərdən keçirmək, Azərbaycanın müəllifi və iştirakçısı olduğu qlobal layihələrə qoşulmaq istəyi təbii qəbul olunmalıdır. Misirin belə bir istəyi ölkəmiz üçün də maraq kəsb edir. İnanırıq ki, ikitərəfli əməkdaşlığın yeni müstəvidə inkişafının nəticəsi olaraq, rəsmi Qahirə Azərbaycan–Ermənistan münasibətlərinə yanaşmada neytral mövqeyini ölkəmizə dəstək mövqeyi ilə əvəzləyəcək. Rəsmi Bakının hədəfində olan bu məsələ ciddi xarakter daşıyır və cənab Prezidentin Qahirə səfəri bu yöndə uğurlu perspektivdən xəbər verir.

* * *

Qeyd edək ki, 2023-cü il yanvarın 27-28-də Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin Azərbaycana səfəri özünün geniş proqramı ilə yaddaqalan olub. Azərbaycan Prezidenti İlham Əliyevlə geniş tərkibdə görüşdən sonra iki ölkə arasında bir sıra sahələrdə əməkdaşlıq üzrə sənədlər imzalanıb. Həmin sənədlərin siyahısına "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Misir Ərəb Respublikasının Su Ehtiyatları və Suvarma Nazirliyi arasında su ehtiyatlarının idarə edilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Misir Ərəb Respublikasının Mədəniyyət Nazirliyi arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Misir Ərəb Respublikasının Ticarət və Sənaye Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu" daxildir.

Bakıya səfərində dövlət başçılarının ikitərəfli görüşündən sonra Əbdülfəttah əs-Sisinin çıxışından bir hissəni oxucuların diqqətinə çatdırmağımız yerinə düşər: "İstərdim ki, ölkələrimiz arasında münasibətlərin inkişafı ilə bağlı səylərimizi daha da gücləndirək. Ölkələrimiz arasında siyasi dialoqun hər iki xalqın mənafeyi naminə davam etdirilməsini istəyirik və müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığın inkişafında maraqlıyıq. Xalqlarımızın dini, tarixi yaxınlıqlarını nəzərə alaraq, iqtisadi, ticari və mədəni sahələrdə əlaqələrimizi daha da inkişaf etdirmək niyyətindəyik".

Misir Prezidentinin ilyarım bundan əvvəl Bakıda dediyi bu sözləri, əslində, Azərbaycan–Misir münasibətlərinin yeni müstəviyə keçdiyindən xəbər verirdi. Həmin səfərin yekunu olaraq sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra Prezident İlham Əliyev mətbuata verdiyi açıqlamasında Azərbaycan və Misir arasında məhz perspektivə hesablanmış uğurlu əməkdaşlığı nəzərdə tuturdu: "Misir bu gün yerləşdiyi bölgədə sabitləşdirici rol oynayır. Biz bunu çox təqdir edirik və əldə olunmuş nailiyyətlərlə öz dostlarımızı səmimiyyətlə təbrik edirik. Əminəm ki, bizim ikitərəfli əlaqələrimizin uğurlu inkişafı xalqlarımız və dövlətlərimiz üçün çox faydalı olacaq. Eyni zamanda, yerləşdiyimiz bölgələrə də əlavə sabitlik gətirəcəkdir. Çünki sabitlik olmadan heç bir ölkə uğurla inkişaf edə bilməz".

***ARAYIŞ: Afrika qitəsinin şimal-şərqində, Yaxın Şərq bölgəsində yerləşən Misir Ərəb Respublikası ilə Azərbaycanın əməkdaşlığı qədim tarixi köklərə malikdir. Hələ SSRİ dönəmində Azərbaycanla Misir arasında mehriban dostluq əlaqələri olub. Misir 1991-ci il dekabrın 26-da Azərbaycanın müstəqilliyini tanıyıb, 1993-cü ildə qarşılıqlı diplomatik əlaqələrin yaradılması haqqında protokol imzalanıb. 1994-cü ilin yanvarında Azərbaycanın Qahirədə səfirliyi açılıb. Xalqımızın ümummilli lideri Heydər Əliyev ilə Misir Prezidenti Hüsnü Mübarək arasında dostluq münasibətləri əməkdaşlığın inkişafı üçün yaxşı zəmin yaradıb.***

* * *

Birmənalı olaraq deyə bilərik ki, bu gün Azərbaycan–Misir münasibətləri özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Bakı ilə Qahirə arasında intensivləşən təmaslar, dünən imzalanan sənədlər hər iki xalqın milli maraqlarına cavab verir. Dövlət başçılarının qarşılıqlı səfərləri əməkdaşlığın sürətlə genişləndirilməsi baxımından yeni imkanlar yaradır, ölkələrimiz arasında münasibətlərin inkişafı üçün böyük potensialın mövcudluğundan xəbər verir. Bu baxımdan, Azərbaycan Prezidenti İlham Əliyevin Misirə rəsmi səfəri ölkələrimiz arasında əməkdaşlığın dərinləşdirilməsinə yeni töhfələr verəcək. Bu əməkdaşlıq dünyada islamofobiya meyillərinin gücləndiyi indiki dövrdə xüsusi əhəmiyyət daşıyır. Azərbaycan beynəlxalq miqyasda özünü göstərən dini, irqi ayrı-seçkilik kimi zərərli tendensiyalara qarşı fəal mübarizə aparır. İslam həmrəyliyi prinsipini rəhbər tutan Azərbaycan bu məqsədlə ərəb dövlətləri ilə həm ikitərəfli, həm də İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Birləşmiş Millətlər Təşkilatı (BMT) və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın dərinləşdirilməsində maraqlıdır. Bu kontekstdən yanaşanda Azərbaycanın ərəb dövlətləri ilə əlaqələrində Misirlə münasibətləri xüsusi əhəmiyyət daşıyır.



Prezident İlham Əliyevin 2022-ci ilin noyabrında Ərəb Dövlətləri Liqasının (ƏDL) Əlcəzairdə keçirilən 31-ci Zirvə toplantısında iştirakını qeyd etməliyik. Əlcəzair Prezidenti Abdelmacid Tebbunun dəvəti ilə fəxri qonaq statusunda iştirak etdiyi həmin toplantıda çıxış edən dövlətimizin başçısı Azərbaycanın bu mötəbər təşkilatla əlaqələri inkişaf etdirmək istəyini vurğulayaraq bildirib: "Ərəb Dövlətləri Liqası ilə Azərbaycan arasındakı münasibətlərin xüsusi xarakteri var. Bu yay mənə baş katib cənab Əbul Qeyti Bakıda qəbul etmək şərəfi nəsib olub. Biz gələcək əməkdaşlığımızla bağlı geniş söhbət apardıq. Azərbaycan 2006-cı ildən təşkilatın müşahidəçi statusunda üzvüdür və biz əməkdaşlığımızı genişləndirmək istəyirik".

* * *

Onu da nəzərə çatdıraq ki, misirli iş adamlarının Azərbaycanda fəaliyyəti çoxşaxəlidir. Paytaxt Bakıda və bölgələrdə ticarət, sənaye, eləcə də xidmət sahələrində Misir sərmayəsi ilə10-dan çox şirkət fəaliyyət göstərir. Bundan başqa, enerji daşıyıcıları sahəsində ikitərəfli əməkdaşlığın da istiqamətləri genişdir. Həmin əlaqələrin daha da genişləndirilməsi üçün müvafiq tədbirlər həyata keçirilir. Neçə illərdir ki, SOCAR Misirin Dövlət Neft Şirkəti ilə yaxından əməkdaşlıq edir. İkitərəfli əlaqələr turizm sahəsində də inkişaf edir. Rəsmi statistikaya əsasən, son beş ildə Misirdən Azərbaycana gələn turistlərin sayı 50 faiz artıb. Eyni zamanda, Azərbaycanla Misir arasında humanitar, sosial xarakterli bir sıra mühüm layihələr həyata keçirilir.

Yeri gəlmişkən, oxucuların diqqətinə onu da çatdıraq ki, bəzi ərəb dövlətləri, o cümlədən Misir və İraq uzun illərdir mina problemindən əziyyət çəkir. Azərbaycan da Qarabağ torpağını mənfur qonşuların "yeraltı" müharibəsinin fəsadlarından – minalardan təmizləməklə məşğuldur. Azərbaycan bu problemə beynəlxalq ictimaiyyətin diqqətini daha çox yönəltmək istiqamətində Misirlə yaxından əməkdaşlıq etməyə hazırdır. Güman edirik ki, Prezident İlham Əliyevin Qahirəyə rəsmi səfərində müzakirə ediləcək məsələlərin siyahısında bu mövzu da yer alıb.

***İmran BƏDİRXANLI***
***XQ***

---

# Revanşistlər "həlledici döyüş" ərəfəsində

**(əvvəli 1-ci səhifədə)**

Təxribatçı, pozucu əməllərlə məşğul olan, öz ölkələrinə "yaxşılıq" niyyəti ilə pislik edən revanşistlərin son vaxtlar destruktiv hərəkətlərinə "müqəddəs mübarizə" adı vermələri də diqqətdən yayınmır. Bir neçə gün öncə hərəkatın sosial şəbəkə hesablarında "Əziz həmvətənlər, qələbə çox yaxındır" sərlövhəsi ilə yerləşdirilmiş elanda deyilirdi: "Bu günlər çox mühüm iş günləridir. Biz sıralarımızı artırmalı, informasiya resurslarının imkanlarını genişləndirməli, yeni insanları cəlb etməli və bazar günü keçiriləcək böyük mitinqə hazırlaşmalıyıq".

Dünən B.Qalstanyanın müsahibə verdiyi barədə məlumat açıqlanıb. Maraqlıdır ki, müsahibə iyunun 7-də verildiyi halda onunla bağlı məlumat dünən yayımlanıb. Qalstanyana yaxın media orqanları müsahibədə dünyanın 40-dan çox media orqanı nümayəndəsinin iştirak etdiyi barədə ağ yalan danışıblar. Onun iştirakçılarının siyahısına baxdıqda, onların tamamilə dünyanın müxtəlif yerlərində yaşayan ermənilərdən ibarət olduğunu görmək mümkündür. "Frans-Press" agentliyinin erməni əsilli jurnalisti istisna olmaqla, dünyanın heç bir nüfuzlu media orqanının təmsilçisi müsahibədə iştirak etməyib.

Bütün hallarda Baqratın mətbuat konfransı zamanı Azərbaycanla bağlı dediklərindən bir neçə iqtibas gətirməyi lazım bilirik. Qeyd edib ki, onlar Ermənistan və Azərbaycan arasında danışıqları real və çoxtərəfli etməyə hazırdırlar: "Bizim hərəkatın vəzifəsi Ermənistan və Azərbaycan arasında mövcud olmayan (?) danışıqlar fonunda real gündəliyə malik real danışıqlara başlamaqdır. Bu gün heç bir danışıqlar aparılmır. Bu gün güc tətbiqi var. Delimitasiya və demarkasiya prosesi hər mənada – hüquqi, qanunvericilik, etik, siyasi, eləcə də təhlükəsizlik sferasında pozuntularla baş verib. Biz danışıqları həqiqətən real və çoxtərəfli etməyə hazırıq".

Qalstanyan digər bir suala cavab olaraq bildirib ki, bu danışıqlarda ATƏT-in zamin qismində olması son dərəcə vacibdir: "Bizim əsas dəyişikliyimiz real danışıqların beynəlxalq standartlara uyğun və zaminlərin iştirakı ilə aparılmasını təmin etməkdir. ATƏT bu danışıqların mühüm təminatçısı ola biləcək çox mühüm platformadır. Əgər biz sülhə çalışırıqsa, ilk növbədə bu sülh müəyyən edilməlidir. Əgər hakimiyyət sülh müqaviləsi bağlamaq istəyirsə, prioritet bu olmalıdır və yalnız bundan sonra bütün digər addımlar atılmalıdır".

Dünən isə B.Qalstanyan və tərəfdarları avtomobillə Böyük Qarakilsə (Vanadzor) şəhərinə yürüş ediblər. Onlar saat 16:00-da şəhərdə mitinq keçiriblər.

Ermənistanın müstəqil media orqanlarında isə Baqratın hərəkətləri əvvəlki kimi tənqid edilməkdədir. "Armenian Report" saytında dərc edilmiş "Söz və əməl" sərlövhəli analitik yazıda bildirilib ki, populist, ucuz vədlərlə vətəndaşları küçələrə səsləmək, "arzularımızın mənəvi Ermənistanı"nı qurmaqdan danışmaq asandır. Kiçik, lakin əməli addımlarla ölkənin güclənməsi işini həyata keçirmək daha çətindir.

Müəllif Samvel Ohanesyan yazır: "Bundan bir neçə gün öncə yazdığımız "Boşboğazlığın günahı: bir populisti digəri ilə dəyişməyə dəyərmi?" sərlövhəli məqalədə müxalifət liderlərinin sui-istifadə etməyi sevdiyi ucuz, ən əsası isə məsuliyyətsiz populizm məsələsinə toxunmuşdum. Onlar məqsədlərini elan edirlər – nəyin bahasına olursa-olsun Paşinyanı devirmək, rejimi dağıtmaq – bu haqda açıq danışırlar, sonra da... Sonra da heç kim konkret və praktiki heç nə təklif etmir. "Vətən naminə Tavuş" hərəkatının bazar günü insanları yenidən Respublika meydanına çağırması məni yenidən bu mövzuya qayıtmağa sövq etdi".

Yazıda Qalstanyanın və tərəfdarlarının mitinqi süni şəkildə şişirtdikləri bildirilib: "Onlar mitinqi bəh-bəhlə reklam edirlər. Sanki bütün həyatımız iki yerə bölünəcək: Mitinqdən əvvəl və sonra yaşadıqlarımız. Sanki Baqrat Qalstanyan və onun tərəfdaşları – deputat Qarnik Danielyan, politoloq Suren Petrosyan və başqaları bizə bütün problemlərimizi həll edəcək möcüzə həbi təklif edəcəklər: səriştəsiz hökumət, güzəşt siyasəti, "mənfi" miqrasiya, cəmiyyətin laqeydliyi və depressiyası... Ancaq onlar bizə, nə az, nə çox, bunu deyirlər: "Hərəkatın rəsmi kanallarını paylaşın, linklər buradadır", "Birlikdə xəyallarımızdakı ruhani Ermənistanı quracağıq!" və sair. Zənnimizcə, yorğun insanları populist vədlərlə meydanlarda sürükləməkdənsə, kiçik addımlarla da olsa işləmək daha yaxşıdır".

Qeyd edək ki, tarix elmləri namizədi Varujan Geqamyan bugünlərdə həmvətənlərinə müraciət edib. Bildirib ki, "Azərbaycan və Türkiyədən Ermənistana daim yeni, getdikcə daha radikal və fəlakətli tələblər ünvanlanacaq". Ancaq o, bunun qarşısını necə almaq lazım olduğunu bilir: Hazırda çıxış yolumuz iyunun 9-da keçiriləcək böyük mitinqdə iştirak etməkdir. Ona cavab verən digər erməni media resursları isə bildiriblər ki, "bizim xarici düşmənlərimiz" silahsız ermənilərin İrəvanın mərkəzində mitinq keçirməsinə qətiyyən əhəmiyyət vermirlər.

Həmçinin, görünür, yalançı vətənpərvər qüvvələrin hərəkatına rəğbət bəsləyən "Alternativ layihələr" qrupunun üzvü, "yüksək səviyyəli politoloq" Vahe Ovannisyan da "əsas mitinq" ideyasından ilhamlanıb və təşkilatçılara məsləhətlər verib: "Hərəkat çox mühüm və çətin mərhələni keçib. O, yeni sabit elektorat formalaşdırıb, hökumətyönlü anti-təbliğatın ən böyük dalğasını qırıb və daimi müşahidəçilərin – ehtiyatlı və tərəddüdlü təbəqələrin qapılarını döyüb. Bu qapıların açılması üçün hərəkatın bundan sonra yeni mövzular üzərində düşünməsi lazımdır". O, daha sonra küçədə adi erməninin könlünü almaq üçün məsləhətlər verib. "Armenian Report" yazır ki, diqqətlə baxdıqda onun bütün tövsiyələri Ermənistandakı siyasi böhrandan necə çıxmaqla deyil, insanları meydana necə toplamaqla bağlıdır ki, "kritik kütlə" sayəsində mitinq əsas toplantı olsun: "Sadə dillə desək, onun dedikləri tükənmiş və qürurlu olmayan vətəndaşa problemlərinin həll etmək haqqında quru vəddir. Bu, necə yaxşı populist olmaq haqqında mühazirədir. Boynunda bənövşəyi şərf olan Baqrat Qalstanyan isə Müqəddəs Anna kilsəsinin həyətinə öz "qoyun sürüsü"nü yığaraq yenidən Paşinyanın özünün və rəhbərlik etdiyi hökumətin tezliklə gedəcəyini vəd edib. "Srbazan"ın həmkarları, yəqin ki, bu çıxışı bəyəniblər. Amma "müqəddəs ata" Azərbaycana necə müqavimət göstərmək niyyətində olduğunu açıqlamayıb. Çox güman ki, sirləri açmaq istəmədiyi üçün bunu etməyib".



"Hraparak" qəzeti isə yazır ki, Baqratın rəhbərlik etdiyi hərəkat təkcə Nikolun hərəkətlərinin deyil, həm də onun ruh halının leytmotivinə çevrilib: "Bu günlərdə hakim partiyanın qapalı iclasında Paşinyan "Pişik Leopoldun macəraları" cizgi filmindəki kimi qeyri-adi sakitliklə və "Uşaqlar, gəlin dost olaq" üslubunda çıxış edib. İrəvan merinin müavinləri mövcud problemlərdən şikayətləniblər. Paşinyan isə yanğınsöndürən rolunu üzərinə götürərək, qızışan ehtirasları söndürüb, komanda yoldaşlarını əmin edib ki, bəli, problemlər var, amma məsələ onların həll olunmamasında deyil, problem yalnız temp və vaxtdadır. Bəlkə də bunun üçün qərəzli səbəblər var".

"Mülki müqavilə"dəki mənbənin sözlərinə görə, Paşinyan faktiki olaraq, bu dövrdə problemi komandanın birliyini qorumaq və heç kimi incitməmək yolu ilə həll etməyə çalışır. Əgər bir neçə ay əvvəl belə söhbət olsaydı, o, sadəcə olaraq mer Tiqran Avinyana hücuma icazə verərdi. Şərait yaradardı ki, onlar bir-birini "parçalasınlar" və o, tamaşaçı statusunu qəbul edərək, bu mənzərədən həzz alardı. Yeri gəlmişkən, mer hansısa tədbirdə iştirak bəhanəsi ilə təşəbbüs qrupunun iclasında iştirak etməyib. Baxmayaraq ki, iclas axşam saatlarında başlayıb".

Bu arada Ermənistan milli təhlükəsizlik xidmətinin rəhbəri Armen Abazyanla baş nazir Nikol Paşinyan arasında qarşılıqlı etimadsızlıq olduğu barədə də məlumat yayılıb. Hayastan mediası yazıb ki, Paşinyan milli təhlükəsizlik xidmətinin rəhbərinə hökumət üzvləri üçün hazırlanan bağ evinə köçməyi təklif edib. İddialara görə, Abazyan bu təklifdən imtina edib. Səbəb kimi isə Paşinyanın istənilən vaxt onun evinə "qvardiyasını" göndərib yoxlama aparacağı və ya gecənin istənilən vədəsində öz yanına çağıra biləcəyi göstərilir. Belə görünür ki, baş nazir Abazyana güvənmir, bu isə MTX rəhbərinin vəzifəsini hər an itirə biləcəyi anlamına gəlir. O da bildirilib ki, hazırda hökumətin bağ evində cəmi üç ailə yaşayır: Paşinyan, Alen Simonyan və Ararat Mirzoyan.

Eyni zamanda, son vaxtlar Ermənistanın müdafiə və təhlükəsizlik sahəsində müxtəlif ölkələrlə əməkdaşlığı genişləndirdiyi də diqqətdən qaçmır. Ermənistan müdafiə nazirinin müavini Karen Brutyanın başçılıq etdiyi nümayəndə heyəti Berlində alman həmkarı ilə danışıqlar aparıb. Ermənistan və Almaniyanın müdafiə nazirlikləri arasında hərbi-texniki və hərbi-texnoloji əməkdaşlığa dair sənədlər imzalanıb.

Hayastan parlamentinin müdafiə və təhlükəsizlik məsələləri komissiyası isə Yunanıstanla hərbi-texniki əməkdaşlıq haqqında sazişi təsdiqləyib. Görüşdə iştirak edən müdafiə nazirinin müavini Arman Sarkisyan bildirib ki, sazişin məqsədi iki ölkə arasında hərbi-texniki əməkdaşlıq prosesini genişləndirmək və dərinləşdirməkdir. Görünən odur ki, Ermənistan silahlanır, silah tədarükü bazarını şaxələndirir. Bütün bunlar isə Prezident İlham Əliyevin iyunun 6-da TÜRKPA-nın nümayəndə heyətini qəbul edərkən bildirdiyi "Onlar revanşizm ideyalarından tamamilə imtina etməlidirlər və biz görürük ki, belə ideyalar təkcə müxalifətdə deyil, iqtidarda da var. Bütün bu məsələlər, təbii ki, aydınlaşdırılmalı və tənzimlənməlidir" sözlərinin daha bir isbatıdır.

***Səxavət HƏMİD***
***XQ***

# Əməkhaqqı fondu şəffaflaşır ...

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına əsasən, qurumun iş yerlərinin rəsmiləşdirilməsi, əməkhaqqı fondunun "ağardılması" və şəffaflığın təmin edilməsi istiqamətində həyata keçirdiyi tədbirlərin nəticəsində bağlanmış əmək müqavilələrinin sayı 2019-cu ilin əvvəli ilə müqayisədə 452 min 692 vahid artıb və bu il iyunun 1-nə 1 milyon 854 min 607 olub. Qeyri-neft sektorunun özəl bölməsində həmin göstərici 410 min 704 vahid artaraq 950 min 626 təşkil edib.**



Məlumatda, eyni zamanda, 5 ildən çox bir müddətdə gerçəkləşdirilən təşviq əsaslı vergi siyasətinin əmək bazarında əhəmiyyətli dəyişikliklərə səbəb olduğu vurğulanıb.

Xatırladaq ki, 2024-cü ilin yanvar-aprel ayları ərzində muzdlu işçi sayının və əməkhaqqı fondunun "ağarması" şəraitində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 1,8 milyard manatdan çox olmaqla əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11,7 faiz və ya 190 milyon manat artıb. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar isə ötən ilin eyni dövrünə nisbətən 14 faiz artaraq 1,2 milyard manata çatıb.

Dövlət Vergi Xidmətindən bildirildiyinə görə, hesabat dövründə işsizlikdən sığorta haqları üzrə daxilolmalar 2023-cü ilin yanvar-aprel ayları ilə müqayisədə 13,8 faiz artaraq 64,5 milyon manatdan çox olub. Həmin istiqamətdə qeyri-büdcə təşkilatları üzrə daxilolmalar isə 17,1 faiz artıb və 48,9 milyon manata yüksəlib.

Cari ilin yanvar-aprel aylarında icbari tibbi sığorta haqları üzrə daxilolmalar ötən ilin müvafiq dövrünə nisbətən 9,2 faiz artaraq 318,3 milyon manat təşkil edib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar isə 10,2 faiz artıb və 225,1 milyon manata çatıb.

Dövlət Vergi Xidmətinin xətti ilə ilin ilk 4 ayında dövlət büdcəsinə vergi daxilolmalarının həcmi 6 milyard 657 milyon 339 min manat (proqnozdan əlavə 954,2 milyon manat) təşkil edib. Qeyri-neft-qaz sektorundan vergi daxilolmalarının həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 13 faiz artaraq 4 milyard 522,6 milyon manata çatıb. Ödənilən vergilərin 67,9 faizi qeyri-neft-qaz sektorunun, 32,1 faizi isə neft-qaz sektorunun payına düşüb.

Qeydə alınan bu göstəricilər həyata keçirilən iqtisadi islahatların, səmərəli vergi inzibatçılığının və əlverişli biznes mühitinin gerçəkləşdirilməsinin, cəmiyyətdə vergi mədəniyyətinin yüksəldilməsinin nəticəsidir. Əldə olunan fiskal nəticələrdə iqtisadi artımla yanaşı, iqtisadiyyatda şəffaf münasibətlərin qurulması, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması kontekstində atılan addımlar da mühüm önəm daşıyır.

Mütəxəssislərin təhlillərinə əsasən, son illər ərzində "kölgə iqtisadiyyatı"nda cəmlənmiş dövriyyələrin "ağarması" prosesi sürətlənib. Bu, bəyan edilən dövriyyələrdə, ticarət əməliyyatlarında sənədləşmənin səviyyəsində, elektron qaimələrin dövriyyədəki payında, bağlanmış əmək müqavilələrinin sayında özünü büruzə verib.

Dövlət büdcəsinə vergi daxilolmalarının təmin edilməsi, iqtisadi artımın bərpasında vergi təşviqi alətlərindən fəal istifadə, vergi ödəyicilərinə xidmətlərin çeşidinin və biznesin fəaliyyətinə səmərəli vergi nəzarətinin qurulmasında rəqəmsallaşmanın genişləndirilməsi vergi orqanlarının bundan sonra da fəaliyyətinin başlıca prioritetləri olacağına əminlik yaradır.

Ümumiyyətlə, son illərdə respublikada "kölgə iqtisadiyyatı"nda cəmlənmiş dövriyyələrin "ağarması" prosesinə xüsusi önəm verilib və bu amil daim diqqət mərkəzində saxlanılıb. Prezident İlham Əliyev çıxışlarının birində ölkə iqtisadiyyatının inkişafına əngəl törədən problemlər sırasında "kölgə iqtisadiyyatı"nın mövcudluğunun ciddi narahatlıq doğurduğunu vurğulayıb. Dövlətimizin başçısı yeri gəldikcə sözügedən məsələyə münasibət bildirərək, bu sahədə aparılan mübarizənin müsbət nəticələrinə baxmayaraq, məlum narahatlıq yaradan vəziyyətin daim diqqətdə saxlanılacağını xatırladaraq, deyib: "Kölgə iqtisadiyyatı, əlbəttə, hər ölkədə var, əsas məsələ onun həcmidir, dövlətin, hökumətin buna münasibətidir. Dövlətin və hökumətin buna münasibəti belədir ki, bu, Azərbaycanda olmamalıdır və bizim əlimizdədir ki, bu, olmasın. Çünki texnologiyalar inkişaf edir, yeni nəzarət imkanları yaranır. Burada kölgə iqtisadiyyatı adlı mənfi faktor olmamalıdır, yaxud da minimuma endirilməlidir...".

Ölkə rəhbərinin bu sözlərindən ötən müddətdə respublikamızda həyata keçirilən uğurlu iqtisadi islahatlar, o cümlədən, nağd ödəmələrin məhdudlaşdırılması, vergi uçotundan yayınmaların aradan qaldırılması qeyri-formal məşğulluğun azaldılmasını və kölgə iqtisadiyyatına qarşı mübarizənin keyfiyyətcə yeni mərhələyə yüksəlməsini şərtləndirib. Nəticədə yazının əvvəlində xatırlatdığımız kimi, büdcəyə daxil olan vəsaitlərin həcmi əvvəlki dövrlə müqayisədə xeyli artıb. Şübhəsiz ki, bu istiqamətdə görülən işlərin daimi xarakter daşıması gələcəkdə büdcəyə qeyri-neft-qaz sektorundan daxilolmalarda milyardlarla manat artımın qeydə alınacağını indidən şərtləndirib.

İqtisadçı-ekspert Mirağa Əhmədovun sözlərinə görə, "kölgə iqtisadiyyatı"nın qarşısının alınması "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın əsas istiqamətlərdən biri kimi müəyyənləşdirilib. Bu isə mövcud sahədə yüksək nəticələrin əldə edilməsinə şərait yaradıb. Xüsusilə son dövrlərdə yeni əmək müqavilələrinin bağlanmasına xüsusi diqqət yetirilməsi "kölgə iqtisadiyyatı"nın ümumdaxili məhsuldakı payının azalmasına gətirib çıxarıb.

İqtisadçı-ekspert onu da vurğulayır ki, beynəlxalq səviyyədə vergidən yayınma hallarına qarşı mübarizə və vergi məsələləri üzrə beynəlxalq tərəfdaşlıq çərçivəsində ən mühüm sənədlərdən biri Azərbaycan Respublikasının tərəfdar olduğu "Vergi məsələləri üzrə qarşılıqlı inzibati yardım haqqında Konvensiya"dır. Ümumi Hesabatlılıq Standartı (CRS) əsasında maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi həmin Konvensiyanın alətlərindən biri hesab edilir.

Azərbaycanın 2013-cü ildə "Vergi məqsədləri üçün şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forum"a qoşulmaqla şəffaflıq və məlumat mübadiləsi üzrə beynəlxalq standartların tətbiqində və qiymətləndirmə prosesində iştirak etməsi öhdəliyini öz üzərinə götürüb. Ölkə üzrə standartın praktiki tətbiqi ilə bağlı 2021-ci ildə başlayan qiymətləndirmə isə artıq uğurla tamamlanıb.

## Qarabağda yol layihələri 2 ilə başa çatdırılacaq

**Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki avtomobil yolu layihələrinin icrası 2026-cı ilə qədər başa çatdırılacaq.**



Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) məlumatına görə, "İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına dair Tədbirlər Planında 2022-2026-cı illərdə 20 avtomobil yolu layihəsinin tikintisi ilə əlaqədar torpaq işlərinin yerinə yetirilməsi nəzərdə tutulub. Bu layihələrdən 7-nin tikintisi artıq başa çatıb, digərlərinin icrasının isə 2026-cı ilə qədər yekunlaşdırılması planlaşdırılıb.

Prezident İlham Əliyevin sərəncamına əsasən, cari ilin 5 ayı ərzində, ümumilikdə, 70,5 min nəfər əhalinin yaşadığı 68 yaşayış məntəqəsini birləşdirən 263,1 kilometr uzunluğa malik 10 kəndlərarası avtomobil yolu layihəsinin icrası həyata keçirilib. Bununla yanaşı, Bakı ərazisində də vətəndaşların rahat gediş-gəlişinin təmin olunması, eyni zamanda, nəqliyyat sıxlığının azaldılması məqsədilə tikinti və təmir işləri davam etdirilib.

## Ölkəmiz BMT-nin İqtisadi və Sosial Şurasına üzv seçilib



**BMT Baş Assambleyasında İqtisadi və Sosial Şuraya (ECOSOC) 2025-2027 dövrü üzrə keçirilən seçkilərdə ölkəmiz 148 səslə Şuranın üzvü olub.**

Qeyd edək ki, ECOSOC BMT və onun ixtisaslaşmış qurumlarının sosial-iqtisadi sahələrdə əməkdaşlığını koordinasiya edən başlıca orqanlardan biridir.

## "Bulla-dəniz" yatağı – 69,9 milyard kubmetr qaz



**Xəzərin Azərbaycan sektorunda yerləşən "Bulla-dəniz" yatağından 2024-cü il mayın 1-dək 69,9 milyard kubmetr qaz hasil olunub. Bu barədə məlumat Bakı Enerji Həftəsi çərçivəsində keçirilən "Caspian Oil&Gaz" neft-qaz sərgisi zamanı SOCAR tərəfindən verilib. Bildirilib ki, ötən müddətdə yataqdan 12,4 milyon ton neft (kondensatla birlikdə) çıxarılıb.**

Xatırladaq ki, "Bulla-dəniz" yatağı Bakı arxipelaqının şimal hissəsində, Ələt burnundan 22-23 kilometr, Bulla adasından isə 12-15 kilometr, "Səngəçal-dəniz–Duvannı-dəniz–Xərə Zirə adası" yatağından isə 10 kilometr cənub-şərqdə yerləşir. Burada dənizin dərinliyi 17 metrdən 30 metrə qədər, bəzi ərazilərdə isə daha cox dəyişir.

Bu yataq seysmik-kəşfiyyat işləri nəticəsində 1951-ci ildə aşkar edilib. Yatağın neftlilik-qazlılığı isə 1973-cü ildə qazılmış 18 saylı quyu vasitəsilə dəqiqləşdirilib. Həmin quyudan VII horizontun 5203-5190 metr hüdudlarından sınaq vaxtı orta gündəlik 200 ton kondensat və 1 milyon kubmetr qaz alınıb.

## Turist axını 35 faiz artıb



**Dövlət Turizm Agentliyinin yaydığı məlumatda bildirilir ki, cari ilin yanvar-may aylarında Azərbaycana 965 min 556 xarici vətəndaş (2023-cü ilin eyni dövrü ilə müqayisədə 35 faiz çox) səfər edib. Təkcə may ayında ölkəyə 239 min 272 nəfər (ötənilki göstəriciyə nisbətən 26 faiz çox) gəlib.**

Məlumata görə, may ayında respublikamıza ən çox turist 68,8 min nəfər olmaqla Rusiyadan gəlib. İkinci yerdə Türkiyə 37,5 min, Hindistan isə 29,7 min turist olmaqla ilk üçlükdə qərarlaşıb.

Bu dövrdə İrandan 19,4 min, Gürcüstandan 8,7 min, Qazaxıstandan 6,9 min, Səudiyyə Ərəbistanından 6,6 min, Pakistandan 5,8 min, Çindən 4,7 min, Özbəkistandan 3,9 min, İsraildən 3,3 min turist gəlib.

# Müasir suvarma sistemləri səmərəli məhsuldarlıq yaradır

**Azərbaycan ərazisi qlobal iqlim dəyişikliyinin təsirinə ən çox məruz qalanı ölkələrdən biridir. Son illər iqlim dəyişikliklərinin nəticəsi olan quraqlıq səbəbindən ölkəmizdə minlərlə hektar əkin sahələri, xüsusən də taxıl zəmiləri yanıb sıradan çıxır. Bu da məhsuldarlığın kəskin şəkildə aşağı düşməsinə gətirib çıxarır. Rəsmi statistikaya əsasən, Azərbaycanda 2020-ci ildə 68,6 min hektar, 2021-ci ildə 42,2 min hektar, 2022-ci ildə 101,4 min hektar, 2023-cü ildə isə 178,3 min hektar sahədə əkinlər quraqlıq səbəbindən tamamilə məhv olub. Bu isə müasir və qənaətli suvarma sistemlərinin tətbiqini son dərəcə aktuallaşdırır.**



Artıq Azərbaycan hökuməti bu məqsədlə növbəti dəstək mexanizmini işə salır. Belə ki, iyunun 5-də Nazirlər Kabineti ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürərək Kənd Təsərrüfatı Nazirliyi ilə müqavilə bağlamış sahibkarlıq subyektlərinə müasir suvarma sistemlərinin alınması üçün kredit təşkilatlarının öz vəsaitləri hesabına veriləcək kreditlər üzrə dövlət zəmanətinin verilməsi Qaydasını təsdiqləyib. Bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Yeni qaydanın tətbiqi müasir suvarma sisteminin alınmasına özəl bankların vəsaitlərinin cəlb olunmasına imkan verəcək. Belə ki, qaydaya uyğun olaraq sahibkarlıq subyektlərinə veriləcək 280 milyon manat kredit portfeli 168 milyon manat məbləğinədək dövlət zəmanəti ilə təmin ediləcək. Dövlət zəmanəti isə Maliyyə Nazirliyi ilə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi arasında bağlanılan "Ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürərək fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi barədə çərçivə zəmanət sazişi" əsasında veriləcək.

Xatırladaq ki, Maliyyə Nazirliyi "Dövlət borcu haqqında" Qanunun tələbləri nəzərə alınmaqla sahibkarlıq subyektlərinin dövlət zəmanəti verilmiş, lakin icra edilməmiş borc öhdəliyini dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun vəsaiti hesabına yerinə yetirməlidir. Yeri gəlmişkən, bu qaydaya uyğun olaraq verilən dövlət zəmanəti 2028-ci il yanvarın 1-dək dövlət zəmanəti verilərək bağlanılmış bütün kredit müqavilələrinə şamil ediləcək.

Aqrar Kredit və İnkişaf Agentliyi dövlət zəmanətindən istifadə edilməsi barədə Maliyyə Nazirliyinə rübdə bir dəfə hesabat verəcək. Hesabatın forması isə Maliyyə Nazirliyi tərəfindən təsdiq edəcək. Kredit təşkilatı tərəfindən istifadə edilməmiş limit agentliyin qərarı ilə azaldıla və ya ləğv edilə bilər. Dövlət zəmanəti verilmiş kredit vəsaitindən sahibkarlıq subyektləri yalnız təyinatına uyğun istifadə etməlidir. Dövlət zəmanəti üzrə öhdəliklərin icrası və bu öhdəliklərlə bağlı edilmiş ödənişlərin bərpası yeni qaydaya uyğun həyata keçirilməlidir.

Dövlət zəmanəti verilmiş kredit üzrə ödənişlərin gecikmə müddəti 120 günü keçdikdə kredit təşkilatının dövlət zəmanəti üzrə tələb hüququ yaranacaq. Tələb hüququ yarandığı gündən etibarən 60 gün müddətində qüvvədə olacaq. Bu müddətdə kredit təşkilatı ödəniş tələbini bu qaydada göstərilən sənədlərlə birlikdə irəli sürmədikdə zəmanət qüvvədən düşmüş hesab olunacaq.

Bununla yanaşı, dövlət tərəfindən bu istiqamətdə fermerlərə digər dəstək tədbirləri üzərində də iş aparılır. Belə ki, yaxın vaxtlardan başlayaraq quraqlıq risklərinin aqrar sığorta paketinə daxil edilməsi nəzərdə tutulur ki, bu da fermerləri gözlənilən ziyandan qorumaq baxımından diqqət çəkir. Bu məqsədlə hazırda İsveçrə və Türkiyə ilə təcrübə mübadiləsi aparılır. Eyni zamanda, ölkədə yağıntıların qeyri-bərabər paylanması ilə əlaqədar indeks əsaslı quraqlıq sığortasının tətbiqi istiqamətində araşdırmalar davam etdirilir.

Bütün bunlara baxmayaraq, heç bir sığorta ödənişi gözlənilən məhsuldarlığı kompensasiya edə bilməz. Məhz bu səbəbdən dövlət quraqlığın mənfi nəticəsi olan məhsuldarlığın azalmasının qarşısını almaq məqsədilə subsidiya mexanizmindən istifadənin genişləndirilməsinə xüsusi diqqət göstərir. Yeri gəlmişkən, Prezident İlham Əliyevin 2022-ci ilin iyulunda imzaladığı fərmanla pivot suvarma sisteminin tətbiqi ilə keyfiyyətli ərzaqlıq buğda istehsal edən fermerlərə hər tona görə stimullaşdırıcı subsidiya müəyyən edilib. Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Subsidiya Şurasının qərarı ilə 2024-cü il üzrə bu subsidiyanın həcmi 100 manat olaraq müəyyənləşdirilib.

Aqrar sektora ayrılmış subsidiyalar isə öz növbəsində fermerə lazımi anda bir sıra zəruri texnikanı almağa kömək edir. Təkcə onu qeyd etmək kifayətdir ki, son 5 ildə Kənd Təsərrüfatı Nazirliyinin xətti ilə 38,2 min hektar ərazidə suvarma sistemlərinin qurulmasına 93,3 milyon manat subsidiya ayrılıb. Bütövlükdə isə, 2023-cü ildə Azərbaycanda 1,5 milyon hektarlıq ümumi əkin sahələrinin cəmi 119 min hektarını müasir suvarma sistemi olan sahələr təşkil edib. Bununla yanaşı, 60 min hektarda pivot suvarma sistemləri və damcılı sistem tətbiq olunur. Mütəxəssislərin fikrincə, müasir suvarma sistemi və texnologiyaların tətbiqi ilə Azərbaycanda ərzaqlıq buğda təminatını ərzaq təhlükəsizliyini təmin edəcək səviyyəyə çatdırmaq mümkündür.

Bir məqamı da diqqətə çatdıraq ki, Azərbaycanda son illər müasir suvarma sistemləri tətbiq edilən təsərrüfatlarda məhsuldarlığın iki dəfəyə yaxın artdığı, sərf edilən suyun isə 2,5 dəfə azaldığı müşahidə edilir. Bunun son dərəcə yaxşı göstərici olduğunu bildirən kənd təsərrüfatı mütəxəssisləri deyirlər ki, hər bir fermer müasir suvarma üsullarının tətbiqi ilə sudan qənaətlə istifadə etməklə fəaliyyətini yüksək səviyyədə qurmalı, su və torpaq resurslarını qorumalıdır. Selləmə suvarmanın torpaqda şoranlaşma yaratmaqla məhsuldarlığın kəskin şəkildə azalmasına səbəb olduğunu vurğulayan mütəxəssislərin fikrincə, ölkədə müasir suvarma sistemlərindən istifadə gücləndirilməlidir.

Kənd təsərrüfatı nazirinin müavini Sərvan Cəfərov bildirib ki, subsidiyalarla yanaşı, müasir suvarma sistemlərinin tətbiq edildiyi təsərrüfatlarda ərzaqlıq buğda istehsalı, elecə də bu konteksdə pivot suvarma sistemlərinin qurulması ilə bağlı əhəmiyyətli güzəştlər nəzərdə tutulub və hazırda bu proqram uğurla davam etdirilir. Onun sözlərinə görə, hazırda ölkəmizdə müasir suvarma sistemlərinin tətbiqinin stimullaşdırılması məqsədilə fiziki və hüquqi şəxslərə lizinqə verilən və ya lizinq yolu ilə satılan suvarma sistemləri dəstinə və avadanlığına onların ilkin dəyərinin 40 faizi qədər güzəşt tətbiq edilir.

*Hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

**"Xalq qəzeti" – 105**

**Milli mətbuatımızın atası böyük Həsən bəy Zərdabinin maarifçilik və xalqçılıq ənənələri üzərində yüksələn anadilli jurnalistikamız sonrakı bütün dövrlərdə türkçülük məfkurəsinə sədaqətini açıq və gizli formalarda yaşatmış, milli dövlətçilik yaddaşının qorunmasında və dirçəldilməsində bu mövzuya zəruri təməl elementi kimi istinad etmişdir.**

# Milli mətbu avanqard: istiqlal məfkurəsinin açıq və gizli qatları

Tədqiqatçıların da qeyd etdiyi kimi, hələ XX əsrin əvvəllərində yeni inkişaf mərhələsinə qədəm qoymuş milli mətbuatımız ictimai-mədəni fikrin istiqamətini, məslək mübarizəsini əks etdirməklə tərəqqi, təkamül amilinə çevrilmişdir. Dövrün ədib, şair, ictimai xadim və jurnalistləri məhz mətbuatın köməyi ilə "türkçülük, islamçılıq, müasirlik" prinsiplərinə söykənərək cəmiyyətdə azərbaycançılıq düşüncəsini formalaşdırmış, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin timsalında milli istiqlalın ictimai ruporu olmuşdur.

Lakin xalqın ictimai fikir lokomotivi və tarixi salnaməsi olan mətbuatın özü də 1920-ci ilin bolşevik işğalından sonra müstəqilliyini itirmiş məmləkətin taleyini yaşamışdır. Müəyyən tarixi dövrlərdə istiqlalçı ziyalılara arxalanaraq tarixi reallıqlara işıq tutan mətbuat, uzun illər qadağa və təqiblərə də məruz qalmış, təkcə taleyinə yazılan ağır repressiyalar ilə üz-üzə dayanmamışdır. Təsadüfi deyil ki, ölkənin baş mətuat orqanı "Kommunist"ə 1937-ci ilədək rəhbərlik etmiş redaktorlar millətçilik damğası ilə repressiya qurbanı olmuşdur. Bu reallıqları əsas tutaraq xalqımızın mübarizə tarixində, xüsusən də dövlətçilik və türkçülük məfkurəsinin formalaşmasında mətbuatın rolunu dəyərləndirməkdə 105 illik bir yol keçmiş gündəlik anadili ictimai-siyasi nəşrin – "Xalq qəzeti"nin mətbu irsi zəngin və misilsiz bir mənbədir.

Təəssüflər olsun ki, ən yaxın tariximizdə belə bu məsələyə, xüsusən də "Xalq qəzeti"nin timsalında tələsik və qeyri-obyektiv bir mövqe sərgilənmişdir. Ola bilsin ki, "kommunist" adının cəmiyyətdə doğurduğu ikrah, rejimin qadağaları bu barədə obyektiv fikirləri ortaya qoymaqdan çəkindirmiş, eyni zamanda, bu sahədə yaranan fikir plüralizminin ortaya atılmasının qarşısı alınmışdır. Amma, əslində, redaksiyanın nə bugünkü kollektivi, nə də vaxtı ilə "Kommunist" qəzetində çalışan əməkdaşları (şükürlər olsun ki, onların bir qismi həyatdadır) da bu fikrin tərəfdarı olmamışlar. Ən azı ona görə ki, "Xalq qəzeti" hələ 1991-ci ildə ad dəyişikliyi ilə nəşrə başlayanda kimin adını dəyişdirdikləri və niyə dəyişdirdikləri tariximizin uzaq bir keçmişi deyildir.

Əslində, burada da Azərbaycan Xalq Cümhuriyyətinin süqutu sonrası baş verənlər tamamilə başqa bir biçimdə özünü təsdiqləmişdi. 1919-cu il avqustun 29-da "Kommunist" adı ilə dərc olunmuş 1 bülletenlə başlayan bu tarixin izlərini əlimizdə olan sənəd və mənbələr, həm də tədqiqatçıların qənaətləri əsasında araşdırmaq yerinə düşər.

"Kommunist" qəzetinin ilk nömrəsi 1919-cu il avqustun 29-da, cümə günü bolşeviklər partiyasının gizli mətbəəsində çap olunmuşdu. Kommunist rəhbərlər, "Azərbaycan" qəzetini "Kommunist"ləşdirməkdə müstəsna rol oynamış "Əliheydər – Ruhulla" tandemi əllərində ciddi bir fakt olmasa da, bunu dəfələrlə vurğulamış, hətta 1929-cu ildə həmin tarixi rəsmiləşdirərək "Kommunist" qəzetinin 10 illik yubileyini təntənə ilə qeyd etməklə öz "xidmətlərini" tarixə yazmışlar. Bir çox mənbələrin təqdim etdiyi kimi bu nömrə, demək olar ki, bütünlüklə dünya inqilabı məsələlərinə həsr olunub. Ona görə "bir çox mənbələrin təqdim etdiyi" fikri ortaya qoyuruq ki, nəşrin bu sayı əldə olmadığından daha çox yazılanlara istinad edilməkdədir. Həqiqətdə isə dövlət qəzeti kimi "Kommunist"in ilk nömrəsi 1920-ci il aprelin 30-da çıxmışdı.

"Kommunist" qəzetinin ilk nömrəsinin kimin tərəfindən imzalandığı və redaktorunun kimliyi barəsində bəzi fikir ayrılıqları da qalmaqdadır. Tədqiqatçı E. Məhərrəmov və A.Məhərrəmli "Xalq qəzeti"nin ("Kommunist") yaranması və inkişafı tarixindən. Nəşrinin 90 illiyi münasibətilə" kitabında (2009) "Kommunist" qəzetinin tədqiqatçısı C.Məhərrəmli hesab edir ki, qəzetin redaktoru Ə.H.Qarayev olmuşdur, amma bu halda fikrini təsdiqləyən hər hansı bir dəlilə istinad etmir. Azərbaycan Sovet Ensiklopediyasının I və III cildlərində, 1985-ci ildə nəşr edilmiş "Azərbaycan Kommunist Partiyasının tarixi oçerkləri"ndə, Ruhulla Axundovun "Seçilmiş əsərləri"nin 1977-ci il nəşrində, "Kommunist" qəzetinin 1969-cu ildə işıq üzü görmüş "Kommunist-50" yubiley nəşrində, AMEA-nın müxbir üzvü Qaraş Mədətovun 1983-cü ildə nəşr edilmiş "Ruhulla Axundov" kitabında və s. əsərlərdə göstərilir ki, "Kommunist" qəzetinin həmin sayının redaktoru Ruhulla Axundov olmuşdur. Tədqiqatçı E. Məhərrəmov "Kommunist" qəzeti və Azərbaycan SSR kənd təsərrüfatının bərpa məsələləri (1921–1928-ci illər)" monoqrafiyasında təsdiqləyir: qəzetin ilk və sonrakı nömrələrini müqayisə etdikdə, redaktə stilinə diqqət yetirdikdə bu nəticəyə gəlmək olur ki, qəzetin ilk redaktoru Ruhulla Axundov olmuşdur.

Qəzetin müntəzəm nəşrinə 1920-ci il aprelin 30-dan başlanılır. Rusiya Azərbaycan Cümhuriyyətini işğal etdikdən sonra bolşeviklər "Azərbaycan" qəzetinin Kolyubakinski, 37 (indiki N.Rəfibəyli küçəsi) ünvanda yerləşən redaksiya və mətbəəsini tutub, onu "Revkomun mətbəəsi" (İnqilab Komitəsinin mətbəəsi) adlandırdılar. Türkcə "Azərbaycan" və rusca "Azerbaydjan" qəzetlərinin nəşri dayandırıldı, onların əvəzində əvvəlcə türkcə, 1920-ci il mayın 1-dən isə həm də rusca "Kommunist" qəzetlərinin nəşrinə başlanıldı. Bununla da Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi nəşri olan "Azərbaycan" qəzetinin bu adla fəaliyyətinə son qoyuldu.

Dəyişənsə qəzetinin redaktoru Üzeyir Hacıbəyli, qəzetin adı və kommunist təbliğatına səfərbər edilən ideya istiqaməti idi. Hətta arxiv nüsxələrini belə müqayisə edəndə nə tərtibat işində, nə də texniki amillərdə fərqlər bələ görünmür. Əslində, "köhnə redaksiya"nın əməkdaşları yerində qalmış, "Azərbaycan"ın əməkdaşları olan müəlliflər fəaliyyətlərini "Komminist"də davam etdirmiş və sonralar tədricən vəzifələrindən ya könüllü, ya da məcburən azad edilmişlər.

Qəzetdə tərcüməçilər Əbdürrəhim bəy Haqverdiyev, Cəfər Cabbarlı, Seyid Hüseyn Sadıqzadə, Seyid Cəfər Cavadzadə (Pişəvəri), eləcə də digər əməkdaşlar – Xəlil İbrahim, A.Ağakişiyev, Bağır Hacızadə, Əhməd Hacınski, A.H.Dadaşov, Y.Yusifzadə, Cavad Cavadlı, Əliağa Əlizadə, M.H.Mirmövsümov, Şövkət Məmmədov, Ə.P. Hüseynzadə, T. Məlikov, Hacı Səlim Səyyah Qasımzadə, Fərhad Ağazadə, Qədir Heydərov, Əziz Nuri, Musa Şəmsəddinski, Əsəd Tahirov, Sergey İnqulov və başqaları da çalışırdı. Əbdürrəhim bəy Haqverdiyev, Cəfər Cabbarlı, Məmməd Səid Ordubadi, Böyükağa Talıblı, Hənifə Zeynallı, Vəli Xuluflu, Salman Mümtaz, Almaz İldırım, Əziz Şərif, Qulam Məmmədli, Əfrasiyab Bədəlbəyli, Xudadad bəy Əzizbəyov və başqaları indi də "Kommunist" qəzetinin əməkdaşları idilər.

"Kommunist"in səhifələrində tanınmış şair və yazıçıların, publisistlərin yazılarının dərc olunması, eləcə də qəzetin əməkdaşı olan milli ruhlu jurnalist və publisistlərin fəaliyyətlərini də nəzərə alsaq, istər-istəməz belə bir nəticəyə gələ bilərik ki, Azərbaycan ədəbiyyatının və ziyalılarının tanınmış xadimləri, hər cür qadağa və təqiblərə baxmayaraq, bu qəzetin ətrafında birləşərək, onu Cənubi Qafqazın mötəbər nəşri kimi tanıda bildilər. "Kommunist" çox qısa bir zamanda ilk vaxtlar həm respublika rəhbərliyində, həm də yerlərdə "aparıcı qəzet" kimi üstünlük verilən, bir nömrəli qəzet kimi tanınan "Bakinskiy paboçiy"dən bu estafeti almış oldu.

Qəzetlə yaxından əməkdaşlıq edən Nəriman Nərimanov, Qəzənfər Musabəyov, Həmid Sultanov, Tağı Şahbazi (Simurğ), Əliəkbər Heydərli, Zinətulla Nuşirəvanov, Hacıbaba Nəzərli, Əli Nazim, Cahangir Nağıyev, Mahmud Xanbudaqov, Əyyub Xanbudaqov, Mustafa Quliyev, Rzaqulu Nəcəfov, Müseyib Şahbazov, Ənvər Qasımzadə və başqaları dövrlərinin mötəbər dövlət xadimləri idilər. Azərbaycan ziyalılarının görkəmli nümayəndələri – Hüseyn Cavid, Üzeyir bəy Hacıbəyov, Mirzə Cəlil Məmmədquluzadə, Bəkir Çobanzadə, Salman Mümtaz Əsgərov, Əhməd Rəcəbli, Ömər Faiq Nemanzadə, Əliağa Vahid, Əliabbas Müznib Mütəllibzadə çox ciddi təqiblərə məruz qalsalar da, "Kommunist" qəzeti ilə əməkdaşlıqdan çəkinməmişlər.

Heç şübhəsiz, bunun nəticəsi idi ki, qəzetin fəaliyyəti dəfələrlə kommunist rəhbərlərin mötəbər iclaslarında müzakirə edilmiş, hətta "qəzetdəki millətçilik yuvası"nın dağıdılması partiya sənədlərində və yekdilliklə qəbul edilmiş qərarlarda birmənalı olaraq əksini tapmışdı. Bir faktı xüsusi vurğulamağa ehtiyac var ki, 20-ci illərin əvvəllərində "Kommunist" qəzetinin fəaliyyətinin ilk 2 ilində 8 dəfə redaktor dəyişikliyi edilmişdir. Bunun bir səbəbi yüksək dairələrdə mövcud olan intriqalarla bağlı idisə, digər önəmli bir səbəbi qəzetin kommunist ideallarının təbliğatçısı olduğu kimi, həm də uzun illərdən bəri formalaşmış bu milli tamayüldən də uzaq dayanmamaqla bağlı olmuşdur.

Yalançı milli suverenlik şüarları altında dövlət müstəqilliyinə son qoyulması, passiv də olsa, qəzetdə etirazla qarşılanmış, kommunist rəhbərlik isə belə müəllifləri sərt cəzalandırmışdı. İlk illərdə "qəzetdə millətçilik yuvası"nın mövcudluğu ilə bağlı bir neçə dəfə partiya qərarı da qəbul edilmişdi. Göründüyü kimi, redaktorlar tez-tez dəyişdirilsə də redaksiyadakı milli təmayülü yox etmək mümkün olmamışdı.

Təkcə sovet dövrünün tədqiqatlarında yox, hətta həm də müstəqillik dövrünün elmi araşdırmalarında da göstərilir ki, 1921–1928-ci illərdə ölkəmizin xalq təsərrüfatının bərpası üzrə bir çox məsələlərin həllində, iqtisadiyyat məsələlərinin təbliğində AK(b)P MK və BK-nın orqanı olan "Kommunist" qəzeti az rol oynamamışdır. Yarandığı ilk gündən gərgin vəziyyətdə ölkədə qalmış vətənpərvər əhvali-ruhiyyəli ziyalıları ətrafında cəmləşdirən "Kommunist" xalq təsərrüfatının bərpa və inkişaf etdirilməsi, dövlət orqanlarının və mətbuatın nüfuzunun yüksəldilməsi uğrunda yorulmadan çalışmışdır. Təbii ki, öz dövrü üçün birinci rəsmi partiya və dövlət qəzeti olan "Kommunist" kütlənin siyasi və mənəvi tərbiyəçisi kimi fəaliyyət göstərirdi. Qəzet həmişə tarixi hadisələrin mərkəzində olmuş, respublikanın gündəlik həyatında baş verən bütün məsələlərin həllində siyasi rəhbərliyin mühüm təbliğat vasitəsi olmuşdur. Bir məsələni unutmaq olmaz ki, bu qəzet orqanı olduğu rəhbər təşkilatın siyasətini yerinə yetirməyə borclu idi, onun vəsaiti ilə nəşr olunurdu, amma bununla belə o milli təəssübkeşliyini heç vaxt unutmamış və həmişə bunun cəzasını çəkmişdir.

Nəhayət, Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra 70 ildən çox "Kommunist" adı ilə nəşr edilən mötəbər bir nəşrin "Xalq qəzeti" adlandırılması – yəni ad dəyişikliyini yeni müstəqilliyimizi qazananda gördük. Tarixi sənədlərdən də göründüyü kimi, o dövrdə Azərbaycanın birinci müstəqilliyi Rusiya kommunist-bolşevik hakimiyyəti tərəfindən devrilərkən "Azərbaycan" qəzetinin də binası tutulmuş, giriş qapısındakı lövhəni dəyişməklə nəşrin adını da dəyişərək "Kommunist" adlandırmışdılar. Bu zahiri oxşarlığı 1991-ci ilin avqustunda da görməkdəyik, amma bir az başqa bir şəkildə. Bu dəfə artıq yeni müstəqilliyinə sahiblənən Azərbaycanın uğurlarına sevinənlər sırasında "Kommunist" qəzetinin də kollektivi var idi, hətta fəaliyyətini bir müddət dayandıran qəzetin əməkdaşları "kommunist" adından imtinanı da özləri gündəmə gətirmişdilər. Əslində, 20 Yanvar hadisələri dövründə "Səhər" nəşrinin çapına nail olan kollektiv Azərbaycan KP MK, Ali Sovet və Nazirlər Sovetinin orqanı olduğundan təsisçilikdən imtina edə bilməmiş və bu adla nəşrini davam etdirmişdi. Təbii ki, bu, o dövrdə də, hətta sonralar da cəmiyyətdə müəyyən dalğalanmalar yaratmış və hətta, az qala, kommunist rejimin Azərbaycanda ən böyük dayağının "Kommunist" qəzetinin olduğu belə vurğulanmışdır. Amma nə yaxşı ki, Azərbaycan xalqının önəmli bir tarixi dövründə Azərbaycan dövlətini və onun yeni müstəqilliyini məhvdən qurtaran ulu öndər Heydər Əliyevin qəzet haqqında dedikləri bu kimi fikirlərdən çoxlarını daşındırmışdı.




Diqqət edək, Heydər Əliyev bu fikirlərini nə vaxt deyirdi?! Bu günümüz üçün o qədər də uzaq olmayan bir tarixdi bu: 1994-cü il 26 avqust. Bu, o gün idi ki, "Kommunist"in varisi olan "Xalq qəzeti" 75 yaşını bayram edirdi və ölkə Prezidenti Heydər Əliyev "Xalq qəzeti"nin redaksiyasına göndərdiyi rəsmi məktubla redaksiya əməkdaşlarını və qəzetin yubileyini təbrik edirdi. Bu məktubda önəm daşıyan təkcə bu fakt deyil, həm də kommunist rejimi dövründə nəşr edilən bir mətbuat orqanının fəaliyyəti olduqca ədalətli bir şəkildə dəyərləndirilir və qəzetin şoxillik fəaliyyətinə olduqca yüksək qiymət verilir: Respublikada qəzetçilik ənənələrinin formalaşmasında, jurnalistikamızın inkişafında "Xalq qəzeti"nin xidmətləri xüsusi qeyd olunmalıdır. Bugünkü çoxsəsli, rəngarəng Azərbaycan mətbuatının bir çox görkəmli nümayəndələri bu qəzetin yaradıcılıq məktəbini keçmişlər. Müstəqilliyimizin qazanılmasından sonra da "Xalq qəzeti" respublikamızın ictimai həyatında baş verən hadisələrə cəsarətlə müdaxilə etmiş, bir çox problemlərin aşkarlanmasında mühüm rol oynamışdır.

Təbii ki, Ulu öndərin bu yanaşmasında sonra əldə olan bəzi faktları, deyək ki, "Kommunist"in uzun illər fəaliyyət göstərdiyi binanın da varisinin "Xalq qəzeti"nin olması günümüzün də yaşanan faktlarından olduğunu söyləyir. Amma bəzi sübyektiv amillərdən qaynaqlanan və həqiqi meyarlar ilə üst-üstə düşməyən subyektiv faktlardan da əl götürməyin vaxtı yetişib.

Həm də ona görə ki, mətbuat tariximizin dəyərli bir nümunəsi və milli tariximizin salnaməsi olan bir mətbuat orqanının doğru-dürüst taleyi, o cümlədən şərəfli bir keçmişinin müəmma və uydurmalar girdabında qalmasını, onunla bağlı olan və qətiyyən dürüst olmayan məlumatların gələcəyə daşınmasına icazə verməməliyik. Bu, bizim təəssübkeşliyimizdən çox tariximizə olan dəyər və sayğının ifadəsi kimi qiymətləndirilməlidir.

***Namiq QƏDİMOĞLU***
***XQ***

# Borçalı məktəblərində ana dili müsabiqəsi

**Gürcüstanda fəaliyyət göstərən azərbaycandilli məktəblərdə "Ana dilimiz varlığımızdır" mövzusunda inşa yazı müsabiqəsi keçirilib.**

Borçalı torpağında Azərbaycan dilində nəşr olunan "Maarif" qəzetinin baş redaktoru və "Gürcüstan Maarif Təşkilatı"nın rəhbəri Ələddin Qarabağlının təşəbbüsü, Marneulideki "Azərbaycan Evi"nin dəstəyi ilə təşkil edilən şagird yaradıcılığı aksiyası Nyu-York Akademiyasının üzvü olmuş dilçi alim Mədəd Çobanovun xatirəsinə həsr edilib.

"Azərbaycan Evi"ndə müsabiqənin qaliblərinin elan olunması mərasimində çıxış edən "Azərbaycan Evi"nin direktoru Məhəbbət İmanov professor Mədəd Çobanovun ana dilimizə sevgisindən və onun tədqiqi sahəsində göstərdiyi xidmətlərdən söz açıb. O bildirib ki, belə bir müsabiqənin keçirilməsində məqsəd Borçalının yeni nəslini ana dilimizi daha yaxşı öyrənməyə, Mədəd müəllim kimi yurda möhkəm bağlı olmağa həvəsləndirməkdir.






Ələddin Qarabağlı isə deyib ki, Gürcüstanda Azərbaycan dilində fəaliyyət göstərən 116 məktəbdən 88-i sırf Azərbaycandilli məktəbdir. Sevindiricidir ki, şagirdlər ana dilimizin zənginliklərindən bacarıqla istifadə ediblər. Belə müsabiqələr davamlı olacaq.

Gürcüstan Azərbaycanlıları Konqresinin sədri Hüseyn Yusifov, yazıçı-publisist Əli Abbas, müəllimlərdən Qazax Abdullayev, Fatma Əliyeva, Abayat Qurbanova, Esmira Ələkbərli, Gürcüstanın Əməkdar müəllimi İslam Məmmədov və başqaları Mədəd Çobanov Azərbaycan dilinin öyrənilməsi və təbliği, inkişafı istiqamətində gördüyü işlərdən danışıb, yazdığı dərslik və kitabların ana dilimizin öyrənilməsində mühüm rol oynadığını bildiriblər.

Sonda qaliblərə qiymətli hədiyyələr, diplom və sertifikatlar təqdim olunub.

***Paşa ƏMİRCANOV***
***XQ***

İstiqlal tariximizin ağ ləkələri

# Cümhuriyyət naziri Behbud xan Cavanşirin faciəli taleyi

**Azərbaycan Xalq Cümhuriyyəti irsinin əhatəli araşdırıcısı, tarix elmləri doktoru, professor Nəsiman Yaqublu Milli Hökümətin daxili işlər naziri Behbud xan Cavanşir barədə indiyədək məlum olmayan dəyərli materialları aşkara çıxarıb. Tədqiqatçı ilə söhbətimiz bu barədədir:**

***– Nəsiman müəllim, AXC (Azərbaycan Xalq Cümhuriyyəti) liderlərinin əksəriyyəti kimi, Behbud xan Cavanşirin də kimliyi Sovet zamanında xalqdan gizli saxlanıb. Qatı erməni millətçilərinin terror yolu ilə aradan götürdüyü bu cümhuriyyətçi nazirin ötən illərin qaranlığına qarışmış ömür yoluna saldığınız işıq çox mətləbləri üzə çıxarıb.***



– Azərbaycanın görkəmli dövlət xadimi Behbud xan Cavanşir Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın nəticəsi Azad xanın oğludur. O, 1877-ci ildə Tərtər qəzasının Azad Qaraqoyunlu kəndində anadan olmuşdur. Çar Rusiyası XIX əsrin əvvəllərində Qarabağ xanlığını işğal etdikdən və İbrahim xanın nəslindən olanlara bədxah münasibət göstərdiyindən onların Şuşada yaşaması qeyri-mümkün olmuşdu.

Behbud xan Cavanşir 1890-cı ildə Tiflisdə alman dili təmayüllü realnı məktəbə daxil olmuşdur. Burada o, sonradan 26 Bakı komissarlarına başçılıq etmiş, 1918-ci ilin 31 mart soyqırımında dinc müsəlman əhaliyə qarşı soyqırımı törətmiş S.Şaumyanla 8 il bir yerdə oxumuşdur. Behbud Tiflisdə təhsilini başa vurduqdan sonra Almaniyanın Freyburq şəhərinə getmişdir. O, burada dünyada ilk ali-texniki məktəb sayılan Dağ-Mədən Akademiyasında təhsil almışdır. Qeyd edək ki, o, bu akademiyanın ilk azərbaycanlı məzunu sayılır.

Almaniyada təhsilini bitirdikdən sonra B.Cavanşir İngiltərəyə – Londona getmiş, burada ingilis dilində təkmilləşdirmə kursları keçdikdən sonra 1907-ci ildə Bakıya qayıtmışdır.

Mükəmməl təhsil alan B.Cavanşirin alman, ingilis, fransız, rus, gürcü və erməni dillərini bilməsi haqqında məlumatlar vardır.

B.Cavanşir Bakıya qayıtdıqdan sonra Şibayevin neft mədənlərində işləmişdir. O, bu dövrdə ictimai fəaliyyətə də başlamışdır. Milyonçu H.Z.Tağıyevin başçılıq etdiyi Müsəlman Xeyriyyə Cəmiyyətinin rəhbərliyinə seçilmiş, Rusiyada və Avropada təhsil alan bir neçə azərbaycanlı gəncə təqaüd vermiş, bəzi qəzetlərə də yardımlar etmişdir.

Neft sənayeçiləri arasında yaxşı tanınan Behbud xan dəfələrlə onların qurultaylarının icraiyyə komitəsinin sədri seçilmişdir.

O, 1917-ci ilin Fevral-burjua inqilabından sonra yaradılan Milli Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin üzvü olmuşdur.

***– Şübhəsiz Behbud xanın ictimai-siyasi fəaliyyətinin ən önəmli səhifəsi onun Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətində 2 dəfə nazir olmasıdır...***

– 1918-ci ildə Bakıda baş verən Mart soyqırımının qarşısının alınmasında B.Cavanşir böyük səylər göstərmiş, barışıq komitəsinin üzvü olmuşdur. B.Cavanşir 1918-ci ilin iyunun 17-də Fətəli xan Xoyskinin yaratdığı hökumət kabinəsində daxili işlər naziri vəzifəsini icra etmişdir. O, bu sahədə də ciddi işlər görmüşdür. Həmin dövrdə onun təşəbbüsü ilə neft mədənlərini mühafizə edən Bakı şəhər polisinin maaşları neftdən gələn gəlirin 3 faizi hesabına ödənilirdi. B. Cavanşir Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri olarkən ölkədə vəziyyət çox ağır idi. O dövrdə Azərbaycan hökuməti Gəncədə yerləşirdi və Bakıya daxil olmaq qeyri-mümkün idi. Gəncədə yerləşən Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa ilə ağır danışıqlar gedirdi. Azərbaycanın istiqlalı, M.Ə.Rəsulzadənin fikrincə, sözdə elan edilsə də, onu reallaşdırmaq imkanı çox mürəkkəb idi. Əsas hədəflərdən biri Bakının alınması və hökumətin orada fəaliyyətə başlaması idi.

Belə vəziyyətdə ölkədə ictimai asayişi qorumaq, qayda-qanun, intizam yaratmaq tələb olunurdu. Bu gerçəkliyi əsas götürən F.Xoyski hökuməti ciddi qərar qəbul etmək məcburiyyətində qalmışdı. 1918-ci ilin iyunun 23-də Nazirlər Şurasının sədri F.Xoyskinin və daxili işlər naziri B.Cavanşirin imzaladığı qərarla ölkədə hərbi vəziyyət elan edilmişdi. B.Cavanşir Nuru Paşa ilə razılaşma əsasında bu qərarı həyata keçirmək məcburiyyətində idi.

1918-ci ilin sentyabrın 15-də Qafqaz İslam Ordusu Bakını azad edəndə B.Cavanşir qısa müddətdə şəhərdə qayda-qanun yaradılması, ictimai asayişin qorunması üçün mühüm tədbirlər gördü. 1918-ci ilin sentyabrın 18-dən Azərbaycan hökuməti Bakıda fəaliyyətə başladı. B.Cavanşirin başçılıq etdiyi Daxili İşlər Nazirliyi "Metropol" mehmanxanasında (indiki Nizami adına Ədəbiyyat Muzeyi) yerləşirdi. O, İçərişəhərdə polis müdavimləri hazırlayan məktəb açdırdı. Burada 1200-ə qədər müdavimin təhsil alacağı nəzərdə tutulurdu.

Behbud xan Cavanşir II Hökumət kabinəsində bitərəf olaraq daxili işlər naziri vəzifəsində 1918-ci ilin oktyabrın 6-na qədər çalışmaqla yanaşı, ticarət, sənaye naziri olaraq da fəaliyyət göstərmişdir. Yəni "əslində" 2 nazirliyin işini o, 1918-ci ilin 26 dekabrına qədər yerinə yetirmişdir. B.Cavanşir bu vəzifələrdə olarkən Azərbaycan üçün ciddi əhəmiyyət daşıyan sənədlərə imza atmışdır.

1918-ci ilin noyabrın 28-də Azərbaycan Cümhuriyyəti hökuməti ilə Şimali Qafqazın Dağlı Xalqları İttifaqı Respublikası arasında tarixi müqavilə bağlandı. Həmin sənədi Azərbaycan hökuməti adından ticarət və sənaye naziri Behbud xan Cavanşir və maliyyə naziri Məhəmməd Həsən Hacınski, Dağlı Xalqları Respublikası tərəfdən Bahadur bəy Molaçixan və İbrahim bəy Heydərov imzalamışdılar.

B.Cavanşir öz fəaliyyətində Azərbaycan Cümhuriyyətinin qonşu dövlətlərlə ticarət və sənaye sahəsindəki əlaqələrinə böyük diqqət yetirirdi. Onun ticarət və sənaye naziri olduğu dövrdə Azərbaycan və Gürcüstan arasında 1918-ci ilin dekabr ayının 26-da çox əhəmiyyətli müqavilə imzalandı. Həmin müqaviləni Azərbaycan hökuməti tərəfindən Behbud xan Cavanşir, Gürcüstan hökuməti adından isə Azərbaycanda Gürcüstanın diplomatik nümayəndəsi Nikolay Karcivadze imzalamışdılar.

***– Behbud xan Cavanşirin Azərbaycan parlamentindəki çıxışları və mövqeyi də milli hökümətin möhkəmlənməsinə xidmət edirdi.***

– 1918-ci ilin dekabrın 7-də Azərbaycan Parlamenti fəaliyyətə başlayırdı. B.Cavanşir də parlamentin üzvü oldu. O, parlamentdə bitərəflər fraksiyasında təmsil olunurdu. 1919-cu ilin oktyabrında həmin fraksiyada parçalanma olduğundan Behbud xan Cavanşir, Bəhram Axundov və Əbdüləli bəy Əmircanov müstəqil bitərəflər qrupu yaratdılar.

B. Cavanşirin parlamentdəki çıxışlarına ən çox 1919-cu ildəki iclaslarda rast gəlmək mümkündür. Onun 1919-cu ilin 18 oktyabrında parlamentin 85-ci iclasında səsləndirdiyi fikirlər çox önəmlidir.

"Gömrük idarələrindən alınan vergilər barəsində", maliyyə naziri hüququnun genişləndirilməsi haqqında" məsələnin müzakirəsi zamanı B.Cavanşir müvafiq izahdan sonra fikrini belə yekunlaşdırdı: "idxalata gömrük qoyulmasın ki, mal ucuz olsun və camaat ondan faydalansın".

1919-cu ilin noyabrın 10-da Azərbaycan Parlamentinin 96-cı iclası keçirildi. Dinlənilən məsələlərdən biri də "Etimadnamə Komissiyasının məruzəsi"idi. Təklif səsə qoyulsa da, qəbul olunmadı. Belə olduqda B.Cavanşir çıxış edərək dedi ki, parlamentə üzvün ya xalq, ya da yerli komitələr tərəfindən seçilməsi aydınlaşmalıdır ki, əziyyət çəkilməsin.

Parlamentin 1919-cu ilin 27 noyabrında keçirilən 101-ci iclasında 600 milyonluq "emissiya məsələsi" ilə bağlı müzakirənin davamında B.Cavanşir ölkənin idarə olunması üçün təcrübəli adamların önə çəkilməsini əsas sayaraq, vurğuladı: "Məmləkətin xəzinəsini saxlamaq bir şəxsin öz evini saxlaması kimidir". B.Cavanşir çıxışında ölkəyə müxtəlif səbəblərdən gəlib məskunlaşmış insanlardan, onların dövlətə fayda verməsinin vacibliyindən danışırdı: "Vaxta ki siz bizim içimizdə olursunuz, bolşevikdən, menşevikdən qaçıb, burada yaşayırsınız, heç olmazsa bizə kömək ediniz".

B.Cavanşir hökumətdə tutduğu vəzifələrdən uzaqlaşdıqdan sonra da əsas fəaliyyətini parlamentdə davam etdirdi. Eyni zamanda o, 1919-cu ilin iyulun 18-də "Dəyanət" kommersiya şirkəti açdı və xarici ticarətlə məşğul oldu. O, Almaniyadan yumşaq buğda növləri gətirib Qarabağda əkdirdi. Qarabağa ilk avtomobili gətirən və bu bölgənin yollarını abadlaşdıran da B.Cavanşir olmuşdur. 1918–1920-ci illərdə Bakıda təntənəli "Azərbaycan gecələri" konsertinin və bir çox cəmiyyətlərin təşkili də onun adı ilə bağlıdır. Bəzi araşdırmalarda B.Cavanşirin də M.Hacınski ilə birlikdə Sovet Rusiyası ilə yaxınlaşmaq, diplomatik münasibətlər qurmaq cəhdləri qeyd olunur.

***– Bolşeviklər Azərbaycanı işğal etdikdən sonra Behbud Xan Cavanşirin aqibəti necə oldu?***

– 1920-ci ilin aprelin 27-də Azərbaycan bolşeviklər tərəfindən işğal edildikdən sonra peşəkar mühəndis kimi tanınan və xariclə güclü əlaqələri olan B.Cavanşir neft sənayesi sahəsində çalışdı. Həmin ilin sonunda N.Nərimanov onu müasir neft-mədən avadanlığı almaq üçün Almaniyaya göndərdi. B.Cavanşir yolüstü İstanbulda həmyerlisi Ə.Ağaoğlunun evində qaldı. Bir gecə küçə ilə gedərkən Daşnaksütun partiyasının üzvü Torlakyanın arxadan atdığı güllə ilə qətlə yetirildi.

Tanınmış tədqiqatçı V.Quliyevin "Ağaoğlular" kitabında həmin hadisəni Əhməd bəyin qızı Süreyya xanım belə təsvir edir: "Behbud xan xanımı və 2 qardaşı ilə Parisə getmək üçün İstanbula gəlmişdi. Özü vəziyyətə tez uyğunlaşan adam idi və bizim Şahzadə bağındakı evimizdə beş gün gizli yaşadı. Ancaq rusəsilli xanımı bu həbs həyatına dözə bilməyəcəyini söylədiyindən onlar evimizi tərk edib "Pere Palas" mehmanxanasında yerləşdilər. Ertəsi gün səhər tezdən Behbud xanın axşam "Pere Palas" mehmanxanasına gələrkən bir erməni tərəfindən vurulduğunu eşitdik".



***– Bu qətllə bağlı İstanbulda keçirilən məhkəmə prosesi ədalətsizliyi ilə bu gün də hiddət və qəzəb doğurur.***

– B.Cavanşirin qətli ilə bağlı aparılan məhkəmə prosesindən aydın olur ki, o, İstanbula 1921-ci ilin iyun ayının 25-də həyat yoldaşı Tamara Velkonskaya, qardaşları Surxay və Cəmşidlə birlikdə gəlibmiş. B.Cavanşirin həyat yoldaşının məhkəmədəki ifadələrindən məlum olur ki, qatili gördükdə bir neçə gün əvvəl onunla Təpəbaşı baxçasında qarşılaşdıqları yadına düşür. Məlum olur ki, erməni terrorçu onları izləyirmiş.

Hadisə baş verən günü, 1921-ci il iyulun 18-də axşam saat 23-də B. Cavanşir həyat yoldaşı və qardaşları ilə birlikdə "Təpəbaşı" teatrından çıxıb, "Pere Palas" otelinə gedirmiş. Bu zaman terrorçu Misak Torlakyan arxadan yaxınlaşıb tapança ilə B. Cavanşirə 3 güllə atıb. B.Cavanşir arxaya dönüb və qatilə doğru irəliləsə də, aldığı yaralardan yerə yıxılıb. B.Cavanşirin qardaşları Cəmşid, Surxay və xanımı qatili zərərsizləşdirib, polislərə təhvil veriblər. B.Cavanşiri isə yaxınlıqdakı ingilis xəstəxanasına aparsalar da, onu sağaltmaq mümkün olmayıb və 35 dəqiqə sonra dünyasını dəyişib.

Hadisədən sonra ağır məhkəmə prosesi başladı. Bu cinayətə dəstək verən erməni dairələri qəzetlərdə elan verərək şahidlər toplamağa çalışdılar. O dövrdə İstanbul İngilis işğal nəzarəti bölgəsi sayıldığından, məhkəmə prosesini də onlar aparırdı. Prosesdə ingilis prokuroru Rickatson tərəfsizliyini qoruyub saxlasa da, onu uzaqlaşdırıb yerinə Çribbonu təyin etdilər.

M.Torlakyanın əsas vəkilləri Türkiyə erməniləri olan Xosrovyan və Barsamyan idi. B.Cavanşirin hüququnu vəkil Heydər Rifət bəy müdafiə edirdi.

Erməni vəkilləri hər üsuldan istifadə edərək, cinayətkara haqq qazandırmağa çalışırdılar. Bir təqdimatda onun bu cinayəti törədərkən "şüurunun yerində olmaması faktı"nı irəli sürsələr də, Doktor Məzhər Osmanın həkim heyəti bunu təsdiqləmədi.

Həkimlərin rəyini "tərəfkeşlik" adı ilə məhkəmə qəbul etmədi, qatilin müayinəsini ingilis həkiminə tapşırdılar.

Bu uydurma rəy əsasında M.Torlakyan İngilis işğal məhkəməsi tərəfindən bəraət aldı. Bundan sonra M.Torlakyan İstanbuldakı bir erməni Patriarxlığına təslim edildi, tez zamanda gəmi ilə Yunanıstanın Pire şəhərinə göndərildi. Yunanıstandan isə onun ABŞ-a getdiyi söylənilir. Araşdırılan sənədlərdən onun Trabzonda doğulduğu və burada Darülmüəllimdə təhsil aldığı, sonra ailəsi ilə Rusiyaya getdiyi, erməni ordusuna da könüllü olaraq yazıldığı bildirilir.

Məhkəmədə şahid qismində ilk olaraq B.Cavanşirin qardaşı Cəmşid, sonra xəstəxananın həkimi C.Hil, xanımı Tamara Velkonskaya, türk polis məmuru Əli Əfəndi çıxış etdilər.

Şahid qismində məhkəmədə çıxış edən Azərbaycan Parlamentinin sabiq üzvü, "Azərbaycan" qəzetinin redaktoru olmuş Şəfi bəy Rüstəmbəyli bu sözləri dedi: "İlk təşəkkül edən Azərbaycan hökumətində B. Cavanşir daxili işlər naziri olmuşdur. Nazirliyi dövründə fəal adam olduğundan ermənilər və müsəlmanlar ondan çox razı idilər. Behbud xan Cavanşirin nazirliyi dövründə Ermənistanın heç bir tərəfində milli iğtişaşlar olmamışdır. Behbud xanın əmrləri və tədbirləri sayəsində Bakıda asayiş və intizam bərpa olundu və heç bir nümayiş olmadı".

Məhkəmədə çıxış edən erməni şahidləri isə B.Cavanşirin ünvanına "şər və böhtan" ifadələri işlədir, onu ermənilərin qətlində günahkar sayır, Bakı alınarkən 3 minə qədər erməninin öldürülməsində onun əli olduğunu qeyd edirdilər.

Erməni şahidləri məhkəmə prosesində bütün şantaj vasitələrindən istifadə edirdilər. Onlar 1918-ci ilin sentyabrın 15-də Bakı azad edilərkən F.Xoyski və B.Cavanşirin əhaliyə müraciətlə yazdıqları Bəyannaməni "sanki" ermənilərin qətlinə başlanması sənədi kimi təqdim edirdilər. Həmin sənədin qəzetdə yayımlanan bir müraciət olduğunu çıxışında bildirən Ş.Rüstəmbəyli belə izahat verdi: "Bu əmrnamədə bəzi məsuliyyətsiz şəxslərin soyğun və qəsblərə yol verdiyi, onların hərbi məhkəmələrdə cəzalandırılması bildirilirdi".

Saxta erməni şahidləri Təhməzyan, Teyğan, Xandanyan 1918-ci ildə Bakıda olduqlarını, Behbud xanın "qətliamlar"da məsuliyyət daşıdığını bildirdilər.

B.Cavanşirin həyat yoldaşı Tamara Velkonskaya məhkəmədə söylədi:

"Həyat yoldaşım daima Azərbaycan müsəlmanları ilə ermənilər arasında sülh və barışığın təmin və təsisinə çalışırdı. Həyat yoldaşım nə erməni qətliamlarında iştirak etmiş, nə də bu kimi qətliamlarda məsul olmuşdur. O, müsəlman olduğu cəhəti ilə ermənilər tərəfindən haqqında nifrət yarandığını bilirdi".

Həmin məhkəmədə Ə.Ağaoğlunun qızı, məhkəmədə vəkillik edən Heydər Rifət bəyin katibəsi, sonradan Türkiyədə tanınmış hüquqşünas, vəkil olmuş Süreyya Ağaoğlu da iştirak edirdi. Şahidlərdən Qacar nəslindən olan Ziba xanım, Qara Ağazadə, Əhməd Həmdi Qarağazadə, Yusif bəy Qasımov ifadələrində ermənilərin müsəlmanlara qarşı törətdikləri vəhşilikləri qeyd etdilər.

B.Cavanşirin ölümündən sonra qardaşları Cəmşid və Surxay Türkiyədə qalıb yaşadılar, Azərbaycana qayıtmadılar. Həyat yoldaşı Tamara Velkonskaya isə Rusiyaya qayıdıb, ömrünün sonunadək ailə qurmadan Moskvada tənha yaşadı.

Sovet rejimi dövründə B.Cavanşirin Azərbaycanda yaşayan qohumlarını təqib etdilər, sürgünə göndərdilər. Onun bacısı oğlu Ənvər Cavanşir 1948-ci ildə sürgündən qayıdarkən Moskvada yaşayan B.Cavanşirin həyat yoldaşı Tamara xanımla görüşdü. Onun "Nə üçün yenidən ailə qurub yaşamadınız?" sualına Tamara xanım belə cavab vermişdi: "Behbud xan kimi bir insanı tapmaq qeyri-mümkündür".

**– Qiymətli araşdırma və maraqlı müsahibəyə görə sağ olun.**

**P. S:** Behbud xan Cavanşirin vəhşicəsinə qətlə yetirilməsi ilə bağlı geniş məlumat Murat Gülçünün "Erməni ədavətlərinin pərdəarxası... Torlakyan davası" kitabında təsvir olunub: 3 dəfə dalbadal açılan atəşdən sonra Behbud xanın yaralı halda qatilin üzərinə gedərkən üzüüstə yerə yıxılması, növbəti güllənin Tamara xanımla birgə qatilin silah tutan əlindən yapışmış 20 yaşlı Cümşüdün sol yanağını sıyırması, polis məmuru Əli Əfəndinin hadisə yerinə yetişməsi və caninin qandallanması, nəhayət, xəstəxanaya çatdırılan Behbud xanın 35 dəqiqədən sonra, heç bir tibbi müdaxilə edilmədən dünyasını dəyişməsi kitabda öz əksini tapmışdır.

Onu da xüsusi olaraq qeyd etmək istəyirəm ki, 20 iyul 1921-ci ildə ölümündən 3 gün sonra böyük müqavimətlərə baxmayaraq, Behbud xanın Beşikdaşdakı Yəhya Əfəndi dərgahındakı dəfn mərasimi kütləvi nümayişə çevrilmişdir.

2019-cu il 18 dekabr tarixində Azərbaycan dövlətinin vəsaiti ilə Behbud xan Cavanşirin xatirəsinə "Pera Palace"da abidə qoyulmuşdur.

*Müsahibəni apardı:*
***Kəmalə ABDİNOVA***
***XQ***

---

Yaddaşlarda yaşayanlar

# Son baharın oğlu

## *Payızda doğuldu, payızda da getdi...*



**Onunla cəmi 19 il eyni kollektivdə çalışdıq. Ancaq çox vaxt "bir yerdə işlədiyimiz bu 30-40 ildə" ifadəsini işlədirdi. Bir dəfə həmin "şişirtmə"nin səbəbini soruşdum. Dedi ki, ziyanlı sexdə işləyənlərin 1 illik stajı 2 il hesablanır. Yəni, mənimlə bir kollektivdə işləməyi "ziyanlı" adlandırırdı. O, mənim redaksiyada zarafat edə bildiyim iki-üç adamdan biri idi. Xeyli yaş fərqimiz olsa da, nədənsə, onunla tay-tuş kimi zarafat eləməkdən çəkinmirdim. Həm yumor hissi yaxşı idi, həm jurnalist kimi ondan nəyisə öyrənmək mümkün idi, həm yaxşı məclis adamı idi, həm də... yerli idik. Ömründə iki dəfə şeir yazmışdı. Hər iki şeiri ikicə sətirdən ibarət idi və sözlərin çoxu Şəki ləhcəsində idi. Bütün məclislərimizdə oxuyurdu. Birincisini tələbəlik illərində yazıbmış:**

***Bağışda, sevgilim, məni bağışda,***
***Səni qoyub getdim leysan yağışda.***

İkincisini isə Bakı küləyinə həsr eləmişdi:

***Səhər durub gördüm qar yağıttı***
***Sora külək vırdı dağıttı...***

Mənim 50 yaşım tamam olanda soruşmuşdu ki, Mirzəbəyli, sənin jurnalistikada nə işin var, niyə gedib xanəndəliyini eləmirsən? 60 yaşım olanda demişdi ki, hələ gec deyil, 70 yaşında da muğam oxuyanlar olub, çıx get öz işinin, gücünün dalınca: "Yoxsa, 70 yaşın tamam olanda sənə daha ağır ittihamlar irəli sürəcəm". Təəssüf ki... Anonsunu verdiyi ittihamları irəli sürə bilmədi. Dünyadan köçməsiylə üzümüzdəki təbəssüm payımızın bir hissəsini apardı. Allah rəhmət eləsin.

... Bir gün işdən sonra ikimiz birlikdə metronun 28 May stansiyasında qatara mindik. Elmlər Akademiyası stansiyasında düşənlər çox oldu. Qatar, demək olar ki, boşaldı. Orta qapının yanında sahibsiz qalan yekə və dolu çantanı Telman müəllimə göstərib dedim ki, o çantadan gözüm su içmir. Sahibsiz çantanı görüb necə həyəcanlandısa, mənə "sən polis çağır!" – deyərək, 70 yaşlı adam bir göz qırpımında özünü maşinistə çatdırdı: "Sürmə, saxla, sahibsiz çanta var!"

Mən dərhal perrondakı polisi çağırdım və bir andaca haradansa altı-yeddi polis gəldi. Qatar dayandırıldı. Hamını vaqondan çıxartdılar. O biri vaqonlar da boşaldıldı. Bizim olduğumuz vaqonun lap arxasında – yəni, çantadan uzaqda bir qoca rus yatmışdı. Telman müəllim çox qorxmuşdu, mən ondan çox. Amma ikimiz də özümüzü "qəhrəman" sayırdıq. Metro işçiləri, sanki, kiminsə gəlməsini gözləyirdilər.

Ehtiyatlı polislərdən biri sahibsiz baqaja yaxınlaşmadan vaqonun o başında yatmış adamı oyatmaq istədi. Yatmış adama təcili vaqonu tərk etməli olduğunu dedilər və o, qalxıb qaça-qaça çantanın yanına getdi və öz yükünü götürüb vaqondan çıxdı. O anda mən xeyli aralandım ki, şahidlərdən kimsə mənə "küyçü" deməsin. Telman müəllim isə qatar yenə də dolana və yola düşənə kimi maşinistə nələrisə izah edirdi.

Sonralar məclislərdə dəfələrlə danışdı ki, Mirzəbəyli qoca rusun paltar yığdığı çantadan da qorxdu.

Onun 75 yaşında yazmışdım: "Qoca Qafqazın ətəklərində böyümüş köhnə kişilərdən biri kimi söz ver ki, 80 yaşında da bizim sıramızda olacaqsan, İnşallah! 76 yaşında daha böyük sevinclər yaşamağını arzu edirik. Mən də söz verirəm ki, 80 yaşında sənə gözəl bir qəzet məqaləsi həsr edəcəyəm. Bəlkə də, kitab oldu". Amma, nə o yaşaya bildi, nə də mən yazdım. 2015-ci il noyabrın 23-də qəzetimiz üçün hazırladığım nisgilli yazı belə başlanırdı: "Azərbaycan mətbuatına ağır itgi üz vermişdir. "Xalq qəzeti"nin müxbiri, müasir jurnalistikanın ən təcrübəli simalarından biri olan "Tərəqqi" medallı həmkarımız Telman Fətulla oğlu Əliyev ömrünün 77-ci ilində vəfat etmişdir".

Əlavə edim ki, 2010-cu ilin iyun ayından bəri redaksiyamızın bütün əməkdaşlarının kitab şkafında və ya yazı masasında "Jurnalistikada keçən ömür" adlı sanballı bir kitab var idi. 2015-ci il noyabrın 22-dən 23-nə keçən gecə həmin ömrün son saatları yaşanmışdı. 53 il "Xalq qəzeti" ("Kommunist") redaksiyasında xüsusi müxbir vəzifəsində çalışmış, həyatının son gününədək redaksiya ilə bağlı bütün məsələlərdə gənclərə xas fəallıq göstərmiş Telman Əliyev böyük bir nikbinliklə bağlandığı dünyasını dəyişdi.

Həmin tarix "mənim fəslim payızdır, payızda dünyaya gəlmişəm, birinci sinfə getmişəm, tələbəliyin sevincini dadmışam, ümumiyyətlə, bütün uğurlarımı payızda qazanmışam... "– deyən həmkarımızın son payızının son ayı imiş. Buna baxmayaraq, xəstəxanada olduğu günlər istisna olmaqla bir gün belə, əmək intizamını pozmadı. Elə bir toy, bayram, əlamətdar gün və ya kədərli anımız olmadı ki, Telman müəllimi yanımızda görməyək. İndi isə yanımızda olmasa da, ürəyimizdədir.

Allah rəhmət eləsin!

***İttifaq MİRZƏBƏYLİ***

# Erməni plagiatçılığı sərhəd tanımır

## Musiqi irsimizə davamlı təcavüzə son qoyulmalıdır



**Mətbuatda xəbər verildiyi kimi, Mədəniyyət Nazirliyi və Əqli Mülkiyyət Agentliyi dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" komediyasının musiqisinin bir hissəsinin və Azərbaycan musiqi irsinin digər nümunələrinin ermənilər tərəfindən mənimsənilməsi ilə bağlı birgə bəyanat yayıblar.**

Əslində, hayların oğurluğu yeni xəbər deyil. Bu, onların milli mentalitetinin özəl göstəricisidir. Kündəsi yalandan ərsinlənən bu qövm haqqında hələ eramızın əvvəlində Roma tarixçisi və senatoru Rubli Korneli Tasit açıq mətnlə yazıb: "Ermənilər qədimdən ikiüzlü və riyakardırlar". Dahi rus şairi Aleksandr Puşkinin məşhur "Sən kölənsən, sən oğrusan, sən ermənisən..." ifadəsi də bəllidir.

Erməni həyasızlığı o həddə çatıb ki, Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" komediyasının musiqisinin bir hissəsi guya erməni bəstəkarı Arno Babacanyanın müəllifi olduğu "Vaqarşabat rəqsi" adı altında "Youtube" platformasında yerləşdirilib. Bu mənimsəmə halı haqlı olaraq Azərbaycan cəmiyyətində kütləvi etiraza səbəb olub. Sözügedən bəyanat da elə bu barədədir. Sənəddə erməni saxtakarlığı bənd-bənd ifşa olunur. Dəqiq tarixlərə istinadla bildirilir ki, Üzeyir Hacıbəyli "O olmasın, bu olsun" komediyasının musiqisini 1910-cu ildə yazıb. Əsər ilk dəfə 1911-ci ildə səhnələşdirilib, musiqisinin və librettosunun Üzeyir bəyə məxsusluğu qəti şübhə doğurmayan faktdır. Çünki bunu sübut edən çoxsaylı mənbələr, o cümlədən dövrə aid yazılar, afişaları, notlar var. Üstəlik də, komediyanın librettosu bir çox dillərə tərcümə olunub və əsər müxtəlif ölkələrin səhnələrində tamaşaya qoyulub.

Bu da xatırladılır ki, komediyanın əsasında 1956-cı ildə "Azərbaycanfilm" kinostudiyası tərəfindən eyniadlı film çəkilib. Bütün bunlara baxmayaraq, komediyanın ilk tamaşaya qoyulduğu, yəni kütləvi ifası tarixindən bu günədək əsərin bu və ya digər hissəsini ermənilər mənimsəyib və ifa ediblər. Həmin mənimsəmə hallarının bəziləri bəyanatda misal gətirilir. Göstərilir ki, erməni bəstəkarı Arno Babacanyan komediyanın bir hissəsini yazıldığı vaxtdan 71 il sonra – 1982-ci ildə keçmiş SSRİ televiziyasında yayımlanan verilişlərin birində guya özünün yazdığı "Vaqarşabat rəqsi" adı altında ifa edib, həmin ifa sonradan "YouTube" platformasında yerləşdirilib. Con Suyan (2009), Endryu Boldi (2016), Aida Avanesyan (2021), Marian Vartapetyan (2021), Raffi Besalyan (2021), Kristina Tokatliyan (2022), Hayk Melikyan və digərləri də komediyanın sözügedən hissəsini "erməni musiqisi" kimi ifa edərək "YouTube"-yə qoyublar. Bundan başqa, vaxtilə "Soyuzmultfilm" studiyasının istehsalı olan "Pyos i kot" cizgi filmində komediyanın məşhur hissəsi – Məşədi İbadın "Gəl, xanım, gəl yanıma..." ariyası erməni musiqisi kimi təqdim edilib. Filmin titrlərində bəstəkarın adı Karen Xaçaturyan olaraq qeyd edilib. K.Xaçaturyanın törətdiyi plagiatlıq faktı ilə bağlı 2010-cu ildə Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi "Detskiy mir" teleşirkətinə bildiriş göndərərək, həmin cizgi filminin nümayişinin dayandırılmasını tələb edib. Məsələ ilə bağlı sübutedici sənədlərlə birlikdə Ümumdünya Əqli Mülkiyyət Təşkilatına (ÜƏMT) etiraz məktubu da göndərilib.

Hələ bu, harasıdır? 2011-ci ildə Rusiyanın "Mir" Dövlətlərarası televiziyasında Ermənistanla bağlı sənədli filmdə erməni bəstəkarı Komitas (Soqomon Soqomonyan) tərəfindən işlənmiş "Eranqi" adlı əsərdən istifadə olunub. Erməni rəqsi kimi təqdim edilən bu "əsər" də "O olmasın, bu olsun"un Arno Babacanyan tərəfindən mənimsənilərək "Vaqarşabat rəqsi" adı altında təqdim edilən hissəsi ilə eynilik təşkil edir.

Üzeyir Hacıbəylinin əsərlərinin ermənilər tərəfindən mənimsənilməsi təkcə "O olmasın, bu olsun" ilə məhdudlaşsaydı, nə vardı? Amma, yox, iştah yemək vaxtı gəlir, axı. 1915-ci ildə Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettası guya səhvən "erməni operettası" kimi təqdim olunub, bununla bu operettanın da mənimsənilməsinin əsası qoyulub. SSRİ dövründə "Arşın mal alan" ermənilər tərəfindən tamaşaya qoyularkən bilərəkdən müəllifin adı göstərilməyib, titrlərdə yalnız erməni ifaçıların adları qeyd edilib. 1980-ci illərdə Arno Babacanyan SSRİ mərkəzi televiziyasının verilişlərinin birində çıxış edərkən Üzeyir bəyin həmin operettasının "kökləri"ni Qarabağın hansısa erməni kəndində oxunan melodiyalarda "tapıb" və bununla da dolayısı yolla böyük Azərbaycan bəstəkarını plagiatçılıqda günahlandırmağa cəhd edərkən, əslində, özünə haqq qazandırmağa çalışıb, "Vaqarşabat rəqsi"nin melodiyasının Üzeyir bəydən yox, guya, erməni xalq musiqisindən götürüldüyünə işarə edib.

Ermənilərin Azərbaycan musiqi irsini yağmalaması təkcə Üzeyir Hacıbəylinin əsərləri ilə məhdudlaşmayıb və ya onun əsərləri ilə başlamayıb. Ermənilər XVII–XVII əsrlərdən başlayaraq, Azərbaycan xalqının mədəni irsini, o cümlədən musiqi irsini sistemli və davamlı şəkildə mənimsəyib və "özəlləşdiriblər". Plagiatçılıq halları bu gün də davam edir və bu kimi halların bizə məlum olanları sistemli erməni mənimsəmə siyasətinin bir parçası və üzdə görünən hissəsidir.

Aşkar faktdır ki, hələ 1925-ci ildə İrəvanda Elm və İncəsənət İnstitutu yanında guya xalq musiqisi və folklorunun toplanması və öyrənilməsi bölməsinin yaradılması məhz Qərbi Azərbaycan torpaqlarında bizim xalq musiqimizi və rəqslərimizi nota almaq məqsədini güdüb. Həmin üzdəniraq bölməyə çoxsəsli klassik erməni musiqisinin banisi kimi təqdim edilən S.Komitasın şagirdi S.Məlikyan rəhbərlik edib. Bədnam Komitas uzun müddət bəstəkar kimi yox, etnoqraf kimi tanınırdı. 1959-cu ildə nəşr edilmiş "Ensiklopedik musiqili lüğət"dən göründüyü kimi, o, Üzeyir Hacıbəylidən oğurluq nümunəsi olan "Erangi" rəqsi də daxil olmaqla, 3 mindən artıq musiqi əsərini nota köçürüb. Hazırda bu əsərlərdən 500-ə yaxını məlumdur və böyük qismi Azərbaycan musiqisidir. Sırf bizim xalq mahnımız "Sarı gəlin"ə də həmin aqibəti yaşatmağa ardıcıl səylər göstərilib. Onu da deyək ki, Matenadaran və digər erməni arxivlərində saxlanılan 17–19-cu əsrlərə aid qondarma əlyazmalarında qədim Azərbaycan mahnıları və havalarına geniş rast gəlinir. Qərbi Azərbaycan torpaqlarına yerləşdikdən dərhal sonra ermənilər bu işə, necə deyərlər, hurreylə girişiblər. Bizim folklor nümunələrimizi kütləvi şəkildə toplayıb, erməni əlifbasının transkripsiyasında yazıb, öz dillərinə tərcümə edib, arxivlərdə yerləşdirib və gündəlik həyatda geniş yaymağa başlayıblar. Buna misal R.Boyaçyanın toplayıb erməni boyası vurduğu folklordan ibarət "Erməni xalq nəğmələri" kitabının Paris nəşridir.

Özlərindən nagüman olan erməni müəlliflər Azərbaycan izini itirmək, "ağ" yalanlarını əsaslandırmaq üçün uydurma mənbə "tapır", növbəti "əsər"də həmin uydurma mənbəyə istinad edərək, "istinadlar zənciri" yaradırdı. Bu plagiatçılıq texnikasından istifadə bu gün də davam etməkdədir.

Maraqlı burasıdır ki, bəzən nankor millətin az sayda təmsilçiləri oğurluq etirafında bulunublar. Məsələn, XIX əsrin məşhur erməni xadimlərindən biri olan M.Nalbandyan yazırdı ki, erməni "... melodiya və havalarının çoxu türklərdən (azərbaycanlılardan) götürülmüşdür. Mən ermənilərin yaşadığı çox yerlərdə olmuşam. Həmişə təmiz ermənicə olan bir şey eşitmək istəmişəm. Təəssüf ki, bu günədək mən buna nail olmamışam! Düşünürəm ki, bizim musiqi alətlərinin adları: saz, santur, kaman – hamısı türkcədir" ("Qədim şeirlər və mahnılar haqqında", Əsərlərinin tam külliyyatı, c. 1). Onun əsrdaşı, ədəbiyyatşünas S.Palasanyan özünün "Erməni melodiyaları" kitabında etiraf edib ki, "...ümumiyyətlə, biz hansı xalqın təsiri altında oluruqsa, onun mahnılarını da özümüzünkü hesab edirik...".

Xaçatur Abovyan "...ermənilər ancaq türkcə (azərbaycanca) oxuyurlar", çünki "ermənilərin mahnı ilə dastanları yoxdur", A.Brutyan "ən məşhur erməni muğam ifaçıları Bakıdan və Şuşadan çıxmışlar", Q.Ağayan isə "bu dil (Azərbaycan) ermənilər üçün doğma kimidir. Məhz buna görə də biz azərbaycanca oxuyuruq" cümlələrində plagiatçılıq siyasətini etiraf ediblər. A.Koroşşenko "Şərq, daha çox Qafqaz musiqisi üzərində müşahidələr" əsərində yazırdı ki, "...ermənilərin özlərinin xalq musiqisi yoxdur" ("Moskva xəbərləri", 1896). Sovet dövründə xalq musiqisinin toplanması və yazıya köçürülməsi ilə məşğul olmuş erməni bəstəkarı və musiqişünası Sp.Melikyan da Koroşşenko ilə həmfikir idi.

Bu və digər "etiraf"lar da hayların özünüifşasına xidmət edən mənbələrdir. Yalan ayaq tutsa da, yeriyə bilməz. Çünki Azərbaycan mədəni irsi mədəniyyət və əqli mülkiyyət qanunvericiliyi ilə qorunmaqdadır. Azərbaycan mədəni irsinin ictimai varidat olmuş ən görkəmli nümunələri, o cümlədən Üzeyir bəy Hacıbəylinin əsərləri Nazirlər Kabinetinin 2019-cu il 7 may tarixli 211 saylı Qərarı ilə dövlət varidatı elan edilib və onlardan istifadə xüsusi qaydalara əməl etməklə, mümkündür. Dövlət varidatı elan edilmiş əsərlərin müəlliflərinin, o cümlədən Üzeyir bəyin müəlliflik hüquqları pozulduqda, onun vərəsələri ilə bərabər Əqli Mülkiyyət Agentliyinin həmin hüquqların bərpası məqsədilə məhkəmə iddiası qaldırmaq hüququ var. Nəhayət, Azərbaycan mədəni irsinin – xalq mahnıları və rəqslərinin, bəstəkar əsərlərinin oğurlanması faktlarının toplanıb sistemləşdirilməsi və ictimailəşdirilməsi, habelə bu cür plagiatçılıq hallarının azaldılması məqsədilə preventiv tədbirlərin həyata keçirilməsi Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin və Əqli Mülkiyyət Agentliyinin prioritet istiqamətlərindən biridir.

Kütləvi mənimsəmə və plagiatçılıq faktlarını sübut etmək üçün Əqli Mülkiyyət Agentliyi erməni və xarici mənbələr əsasında Azərbaycan, ingilis, rus və rumın dillərində "Erməni yadelli nağılları" kitabını, habelə "Gəldim, gördüm, mənimsədim...", "Erməni tarixi uydurmalarının tarixinə giriş", "Erməniçilik uydurmaları digər xalqların hüquqlarına xələl gətirir", "Erməni müəlliflərinin kitablarındakı uydurmalara "müəlliflik hüququ" və s. kitablarını nəşr edib və diplomatik kanallarla yayıb. Mədəniyyət Nazirliyinin erməni lobbisinin "at çapdığı" Fransanın "Mezzo" kanalı ilə bağladığı müqaviləyə əsasən həyata keçirdiyi bir neçə irimiqyaslı layihə çərçivəsində Üzeyir Hacıbəylinin, Fikrət Əmirovun, Qara Qarayevin, Hacı Xanməmmədovun, Arif Məlikovun və digər görkəmli Azərbaycan bəstəkarlarının əsərləri məşhur konsert salonlarında tanınmış solist və orkestrlər tərəfindən məhz Azərbaycan musiqisi kimi ifa olunub. Həmin layihələr "Mezzo" telekanalı tərəfindən lentə alınaraq 5 il ərzində müxtəlif vaxtlarda bütün dünyaya yayımlanacaqdır. Ölkəmizin xaricdəki səfirlikləri, mədəniyyət mərkəzləri ilə birgə layihələr hazırlanır və tədbirlərdə Azərbaycan musiqisi haqqında məlumatlar verilərək konsert proqramında səsləndirilir.

Onu da bildirək ki, Əqli Mülkiyyət Agentliyi BMT-nin ixtisaslaşmış qurumu olan və 190-dan artıq dövlətin üzv olduğu ÜƏMT-yə erməni plagiatçılığı ilə bağlı çox müraciətlər ünvanlayıb. Bu müraciətlər mütəxəssis rəyləri, sübutedici sənədlər və tarixi mənbələr əsasında tərtib edilib.

Qeyd edilənlərlə bağlı bəyan edilir ki, BMT üzvü olan Ermənistan Respublikası iştirak etdiyi beynəlxalq müqavilələr vasitəsilə əqli mülkiyyət hüquqlarının qorunması ilə bağlı üzərinə götürdüyü çoxsaylı vəzifə və öhdəliklərini yerinə yetirmir, digər məsələlərdə olduğu kimi, əqli mülkiyyət sahəsində də beynəlxalq hüquq normalarını kobud şəkildə pozmaqda davam edir.

Bəyanat belə sonlandırılıb: "Ermənistan Respublikasının müvafiq dövlət orqanlarından Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" və "Arşın mal alan" əsərlərinin yuxarıda qeyd edilən mənimsənilmə hallarının aradan qaldırılmasını, Üzeyir Hacıbəylinin müəllif hüquqlarının bərpa edilməsini, habelə Ermənistan Respublikasının ərazisində və ya onun subyektləri tərəfindən Azərbaycan mədəni irsi, xüsusilə də musiqi irsi nümunələrinin kütləvi şəkildə mənimsənilməsi hallarını təcili surətdə araşdırmağı və aradan qaldırmağı, beynəlxalq hüquqa və daxili milli qanunvericiliyinə uyğun olaraq məsuliyyətə cəlb etməyi, görülmüş tədbirlər barədə ÜƏMT-yə məlumat verməyi tələb edirik".

***XQ***

**Məlik Dadaşov – 100**

# Sənətin sönməyən ulduzu

**Yadıma gəlir ki, illər öncə Xalq artisti Məlik Dadaşovun haqqında, təxminən, belə bir adda maraqlı oçerk oxumuşdum. Şübhəsiz, həmin seçimdə aktyorun "Ulduzlar sönmür" filmində Nəriman Nərimanov obrazını ustalıqla yaratması əsas götürülmüşdü. İndi mən də 100 yaşı olan sənətkarın uğur yoluna tam uyğun gəldiyi üçün bənzər sərlövhəyə üstünlük vermək istədim.**



Elə buradaca qeyd edim ki, Məlik Dadaşov başqa bir ekran əsərində – rejissor Arif Babayevin "Birisigün, gecəyarısı..." filmində də N.Nərimanovun obrazını parlaq şəkildə canlandıra bilib və buna görə yaradıcı heyətlə birlikdə Dövlət mükafatına layiq görülüb.

Məlik Dadaşov 1924-cü il iyunun 7-də Bakıda dünyaya gəlib. Vaxtilə Nobel qardaşlarının mədənində çalışmış Yusif Dadaşovun ailəsində sonbeşik olsa da, teatr və kino ailəsində çoxları üçün böyük qardaş və yolgöstərən olub. Böyük uğurla çəkildiyi səhnədə və ekranda komik, dramatik və faciə xarakterli obrazlar yaratması ilə böyük şöhrət qazanıb. Milli teatr və kino məktəbinin ən görkəmli nümayəndələrindən biri kimi mədəniyyət tarixinə düşüb.

İkinci Dünya müharibəsində iştirak edən Məlik Dadaşov cəbhədə beynindən zədə alaraq uzun müddət müalicə olunur. Aktyor kimi debütü 1945-ci ildə Gənc Tamaşaçılar Teatrında baş tutur. 1950-ci ildə Azərbaycan Teatr İnstitutunu (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) bitirdikdən sonra Akademik Dram Teatrının truppasına daxil olur və burada ilk dəfə Hüseyn Muxtarovun "Ailə namusu" pyesində rol alır. Ələsgər Ələkbərov, Mehdi Məmmədov, Adil İsgəndərov kimi sənət korifeyləri ilə çiyin-çiyinə çalışır. Tezliklə Məlik Dadaşov da səhnəmizin qüdrətli sənətkarları sırasına çıxır.

Görkəmli aktyoru mənfi tiplərin klassik ifaçısı adlandıranlar da çoxdur. "Ölülər"in Şeyx Nəsrullahını, "Axırıncı aşırım"ın Qəmlosunu, "Dəli Kür"ün Molla Sadığını göz önündə canlandırsaq, həmin fikirlə biz də razılaşarıq. Amma nifrət yaradan bu rollarda aktyor məharəti ona tamaşaçı sevgisi qazandırıb. Necə deyərlər, hünər də elə budur. Təsadüfi deyil ki, Məlik Dadaşova Şeyx Nəsrullahı gözəl yaratmasının mükafatı olaraq, mərhum kinorejissor



Tofiq Tağızadə Mirzə Cəlilin "Ölülər" pyesi əsasında ekranlaşdırdığı "O dünyadan salam" filmində də həmin rolu həvalə edib.

Məlik Dadaşovdan danışanda onun son rollarından birini oynadığı "Fəryad" filmini xatırlamamaq mümkün deyil. 1993-cü ildə ekranlaşdırılmış bu filmdə tipik erməni komandiri Armen Xaçaturyan rolunda oynayan aktyor onun dili ilə deyir: "Diqqət, diqqət! Bu gün Xocalını aldıq!" Sonra da şadyanalıqda elə cani-dildən rəqs edir ki, ifası ilə nankor və amansız qonşulara nifrət, özünün sənətkarlıq qabiliyyətinə sevgi hissləri aşılaya bilir. Amma çoxumuz bu filmdəki bir detala fikir vermirik: azərbaycanlı əsir zabit İsmayıl Hüseynov (Ceyhun Mirzəyev) öləndə Armen Xaçaturyan (Məlik Dadaşov) onun gözünü qapadaraq, üstünü örtür. Bunu isə, yəqin ki Xaçaturyanın deyil, məhz Dadaşovun Azərbaycan sevgisi kimi dəyərləndirmək lazımdır.

Başqa bir səhnədə Xaçaturyan üzünü yuya-yuya erməni mahnısı oxuyur. Həmin mahnını Məlik Dadaşov uşaqlıqda məhəllələrində yaşayan ermənilərdən eşitmişdi, filmə salınması da onun ideyası idi. Bu səhnə kinoteatrda göstəriləndə aktyorun qızı Gülnarə xanımın arxasında əyləşən qadın qeyri-ixtiyarı "zəhrimar canına, zəhər canına" – deyib hirslənir. Gülnarə arxaya çevrilərək qadına, sonra atasına baxır. Atası isə ona əli ilə "əla" işarəsini göstərir.

Deyilənə görə, "Fəryad" ekranlara çıxdıqdan sonra yaşlı bir qadın küçədə onun qarşısını kəsərək, "Ay camaat, bu, ermənidir", – deyib. Az qala, aktyoru daş-qalaq ediblər, bir hərbçi də onu saxlayaraq, sənədlərini istəyib. Məsələ aydınlaşandan sonra Məlik Dadaşov deyib: "Deyəsən, Xaçaturyan rolunu yaxşı oynamışam ki, məndən şübhələnirlər".

Bax, belə nadir sənətkarlardan olan aktyor 100-ə qədər teatr və teletamaşada, 40-dan çox bədii, sənədli filmdə, kinoalmanaxlarda çəkilib. Təkcə "Ölülər"dəki Şeyx Nəsrullah rolunu Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində dönə-dönə oynayıb. O, klassik və müasir aktyor sənətinin sintezindən yaranan bir ifa tərzi seçmişdi. Bu baxımdan "Birisi gün, gecəyarısı", "O dünyadan salam", "Hacı Qara" kimi filmlərdə yaddaqalan və maraqlı obrazlara imza atıb.

Xalq artisti, Dövlət mükafatı laureatı olan Məlik Dadaşov aktyor ömrünün son illərində Səməd Vurğun adına Rus Dram Teatrında çalışıb. Bu teatra direktorluq da edib və o zaman yaradıcı heyətin repertuarı xeyli zənginləşib, buraya yeni yaradıcı qüvvələr cəlb olunub. Ümumiyyətlə, Azərbaycan aktyorluq məktəbinin formalaşmasında onun xüsusi xidmətləri var. Sənətini, təcrübəsini uzun illər ərzində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dərs dediyi tələbə-aktyorlarına öyrədib.

Görkəmli aktyor Məlik Dadaşov 1996-cı il dekabrın 2-də 72 yaşında dünyasını dəyişsə də, ulduzu sönməyib. Azərbaycan mədəniyyətinə və incəsənətinə verdiyi dəyərli töhfələr onu hər zaman yaddaşlarda saxlayacaq, unudulmağa qoymayacaq.

***Əli NƏCƏFXANLI***
***XQ***

**Yeni kitab**

# Böyük Qayıdışın Şərqi Zəngəzur akkordları

**Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun 44 gün davam edən Vətən müharibəsində qazandığı möhtəşəm Zəfərdən dərhal sonra Şərqi Zəngəzur iqtisadi rayonunda başlanan genişmiqyaslı işlər yazıçı-publisist, tarix üzrə fəlsəfə doktoru Hacı Nərimanoğlunun yeni çapdan çıxan "Şərqi Zəngəzur – Quruculuq və Böyük Qayıdışın ünvanı" kitabında analitik materiallarla əks olunub.**




"Prezident İlham Əliyev Şərqi Zəngəzurun bərpasının və Böyük Qayıdışın memarıdır" adlı ön sözlə açılan kitabda Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın 44 günlük tarixi qələbədən bir neçə gün sonra – 16 noyabr 2020-ci ildə Şərqi Zəngəzur bölgəsinə ilk səfərlərindən başlayaraq, Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonlarında çoxsaylı görüşlərinə, açılış və təməlqoyma törənlərinə dair məlumatlar rəngli fotolarla 60-dan çox başlıqla Zəfər, Dirçəliş və Böyük Qayıdış fəsillərində təqdim edilib.

Kitabda Vətənimizin ayrılmaz parçası olan Zəngəzurun tarixi keçmişi, Prezident İlham Əliyevin Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması haqqında qərarının siyasi əhəmiyyəti, nankor qonşularımızın törətdikləri vandalizmin nəticələrinin aradan qaldırılması üçün gerçəkləşən dövlət proqramlarının, reallaşan layihələrin bugünkü mənzərəsi və gələcək perspektivləri, Şərqi Zəngəzurun iqtisadi potensialı, təbii sərvətləri barədə materiallar da yer alıb.

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyinin həyata keçirdiyi eyniadlı layihəsi çərçivəsində nəşr edilən kitabda Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasətin regionda daimi sülhün, əmin-amanlığın bərpasına şərait yaradacağına inam ifadə olunur. Yüksək poliqrafik formatda rəngli tərtibatda nəşr edilmiş 240 səhifəlik kitab əvvəldən sonadək Prezident İlham Əliyevin nəşrin üz səhifəsində də əks olunmuş bu fikrinin artıq gerçəkliyə çevrilməsinin sənədli sübutudur: "Mən demişdim ki, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik".

***XQ***

# Müəllimlərin sertifikasiyası “yaxşılar”a meydan açır

**İyunun 8-də ötən il uğur qazana bilməyən müəllimlər təkrar sertifikatlaşdırmaya cəlb olunublar. İyunun 21–22-də və 24-də isə ilk dəfə cəlb olunacaq müəllimlər üçün sertifikatlaşdırma prosesinin test imtahanı mərhələsi keçiriləcək.**




Artıq 3 ildir ki, ölkəmizin ümumtəhsil müəssisələrində çalışan müəllimlərin sertifikatlaşdırılması həyata keçirilir. Azərbaycan Respublikasının Təhsil İnstitutu təhsilverənlərin sertifikatlaşdırılması prosesinə müəllimlərin hazırlığına dəstək göstərmək və məlumatların əlçatanlığını təmin etmək məqsədilə nümunə suallar, videomateriallar və qiymətləndirmə çərçivəsi tərtib edib.

Sertifikatlaşdırmada müəllimin öz ixtisasını hansı səviyyədə bilməsi müəyyənləşir. Bilik səviyyəsi yüksək olan müəllimin əmək müqaviləsinə xitam verilib.

Sertifikatlaşdırma müəllimlərin maddi həvəsləndirilməsində əhəmiyyətli rol oynamaqla yanaşı, yüksək bal toplayan pedaqoqların göstəriciləri nəzərə alınmaqla direktor və direktor müavini olmaq üçün də əsas yaradacaq. Belə ki, bu vəzifələrə təyinatla bağlı yeni yanaşma hazırlanır.

Təhsil elə bir strateji sahədir ki, orada dövlət siyasəti ilə cəmiyyətin tələblərinin uzlaşdırılması vəhdətdə götürülməlidir. Ümumi təhsil



müəllimlər aşkarlanır, onların maddi stimullaşdırılması təmin edilir. Prosedur differensiallaşmış əməkhaqqı sisteminin tətbiqinə uyğun əməkhaqqı artımına imkan yaradır. Bu gün ölkədə sertifikasiya imtahanından uğurla keçən müəllimin orta aylıq əməkhaqqı 1300 manatdır. Belə müəllimlərin sayı 8 minə yaxındır. Bu il keçiriləcək sertifikasiya imtahanının nəticələrinə görə, yeni tədris ilində 20 mindən çox şəxsin tam statuslu müəllim sırasına qoşulması gözlənilir. Keçən il sertifikasiya göstəricisi zəif olan 743 müəssisələrində çalışan müəllimlərin sertifikatlaşdırılmasına maraq da bundan qaynaqlanır. Marağı şərtləndirən başlıca amil, ümumən təhsilin keyfiyyətinin yüksəldilməsinin prioritet götürülməsidir. Bunu sertifikasiyada iştirak etmiş müəllimlər özləri də dilə gətirirlər.

**Astara şəhəri C.Babayev adına 3 saylı tam orta məktəbin ibtidai sinif müəllimi Arzu Həbibova müəllimlik peşəsinin həmişə yeniliklər tələb etdiyini dedi:**

– Şagirdlərə dərin bilik vermək üçün üzərimizdə daim çalışmalıyıq. Bu gün Azərbaycan məktəblərində müasir müəllimlərə böyük ehtiyac duyulduğu üçün sertifikasiya imtahanının tərəfdarıyıq. Çox istərdim ki, imtahandan keçənlər üçün 2-ci şans yaradılsın ki, potensiallarını tam nümayiş etdirə bilsinlər. Məsələn, keçən il verdiyim sertifikasiya imtahanında vaxtdan düzgün istifadə edə bilmədiyim üçün nəticələr məni qane etmədi. 60 mümkün baldan 46-nı yığdım. Halbuki, 50-dən yuxarı bal yığa bilərdim. Göstərdiyim nəticəyə uyğun, maaşım 10 faiz artdı. Amma onu da qeyd etməliyəm ki, məktəbdə dərs yükünün az, müəllimlərin sayının çox olması da maaşımıza təsir göstərir. Müəllimlərə digər məktəblərdə də dərs demək imkanı yaradılsaydı, yaxşı olardı. Daha bir istəyimiz odur ki, sertifikasiya imtahanının nəticələrinə uyğun olaraq, müəllimlərə qəbul imtahanı vermədən ali məktəblərdə təhsillərini artırmaq imkanı yaradılsın. Biz daim inkişaf etməli, biliklərimizi artırmalıyıq.

**Suraxanı rayonu 318 saylı tam orta məktəbin ibtidai sinif müəllimi Nuranə Əsədovanın fikirləri də maraqlıdır:**

– Ali təhsilliyəm. Sertifikasiya imtahanında 50-dən yuxarı bal yığmışam. Maaşım 35 faiz artıb. Təhsil islahatları arasında əhatəlilik baxımından ən geniş, ən böyük proses olan sertifikatlaşdırmanın nəticələri müəllimlərin karyera uğurları üçün də vacib addımdır. Bu proses həm də, ömür boyu öyrənmə mədəniyyətini formalaşdırmaq baxımından əhəmiyyətlidir.

Qeyd edək ki, dünən 8 minə yaxın müəllim təkrar sertifikasiya imtahanı verib.

*Leyla QURBANOVA,*
*Rizvan FİKRƏTOĞLU*
*XQ*

# Uzaq Sibirdə unudulmaz görüş

**Şəfahət Ələsgərov 1955-ci ildə anadan olub. Orta məktəbi bitirəndən sonra 1974–1976-cı illərdə Sovet ordusu sıralarında Rusiyanın Blaqoveşensk şəhərində hərbi xidmətdə olub. Hərbi xidmətini başa vuranda Baykal-Amur magistralının tikintisi gedirdi. Şəfahət həmin tikintidə qalaraq Tında, Sosnovka, Skvorodina şəhərlərindən keçən dəmir yolu xəttinin çəkilişində işləyib.**



Ş.Ələsgərov burada çalışdığı müddətdə o vaxt Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini işləyən Heydər Əliyev tikintiyə baş çəkib. Helikopterlə Tında şəhərinə gələn tanınmış dövlət xadimi BAM-in inşasında çalışan mühəndis və fəhlələrlə görüşüb.

Şəfahət ötən əsrin 80-ci illərinin əvvəllərinə təsadüf edən həmin görüşü xatırlayaraq dedi: “Bir gün inşaatçılara xəbər verdilər ki, Heydər Əliyev işlərin gedişi ilə tanış olmaq üçün tikintiyə gələcək. Yadımdadır ki, onunla birlikdə vilayət partiya komitəsinin birinci katibi Abramenko da gəlmişdi. Tikintidə müxtəlif millətlərin nümayəndələri, o cümlədən azərbaycanlılar da çalışırdı. Bizim çalışdığımız obyektdə işləyən soydaşlarımızın sayı təxminən 30 nəfərə yaxın idi. Hamımız böyük intizar və maraqla Heydər Əliyevin gəlişini gözləyirdik. Bütün inşaatçılar əsgəri qaydada sıra ilə düzülmüşdülər. O, vilayət partiya komitəsinin birinci katibi ilə birlikdə inşaatçılara yaxınlaşıb onlarla söhbət edir, yolun tikintisi ilə əlaqədar maddi-texniki təminat, onların üzləşdiyi hər hansı çətinlik barədə soruşur və çox diqqətlə onları dinləyirdi.

Heydər Əliyev bizim düzüldüyümüz cərgəyə yaxınlaşanda tikintinin rəisi azərbaycanlı olduğumuzu dedi. O, bizimlə birlikdə başqa millətlərin nümayəndələrinin olduğunu nəzərə alıb əvvəlcə rusca hal-əhval tutdu, işlərin gedişi ilə maraqlandı. Sonra üzünü bizə tutub təmiz azərbaycanca “Sizi incitmirlər ki? Hansı problemləriniz var?”-deyə soruşdu. Hamımız bir ağızdan hər şeyin qaydasında olduğunu dedik. O, bir daha azərbaycanca bizə müraciət edib çətinliklərimizlə maraqlandı və bizi narahat edən məsələlər barədə soruşdu. Sonra çox səmimi şəkildə bizimlə sağollaşaraq digər tikinti kollektivləri ilə görüşə getdi”.

Ş.Ələsgərov bu barədə söz açanda həyəcanlı idi:

– Az vaxt keçməyib, o vaxtdan bəri təxminən 40 il ötsə də, uzaq illərin arxasında qalan həmin görüş indi də mənim xatirimdədir. Mən rəhbər işçinin sadə adamlarla, fəhlələrlə mehriban görüşünü, səmimi söhbətini ilk dəfə onda görmüşəm. Heydər Əliyev o qədər səmimi, o qədər qayğıkeş təsir bağışladı ki, uzun müddət həmin görüşün təəssüratından çıxa bilmədik. İlk dəfə bizimlə görüşsə də, hamımıza çox əziz, doğma adam təsiri bağışladı. Ömrümün gənclik illərinə təsadüf edən bu görüş qırx ildən çoxdur ki, yaddaşımda yaşayır. Heç vaxt da uzaq illərin arxasında qalan həmin görüşü unutmayacağam”.

*Süleyman QARADAĞLI*

# “Türk dünyası üçün yaşıl üfüqlər”

**Beynəlxalq Türk Akademiyasının prezidenti akademik Şahin Mustafayev Bakıda Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) Şurasının 13-cü iclasında və Assambleya Şurasının iclasında iştirak edib.**



İclasda Akademiyanın prezidenti ilə yanaşı, TÜRKPA-ya üzv dövlətlərin parlament sədrləri, təşkilatın baş katibi Mehmet Süreya Ər, eləcə də türk inteqrasiyası ilə məşğul olan digər beynəlxalq təşkilatların rəhbərləri və üzv ölkələrin deputatları iştirak ediblər.

TÜRKPA-nın plenar iclasında bu dəfə “Türk dünyası üçün yaşıl üfüqlər: Yaşıl gündəliyin həyata keçirilməsində parlamentlərin rolu” mövzusunda müzakirələr aparılıb.

İclasda çıxış edən akademik Şahin Mustafayev qardaşlıq əlaqələrinin genişləndirilməsində Parlament Assambleyasının rolunu xüsusi vurğulayıb, Akademiyanın qarşıya qoyulan mövzu ilə bağlı təşəbbüsləri barədə məruzə edib.

Tədbir zamanı TÜRKPA sədrliyinin Türkiyədən Azərbaycana rəsmi keçməsi əlaməti olaraq Assambleyanın yeni bayrağı və loqosunun təqdimatı olub. Bundan əlavə, TÜRKPA Şurasının 13-cü iclasının yekunu kimi Bakı Bəyannaməsi qəbul edilib.

*Qabil YUSİFOĞLU*
*XQ*

BEYNƏLXALQ HƏYAT

# Danimarkanın Baş naziri hücuma məruz qalıb

**Danimarkanın baş naziri Mette Frederiksen iyunun 7-də axşam saatlarında Kopenhagendə məruz qaldığı hücum zamanı boynundan yüngül zərbə alıb.**



İnsidentlə əlaqədar baş nazir planlaşdırılan bir neçə tədbiri ləğv etmək məcburiyyətində qalıb. Hadisədən sonra Frederiksen Kopenhagendəki “Rigshospitalet” xəstəxanasına aparılıb. Şahidlərin sözlərinə görə, hücum edən şəxs Frederiksenin çiynindən möhkəm itələyib. “Zərbə güclü olsa da, baş nazir yıxılmadı. Hadisədən sonra o, özünə gəlmək üçün yaxınlıqdakı kafedə əyləşdi”, – deyə şahidlər bildiriblər.

Hücum edən şəxs saxlanılıb, lakin insidentin motivi barədə heç nə məlum deyil. Məlumata görə, 39 yaşlı bu kişinin hadisə ilə bağlı şənbə günü günortadan sonra məhkəmə iclasına gətirilməsi planlaşdırılır.

Qeyd edək ki, hücum Danimarkada Avropa Parlamentinə seçkilər üzrə səsverməyə iki gün qalmış baş verib. Bu seçkilərdə əvvəllər Danimarka Sosial Demokratlar Partiyasının lideri Frederiksen iştirak edib.

Sosial Demokratlar Danimarkanın koalisiya hökumətində ən böyük partiyadır. Onlar hələ də seçkilərdə liderdirlər, lakin son aylarda partiyaya dəstək xeyli azalıb.

*XQ*

# ABŞ nüvə arsenalını artıracaqmı?

**Ağ ev gələcəkdə ABŞ-nin nüvə arsenalını artırmaq qərarına gələcəyini istisna etməyib. Bunu cümə günü ABŞ prezidentinin xüsusi köməkçisi Pranay Vaddi bəyan edib. O bildirib ki, Vaşinqton Rusiyanın, Çinin və Şimali Koreyanın hazırkı trayektoriyasını dəyişməsə belə bir addım atacaq. Eyni zamanda, o, ABŞ-nin Rusiya və Çinlə silahlara nəzarət tədbirləri ilə bağlı danışıqlara hazır olduğunu vurğulayıb, lakin bunu açıq şəkildə ifadə edib ki, Co Bayden administrasiyasına görə, müzakirələr güclü mövqedən aparılmalıdır.**




ABŞ Prezidentinin xüsusi köməkçisi və Ağ evin Milli təhlükəsizlik şurasının silahlara nəzarət, silahsızlanma və yayılmama üzrə baş direktoru Pranay Vaddi cümə günü Vaşinqtonda Silahlara Nəzarət Assosiasiyasının illik toplantısında çıxışının əhəmiyyətli hissəsini ABŞ-nin Rusiya, Çin və Şimali Koreya, eləcə də İran arasındakı qarşıdurmasına həsr edib. “Rusiya, Çin və KXDR sürətlə nüvə arsenallarını genişləndirir və şaxələndirir, silahlara nəzarətdə praktiki olaraq heç bir maraq göstərmirlər. Bu üç ölkə İranla birlikdə getdikcə daha çox əməkdaşlıq edir və hərəkətlərini koordinasiya edir, ABŞ-i, müttəfiqlərimizi və tərəfdaşlarımızı hədələyir”, – deyə Pranay Vaddi bildirib.

Onun sözlərinə görə, Ağ ev belə qənaətə gəlib ki, “yeni rəqabət erası gəlib” və ABŞ-nin “yeni strategiyalara və həll yollarına” ehtiyacı var. ABŞ rəsminin çıxışından göründüyü kimi, Vaşinqton eyni vaxtda Rusiya, Çin və Şimali Koreyanı cilovlaya bilməlidir. Bundan başqa, Pranay Vaddi çıxışında ABŞ-nin silahlara nəzarət, kütləvi qırğın silahlarının yayılmaması və dinc nüvə enerjisinin təhlükəsiz inkişafı sahəsində digər nüvə dövlətləri ilə əməkdaşlığa sadiq olduğunu da vurğulayıb.

Cənab Vaddi bildirib ki, əgər ABŞ hakimiyyət orqanları uzun illərdir imtina etdikləri nüvə arsenalını artırmaq qərarına gəlsələr, o zaman bunun günahkarı Rusiya, Çin və Şimali Koreya olacaq. “Rəqiblərimizin nüvə arsenallarının trayektoriyasını dəyişmədən, yaxın illərdə nüvə silahlarının sayını artırmalı olduğumuz bir nöqtəyə gələ bilərik. Birləşmiş Ştatların prezidenti qərar verərsə, biz bunu həyata keçirməyə tam hazır olmalıyıq. Əgər o gün gəlsə, bu o demək olacaq ki, bizim rəqiblərimizin qarşısını almaq və amerikalıları, eləcə də tərəfdaşlarımızı və müttəfiqlərimizi qorumaq üçün daha çox nüvə silahına ehtiyacımız olacaq”.

Amerika Alimləri Federasiyasının hesablamalarına görə, hazırda ABŞ-da 5044 nüvə başlığı var. Rusiyada 5580, Çində 500, Şimali Koreyada isə 50 nüvə başlığının olduğu iddia edilir. Bununla belə, Pentaqon hesab edir ki, Çin arsenalı 2035-ci ilə qədər 1,5 min ədədə qədər arta bilər.

Eyni zamanda, cənab Vaddinin sözlərinə görə, hazırkı administrasiyanın fikrincə, ABŞ-nin nüvə potensialını artırmağa hazır olması Moskva və Pekini silahlara nəzarət danışıqlarının məqsədəuyğunluğuna inandıra bilər: “Reallıq budur ki, silahlarımızın və döyüş hazırlığımızın daha da genişləndirilməsi strateji silahlara nəzarəti canlandırmaq üçün olduqca vacibdir. Bu, Rusiya və ÇXR-i silah nəzarətində iştirak etməyə təşviq edəcək, çünki rəqabətin idarə olunmalı olduğunu başa düşəcəklər”. Onun sözlərinə görə, ABŞ 2026-cı ilin əvvəlində başa çatacaq Rusiya–Amerika Strateji Hücum Silahları Müqaviləsini (DSNV) əvəz edəcək yeni razılaşmaların hazırlanmasında maraqlıdırlar.

Eyni zamanda, Ağ ev nümayəndəsi açıq şəkildə bildirib ki, Birləşmiş Ştatlar bu yolla “rəqibin nüvə qüvvələrini məhdudlaşdırmağa və onlara təsir etməyə” ümid edir: “Şübhəsiz ki, Rusiya ilə danışıqlar apara biləcəyimiz məhdudiyyətlərin növü Çinin nüvə silahının həcmi və miqyasından və ABŞ-nin Pekinə qarşı çəkindirmə ehtiyaclarından asılı olacaq”. P.Vaddinin sözlərinə görə, DSNV-nin müddəti bitənə qədər ABŞ bu müqavilədə nəzərdə tutulan kəmiyyət hədlərinə riayət edəcək. Bir şərtlə ki, Rusiya da bu həddə əməl etməlidir. Bununla belə, ABŞ rəsmisi diqqətə çatdırıb ki, Birləşmiş Ştatlar DSNV-nin müddətinin uzadılmamasına da hazırlaşır. Cənab Vaddi diqqətə çatdırıb ki, Moskva və Pekin Vaşinqtonla silahlara nəzarət ilə bağlı danışıqlar aparmaq istəmir və bu, Birləşmiş Ştatları və onun müttəfiqlərini “nüvə rəqabətinin kəmiyyət məhdudiyyətlərinin olmayacağı bir dünyaya hazırlaşmağa” məcbur edir.

Xatırladaq ki, Rusiya ABŞ-nin onun təhlükəsizliyinə xələl gətirmək kursundan əl çəkəcəyi təqdirdə, strateji sabitlik və silahlara nəzarət üzrə Vaşinqtonla danışıqlara hazır olacağını bildirib. Eyni mövqeyi Pekin də bölüşür və çinlilər bildirirlər ki, ABŞ-nin Çinə qarşı qarşıdurma siyasəti səbəbindən hazırda nüvə silahlarına nəzarət üzrə Vaşinqtonla danışıqlar prosesinə girməyin mənasını görmür. İyunun 8-də Çinin Vaşinqtondakı səfirliyi ABŞ-ni nüvə tərksilahı rejimini pozmaqda ittiham edərək bildirib ki, Birləşmiş Ştatlar nüvə tərksilahı rejiminə zərbə vurmağı dayandırmalıdır. Eyni zamanda, Pekin qeyd edib ki, onun nüvə arsenalı minimum tələb olunan səviyyədədir və nüvə silahından ilk istifadə etmək və silahlanma yarışı keçirmək niyyətində deyil. Onun sözlərinə görə, “heç bir ölkə Çinə qarşı nüvə silahından istifadə etmədikcə, Çinin nüvə silahı ilə təhlükə hiss etməyəcək”.

*S.ELAY*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 121 (30525) 9 iyun 2024-cü il, bazar

# Türk dünyasının baməzə müdriki

## Hoca da, Molla da, Xacə də ağşəhərli Nəsrəddindir

**Onun adı çəkiləndə insanların çöhrəsinə təbəssüm qonur. Bütün türk xalqları onun irsini özünün mənəvi sərvəti hesab eləyir. Bu şəxs isə hansısa uydurma obraz deyil, tarixi şəxsiyyətdir.**



Yəqin söhbətin Molla Nəsrəddindən getdiyini anladınız. Qardaş Türkiyədə, Ağşəhərdə onun məzarı var. Ümumiyyətlə, bu şəhərdə onunla bağlı çox şeylər qalır.

### Kimliyi az bəllidir

Onun 1208-ci ildə (bəzi mənbələrdə isə 1308-ci ildə) anadan olduğu bildirilir. O, Sivrihisarın Xorto şəhərində doğulub, lakin Ağşəhərdə yaşayıb. Atası Abdulla əfəndi imam olub, lakin çox yaşamayıb. Nəsrəddin mədrəsədə oxuyarkən atasını itirib. Bundan sonra onunçün kənddə qalmaq çətin olub.

1237-ci ildə Nəsrəddin Ağşəhərə gəlib və bölgə qazisi kimi işləməyə başlayıb. Bu vəzifədə işlərkən ona "Nəsrəddin Xoca" deyə müraciət ediblər və o, bu adla da tarixə düşüb.

Türkiyədə onu Nəsrəddin Hoca adlandırırlar. (Hoca "müəllim", "ustad" deməkdir). Biz Molla Nəsrəddin deyirik, Türküstanda, yəni Özbəkistan və Türkmənistanda isə Xacə Nəsrəddin kimi tanıyırlar. Bəlkə də digər türk xalqlarında bir başqa cür tanınır, amma bunların hamısı eyni şəxsi göstərir.

Tarixin elə məqamları olub ki, bütün türk dünyasının ortaq mənəvi sərvətləri olub, yəni "sənin", "mənim" olmayıb, "bizim" olub. Əslində qalanda, təkcə Molla Nəsrəddin deyil, Məhəmməd Füzuli də, Yunus Əmrə də, Nəsimi də, Əlişir Nəvai də hansısa bir türk xalqının deyil, bütöv türk dünyasının övladları və mənəvi sərvətləridir.

### Dünyanın ortası

Ağşəhər meydanının ortasında yerə bərkidilmiş yekə bir lövhə var. Həmin lövhədə yazılıb ki, bura dünyanın ortasıdır. Bu nişanənin öz tarixçəsi var. Belə ki, bir gün Molla Nəsrəddindən soruşurlar ki, dünyanın ortası haradır? Molla da bir qədər aşağı-yuxarı, sağa-sola baxandan sonra gəlib meydanın ortasında dayanır və deyir ki, dünyanın mərkəzi bax, buradır. İnanmayan ölçsün. Kim idi onun dediyini təkzib eləyə bilən. Bu, bir zarafat olsa da, çox düşündürücü və məntiqli cavabdır. Şəhərin ortasındakı o dəmir lövhə də elə mollanın oturduğu yerdə durur.

### Eşşək belində dərs

Molla Nəsrəddin el arasında sevilən, savadlı şəxs olub. Belə deyirlər ki, dərsi başa çatsa belə, şagirdləri molladan əl çəkməz, onun dalına



düşüb, sorğu-suala tutardılar. Mollanın eşşəyin belində tərsinə oturması da bununla bağlıdır. Yəni Molla eşşəyə tərsinə minib dalınca gələn şagirdlərlə söhbət edər, onlara çox şeylər öyrədərdi və beləcə, onun dərsi evə çatana qədər davam edərdi.

### Məzar zarafatı

Molla Nəsrəddin Ağşəhərin rəmzi hesab olunub. Burada çox şey onu xatırladır və onun adı ilə bağlıdır. Avtobus vağzalında, şəhər meydanında, restoranda ya onun heykəlini görə bilərsiniz, ya şəklini, ya da onu xatırladan iki-üç kəlməlik bir sözünü. Qəribədir ki, insanlar Molla Nəsrəddin xarakterinin əsas cizgisi olan zarafatı onun məzarı başına da daşıyıblar. Belə ki, onun məzarı üstündə 6 sütunlu geniş bir günbəz tikilib, sadəcə iki sütun arasında bir qapı var, qalanları isə açıqdır. Həmin o qapı da möhkəm bağlanıb və üstünə yekə bir kilid vurulub. Baş daşının üzərinə Molla Nəsrəddinin ölüm tarixi də tərs yazılıb. Molla Nəsrəddin hicri-qəməri,



yeni müsəlman təqvimi ilə 683-cü ildə (1284-85) vəfat etdiyi halda, lövhəyə rəqəmlərin yeri tərs yazılıb – 386.

### Birdən tutdu...

Molla Nəsrəddinin çox geniş yayılmış zarafatlarından biri gölə maya çalmasıdır. Məlumdur ki, südə maya qatırlar ki, qatıq olsun. Molla da, yəqin ki, varlanmaq üçün gölə maya vururmuş.

İndi Mollanın Ağşəhər gölünün kənarında oturmuş halda heykəli var. Əlində də çömçə.

Görənlər yaxınlaşıb soruşurlar:

– Molla, burada təkbaşına oturub nə iş görürsən?

– Gölə maya çalıram, – deyə Molla cavab verir.

Adamlar gülürlər:

– Heç göl maya tutar?

– Tutmayacağını mən də bilirəm...Birdən tutdu.

### Düşündürən gülüş

Molla Nəsrəddin lətifələrində çox avam, sadəlövh görünür, bəzən də çox ağıllı. Amma bütün hallarda onun lətifəsi düşündürücüdür. O, sadəcə güldürmür, güldürə-güldürə öyrədir, ağıllandırır.

### ...7 lətifəsini danışmalısan

Bir vaxtlar bizlərdə uzun payız-qış gecələrində qonşular birinin evinə yığışıb maraqlı söhbətlər edər, qadınlar xalça-palaz toxuyar, nənə-babalar şirin nağıl, rəvayət, lətifə danışardılar. Onda yazılmamış belə qayda vardı ki, kim Molla Nəsrəddinin lətifəsini danışmağa başlayanda Molla Nəsrəddin sözündən əvvəl "Allah rəhmət eləsin!" sözlərini deməyi unutsaydı, 7 lətifəsini danışmalı idi. Bu, təbii ki, Molla Nəsrəddinə xalq sevgisindən irəli gəlirdi.

*Səməd MƏLİKZADƏ*

İDMAN

## Millimiz Ermənistanı məğlub etdi



**Azərbaycanın kişilərdən ibarət 3x3 basketbol yığması Avropa Kubokunun təsnifat mərhələsində mübarizəyə başlayıb.**

Kosovonun paytaxtı Priştina şəhərində təşkil olunan mərhələdə yığmamız ilk görüşünü Ermənistan komandasına qarşı keçirib. Qarşılaşmada millimiz rəqibi 21:9 hesabı ilə məğlub edib.

## Avropa çempionatında daha 5 medal



**Veteran cüdoçularımız Bosniya və Herseqovinanın paytaxtı Sarayevo şəhərində keçirilən Avropa çempionatında daha 5 medal qazanıblar.**

Komandamızın üzvlərindən M3 yaş kateqoriyası üzrə 66 kiloqramda mübarizə aparan Vüqar Babayev qızıl medala sahib olub. Azər Fətullayev 81, Nizami Məmmədov isə 100 kiloqram çəki dərəcələrində bürünc mükafat alıblar.

M4 yaş kateqoriyası üzrə 100 kiloqramda Emil Hüseynov 1-ci yeri tutub. 73 kiloqramda Əli Əlibəyli isə 3-cü olub.

Qeyd edək ki, yarışın ilk günündə Azərbaycanın veteran cüdoçuları 3 medal qazanıblar. İyunun 9-na kimi davam edəcək qitə birinciliyində 35 ölkədən 800 cüdoçu mübarizə aparır.

## Gimnastlarımız Dünya kubokları seriyasının qalibi olublar



**Azərbaycanın akrobatika gimnastları Dünya Kuboku seriyası üzrə ən yüksək nəticə qazanıblar.**

Kişi cütlüyü Murad Rəfiyev və Daniel Abbasov Bolqarıstan, Portuqaliya və Polşada müvafiq olaraq, gümüş, qızıl və bürünc medal qazanaraq Dünya Kuboku seriyasının ümumi nəticəsinə əsasən, qalib adına layiq görülüblər.

Ağasif Rəhimov və Raziyə Seyidlinin təmsil etdiyi qarışıq cütlük isə ötən il qazandıqları Dünya Kuboku seriyasının qalibi adını bu il də qoruyublar. Bolqarıstandakı çıxışlarına görə birinci yerə layiq görülən idmançılar Portuqaliyadakı yarışa gümüş medalla yekun vurublar. Polşada da bütün rəqiblərini geridə qoyan gimnastlarımız fəxri kürsünün ilk pilləsinə qalxıblar.

Qeyd edək ki, Azərbaycanın akrobatika gimnastları sentyabrın 12-15-də Portuqaliyanın Gimarayeş şəhərində təşkil olunacaq dünya çempionatında mübarizə aparacaqlar.

*L.QURBANOVA*
*XQ*

## Abşeronda yağmursuz, bölgələrdə yağış və duman...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyunun 9-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.**



Gecə 20-23°, gündüz 28-33° isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 40-50 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Əsasən dağlıq və dağətəyi rayonlarda leysan xarakterli intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşam tədricən kəsiləcək. Gecə və səhər arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 18-22°, gündüz 30-35°, dağlarda gecə 8-13°, gündüz 15-20° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

## Süni intellekt qəlbimizi oxuyur



**Fin alimləri süni intellektə insan düşüncələrini oxumağı öyrədiblər. Belə ki, Helsinki Universitetində çalışan alimlərin süni intellektə insan düşüncələrini öyrətmə sınağı uğurlu olub.**

Fin alimləri bildiriblər ki, bu sistem beyin siqnallarını təhlil edərək vizual qavrayışı simulyasiya etməyə qadirdir. Qeyd olunur ki, süni intellekt insan şüurunda yaranan şəkillərlə bağlı əvvəllər elmə məlum olmayan məlumatları ötürə bilib. Alimlərin fikrincə, yeni texnologiya beyin-kompüter interfeysinə əsaslanır.

Yeri gəlmişkən, əvvəllər belə bir metodla işləyən, təcrübə keçən sistemlər beyinlə kompüter arasında mövcud olan yalnız birtərəfli əlaqəni təmin edə bilirdi. Helsinki Universitetinin neyrotexnologiya sahəsində yeni nailiyyəti və yerli alimlərin qeyri-adi kəşfi elm aləmində belə texnologiyaların imkanlarını xeyli genişləndirəcək.

Sonda bildirək ki, ilk dəfə Finlandiya alimləri tərəfindən həyata keçirilən belə bir elmi yenilik süni intellektdən istifadə etməklə beyin siqnallarını, həmçinin kompüter təqdimatını eyni vaxtda modelləşdirən ilk elmi araşdırmadır.

*XQ*

**ALLAH RƏHMƏT ELƏSİN**

Pirallahı rayonundan Vasif İmanov Milli Məclisin sabiq deputatı Çingiz Qənizadəyə anası

**GÜLÇÖHRƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4048
SİFARİŞ 1230
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00